# MÜNDƏRİCAT




3 | ƏLİ HƏSƏNOV: İLHAM ƏLİYEV - YENİ PREZİDENTLİK DÖVRÜNÜN MÖHTƏŞƏM BİR İLİ



10 | İBRAHİM ƏLİYEV: CƏNUBİ QAFQAZDA SOVET DÖVLƏTİNİN MİLLİ SİYASƏTİNDƏ ERMƏNİ AMİLİ VƏ ONUN TARİXİ KÖKLƏRİ

14 | İRADƏ NURİYEVA: AZƏRBAYCAN DİPLOMATİYASININ PARİS SÜLH KONFRANSINDA FƏALİYYƏTİ

18 | NAZİM İSMAYILOV, SEVDA YUSİFOVA: QLOBALİSTİKA VƏ İNSANIN BU DÜNYADAKI YERİ

21 | GÜNEL MƏLİKLİ: NƏQLİYYAT İNFRASTRUKTURU MÜRƏKKƏB SİSTEM KİMİ

25 | ELNURƏ MƏMMƏDOVA: İNVESTİSİYA MÜHİTİNİN FORMALAŞDIRILMASI PROSESLƏRİNİN VƏ MEXANİZMLƏRİNİN MÜASİR ASPEKTLƏRİYANAŞMALAR



29 | LALƏ MAHMUDOVA: STRATEJİ İNNOVASİYA PROSESLƏRİNİN VƏ İDARƏ EDİLMƏSİNİN SƏMƏRƏLİLİK PROBLEMLƏRİ

33 | KAMAL İBRAHİMOV: QLOBAL ÇAĞIRIŞLAR KONTEKSTİNDƏ SIĞORTA FƏALİYYƏTİNİN SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ

37 | CEYHUN ƏHMƏDOV: MƏDƏNİYYƏTLƏRARASI DİALOQ VƏ AZƏRBAYCANÇILIQ

41 | AYNUR DADAŞOVA: TÜRKİYƏ-FRANSA SİYASİ ƏLAQƏLƏRİNƏ ERMƏNİ AMİLİNİN TƏSİRİ

46 | SAMİRƏ ALLAHVERDİYEVA: AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF PRİORİTETLƏRİ

49 | МАМЕДОВА ИЛАХА: РОЛЬ ГЕЙДАРА АЛИЕВА В УРЕГУЛИРОВАНИИ СИРИЙСОГО КРИЗИСА

52 | MÖHÜBBƏT RƏSULOV: İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

57 | САБИНА АЛИЕВА: ПРОБЛЕМЫ БЛИЖНЕВОСТОЧНОГО УРЕГУЛИРОВАНИЯ И ДЕЯТЕЛЬНОСТЬ ОИС

65 | NURAN MƏMMƏDLİ: AZƏRBAYCAN RESPUBLİKASINDA OMBUDSMAN İNSTİTUTU İLƏ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ ƏMƏKDAŞLIĞI






69 | AYDAN NƏBİYEVA: AZƏRBAYCANIN SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MARKALAŞMA PROSESİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

73 | АЗИЗА АГАЕВА: ДИАЛОГ КУЛЬТУР: ВОСТОК – ЗАПАД





61 | СУРА ГУСЕЙНОВА: ВЫЗОВЫ МЕЖДУНАРОДНОЙ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ: ВНЕШНЕПОЛИТИЧЕСКОЕ ИЗМЕРЕНИЕ



*"GEOSTRATEGİYA"* jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.



**GEO STRATEGİYA**

**Təsisçi:**
**"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi**

**Baş redaktor:**
**Əli Həsənov**
**Redaktor:**
**İbrahim Əliyev**
**Redaktor müavini:**
**İsmayıl Qasımov**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**



**Redaksiya heyəti:**

**Əli Həsənov**
**Mübariz Qurbanlı**
**Səlahəddin Xəlilov**
**Rüstəm Məmmədov**
**Rasim Musabəyov**
**Çingiz İsmayılov**
**Musa Qasımlı**
**İbrahim Əliyev**
**Ərəstun Mehdiyev**
**Cəfər Cəfərov**
**Elman Nəsirov**
**Hikmət Məmmədov**
**Elçin Əhmədov**



**Ünvan:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt:**
**strategiya.az@mail.ru**



**"Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunmuşdur.**

**Sifariş № 1340**



**Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.**

# Geosiyasət



ƏLİ HƏSƏNOV
Azərbaycan Respublikası Prezidentinin
ictimai-siyasi məsələlər üzrə köməkçisi,
tarix elmləri doktoru, professor

# İLHAM ƏLİYEV - YENİ PREZİDENTLİK DÖVRÜNÜN MÖHTƏŞƏM BİR İLİ



2018-ci il aprelin 11-də Azərbaycanda növbədənkənar Prezident seçkiləri keçirildi. Seçkilərdə inamlı qələbə qazanmış cənab İlham Əliyev aprelin 18-də Konstitusiyaya və müqəddəs Qurani-Kərimə əl basaraq and içdi və növbəti 7 il üçün Prezident səlahiyyətlərinin icrasına başladı.

Azad seçki fəaliyyəti bəşər sivilizasiyasının nailiyyətləri sırasında xüsusi yer tutur. Müasir hüquqi, demokratik dövlətin, xalqın iradəsinə əsaslanan hakimiyyət orqanlarının, səmərəli özünütəşkil mexanizmlərinə malik cəmiyyətin mövcudluğunu azad və ədalətli seçkilərsiz təsəvvür etmək mümkün deyildir. Məlum olduğu kimi, 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Azərbaycan Respublikası Konstitusiyanın 101-ci maddəsinə dəyişiklik edilərək, dövlət başçısının səlahiyyət müddəti 5 ildən 7 ilə qədər uzadılmış və Azərbaycan Respublikası Prezidentinə seçicilərə etimad votumu üçün müraciət imkanı - növbədənkənar prezident seçkilərini elan etmək səlahiyyəti verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konstitusiya səlahiyyətindən istifadə edərək 2018-ci il 5 fevral tarixli sərəncamı ilə növbədənkənar prezident seçkiləri elan etdi. Ölkənin dinamik tərəqqisi yolunda yeni bir mərhələnin başlanğıcını qoyan bu seçkilər, respublikamızda demokratik siyasi sistemin və liberal cəmiyyətin dərin kök saldığını bir daha nümayiş etdirdi.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra ictimai-siyasi sabitliyin bərqərar edilməsi ölkə həyatının bütün istiqamətlərində, o cümlədən siyasi-hüquqi sahədə köklü islahatların aparılmasını mümkün etmişdir. Ötən dövr ərzində Azərbaycan Respublikasının seçki sistemi müxtəlif mərhələlərdən keçərək inkişaf etmiş, konstitusiya

təminatları da daxil olmaqla, qanunvericilik və təcrübə baxımından təkmilləşdirilmiş, beynəlxalq standartlara uyğunlaşdırılmışdır. İndiyə qədər ölkəmizdə keçirilmiş prezident, parlament, bələdiyyə seçkiləri, ümumxalq səsvermələrinin (referendumların) təcrübəsi göstərir ki, Azərbaycanda əhalinin seçki mədəniyyəti kifayət qədər yüksəlmiş, effektiv ictimai nəzarəti təşkil etməyi bacaran, məsuliyyətli və tələbkar seçici nəsli yetişmişdir. Növbədənkənar Prezident seçkiləri də məhz belə şəraitdə keçirilmiş, xalqın iradəsini dolğunluqla əks etdirmişdir. Seçki prosesində bilavasitə iştirak etmiş maraqlı tərəflər, seçkilərin bütün mərhələlərini diqqətlə izləmiş yerli və xarici müşahidəçilər bu faktı təsdiq etmişlər.

Prezidentliyə namizədlərdən biri - fəaliyyətdə olan Prezident İlham Əliyev əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də öz təşviqat kampaniyasında şəxsən iştirak etməmişdir. Digər namizədlərin isə hər biri yaradılmış əlverişli imkanlardan özünün və komandasının qurduğu strategiyaya uyğun yararlanmışdır.

Seçkiqabağı kampaniyanın televiziyalarda işıqlandırılmasının monitorinqi də göstərmişdir ki, özəl telekanallarda digər namizədlərin hər birinin təşviqatına dair materiallar fəaliyyətdə olan Prezidentin təşviqindən bir neçə dəfə çox olmuşdur. Məsələn, seçkiqabağı təşviqat kampaniyasının üçüncü həftəsində telekanallarda (“Lider” televiziyası, ARB TV, Xəzər TV, “Space” TV, “ Azad Azərbaycan” Teleradio Yayım Şirkəti) YAP-ın namizədinə 15 dəqiqə 36 saniyə, digər namizədlərə isə 1 saat 25 dəqiqə 5 saniyə təşviqat vaxtı ayrılmışdır.

MSK-nın yekun məlumatına görə, ölkə üzrə seçicilərin ümumi sayının 74,30 faizi səsvermədə iştirak etmiş və onların 86.02 faizi cənab İlham Əliyevə səs vermişdir. Rəsmi açıqlanan rəqəmlər “exit-poll”ların nəticələrinə yaxın olmuşdur.

**Azərbaycan xalqının cənab İlham Əliyevə yüksək inam və etimadını şərtləndirən amillər**

Cənab İlham Əliyevin seçkilərdə yenidən qələbə qazanmasının əsasında Azərbaycanın son 15 il ərzində onun rəhbərliyi altında dinamik inkişaf dövrünü yaşaması, ölkəmizin qarşısında dayanan vəzifələrin uğurla icra edilməsi kimi ciddi amillər dayanır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2003-cü ildə və ondan sonrakı illərdə respublikamızın inkişafı, xalqımızın əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədlər həyatda öz təsdiqini tapmışdır. 15 il ərzində Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, modernləşmə yoluna qədəm qoymuşdur. Ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur. Bu isə müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi deməkdir. Azərbaycan beynəlxalq reytinqlərdə yüksək yerlərə qalxmışdır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Davos İqtisadi Forumu Azərbaycanda aparılan islahatlara yüksək qiymət vermişdir. Davos Forumunun “İnklüziv inkişaf indeksi” adlı illik hesabatında (2017) ölkəmiz inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir.

Keçən dövr ərzində Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti kimi dünya birliyində mövqelərini daha da möhkəmləndirmişdir. Digər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq ölkəmizin xarici siyasət strategiyasının əsas prinsiplərindən birini təşkil etmişdir. Beynəlxalq aləmlə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq, geostrateji maraqların reallaşması, terrorizmlə mübarizə, vətəndaşlarımızın firavan və təhlükəsiz şəraitdə yaşayışının təmin olunması istiqamətində uzaqgörən xarici siyasət həyata keçirilmişdir.

Azərbaycan enerji resurslarının dünya bazarlarına səmərəli və əlverişli yollarla çıxarılmasını nəzərdə tutan praqmatik siyasət həyata keçirir və şaxələndirilmiş nəqliyyat infrastrukturu ilə beynəlxalq birliyin diqqətini özünə cəlb edir. Bütün bunlar ölkəmizlə dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsi və ilk növbədə Azərbaycanın geoiqtisadi maraqlarının təmin edilməsi baxımından böyük əhəmiyyət daşıyır. Respublikamız transmilli enerji-nəqliyyat layihələrinin əsas təşəbbüskarlarından biri olmaqla yanaşı, regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

Ötən illər ərzində qazanılmış nailiyyətlər sırasında milli mədəniyyətin inkişafını xüsusi qeyd etməliyik. Milli-mənəvi dəyərlərimizin təbliğinə, mədəni həyatımızın zənginləşməsinə göstərilən diqqət və qayğı, bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət milli mədəniyyətimizin qorunmasında və dünya miqyasında tanıdılmasında böyük nailiyyətlər qazanmağa imkan vermişdir.

Azərbaycan dünyada multikultural dəyərlərin inkişaf etdiyi çoxmillətli ölkə kimi tanınır. Respublikamız müxtəlif mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə sivilizasiyalararası dialoqun təmin olunmasında mühüm rol oynayır. Azərbaycanda müxtəlif mədəniyyətlər arasında vəhdət və qarşılıqlı təsirin mövcud olması müasir cəmiyyətimizin əsas xüsusiyyətlərindən biridir.

Gənclər millətin varlığının və gələcək inkişafının təməl daşıdır. Bu mövqedən çıxış edərək ötən illər ərzində ölkəmizdə gənclərlə bağlı məqsədyönlü dövlət siyasəti həyata keçirilmişdir. Onun əsas qayəsini dövlətçiliyə, milli-mənəvi dəyərlərə sadiq və yüksək intellektual potensiala malik Azərbaycan gəncliyinin formalaşdırılması təşkil etmişdir. Bu sahədə atılan addımlar gənclərin cəmiyyətimizdə özlərini təsdiq etməsində mühüm rol oynamış, onların vətənimizə layiq vətəndaşlar kimi yetişməsinə böyük təsir göstərmişdir.

Azərbaycan Respublikası dövlətimizin ərazi bütövlüyünü qoruyan, dünyanın ən güclü orduları ilə eyni sırada yer alan və yüksək döyüş hazırlığı olan Silahlı Qüvvələrə malikdir. 2016-cı ilin aprel ayında Milli Ordumuz ermənilərin təxribatına layiqli cavab verməklə düşmənə sarsıdıcı zərbələr endirdi və zəbt olunmuş ərazilərimizin bir hissəsini işğalçılardan təmizlədi. Bununla da Azərbaycan Böyük qayıdış üçün ciddi addımını atdı. Hər birimiz indi erməni qəsbkarlarının vaxtilə işğal etdiyi Cocuq Mərcanlı kəndində Azərbaycan bayrağının dalğalanmasından böyük qürur hissi keçiririk. Bu şanlı qələbə erməni işğalçılarına xalqımızın və dövlətimizin gücünü nümayiş etdirdi, Milli Ordumuzun işğal olunmuş torpaqlarımızı istənilən anda azad etməyə qadir olduğunu göstərdi.

Göründüyü kimi, cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi uğurlar Azərbaycan vətəndaşlarını prezident seçkilərində fəal şəkildə iştirak etməyə və xalqımızı inamla firavan gələcəyə aparan liderini növbəti dəfə dəstəkləməyə ruhlandırmışdır.

**İslahatların yeni dalğası**

Xatırlatmaq istərdik ki, növbədənkənar prezident seçkilərində səsvermədən iki gün əvvəl - aprelin 9-da Prezident İlham Əliyev

2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə dair Nazirlər Kabinetinin iclasında islahatların davam etdirilməsinin vacibliyini vurğulamış və görüləcək işlərlə bağlı mülahizələrini açıqlamışdı. Cənab Prezident qeyd etmişdi ki, ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində bundan sonra da addımlar atılacaq, vergi, gömrük sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi davam etdiriləcək, institusional və digər tədbirlər həyata keçiriləcəkdir. Azərbaycan Prezidenti sənayenin, aqrar sahənin dəstəklənməsi və infrastrukturun inkişafı istiqamətində də işlərin davam etdiriləcəyini, məşğulluğun artırılması, yoxsulluğun azaldılması və sosial təminat istiqamətində mühüm addımların atılacağını bildirmişdi. Cənab İlham Əliyev aprelin 18-də keçirilən andiçmə mərasimindəki nitqində isə növbəti müddətdə dövlət başçısı postunda fəaliyyətinin əsas istiqamətlərini bəyan etdi. O, seçkiqabağı təşviqat mərhələsində digər namizədlərin də səsləndirdiyi fikirlərin və təkliflərin nəzərə alınacağını, qaldırılmış məsələlərə diqqətlə baxılacağını xüsusi vurğuladı. Prezident İlham Əliyev növbəti illərdə də bütün sahələrdə islahatların davam etdiriləcəyini, dövlət siyasətinin mərkəzində Azərbaycan xalqının köklü maraqlarının, maddi, mənəvi və sosial tələbatlarının dayanacağını qeyd etdi: "Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır. Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır". Prezident İlham Əliyev sonrakı nitq və çıxışlarında, o cümlədən Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında (11 yanvar), "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda (29 yanvar) etdiyi çıxışlarda, Novruz bayramı münasibətilə xalqa təbrik nitqində və ictimaiyyətlə görüşlərində ölkədəki real vəziyyətin təhlilini vermiş, dövlət idarəçiliyi, iqtisadi inkişaf, sosial müdafiə, məhkəmə-hüquq və digər sahələrdə nəzərdə tutulmuş islahatların başlıca tezislərini bəyan etmişdir. Azərbaycan Prezidenti islahatların əsas strategiyasının ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsinə, demokratik dəyərlərin inkişafına və dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinə yönəldiyini bildirmiş, bu məqsədlə cəmiyyətin bütün sahələrində ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir.

Cənab İlham Əliyev yenidən Azərbaycan Prezidenti seçildikdən sonra Nazirlər Kabinetinin tərkibində ciddi yeniləşmələr baş vermiş, müasir idarəetmə bilik və bacarıqlarına malik olan cavan kadrlar hökumətdə yüksək vəzifələrə təyin olunmuşlar. İctimai rəydə böyük rəğbətlə qarşılanan kadr siyasəti dövlət orqanlarının çevik və səmərəli şəkildə fəaliyyətinə mühüm təsir göstərmişdir. Bu zaman dövlət idarəçiliyi sistemində səmərəliliyin yüksəldilməsi və müasir dövrün tələblərinə cavab verən yeni idarəetmə strukturunun formalaşdırılması zərurəti nəzərə alınmışdır. Dövlət orqanlarının və qurumlarının fəaliyyətini optimallaşdırmaq məqsədilə 2019-cu il yanvarın 14-də Azərbaycan Prezidenti dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalamışdır. Sənəddən irəli gələrək idarəetmə sistemində çevikliyin və effektivliyin təmin olunması istiqamətində əsaslı struktur islahatlarına başlanılmışdır.

Qeyd edək ki, bu islahatların aparılması bütövlükdə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə reallaşan çoxşaxəli islahatlar konsepsiyasının əsas istiqamətlərindən birini təşkil edir. İslahatlar sürətli sosial-iqtisadi inkişafa, əhalinin sosial rifahının yüksəlməsinə mühüm təkan verməklə yanaşı, həm də Azərbaycanı beynəlxalq aləmdə islahatçı dövlət kimi tanıtmaqdadır.

Prezident İlham Əliyevin siyasi iradəsi ilə son bir ildə məhkəmə sisteminin modernləşməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla aparılmışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələrək apelyasiya və inzibati-iqtisadi məhkəmələrin fəaliyyəti təkmilləşdirilmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Azərbaycan Prezidentinin 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman məhz həmin məqsədə xidmət edir. Fərmanda müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsinin formalaşdırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, eyni zamanda, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, müvafiq infrastrukturun yenilənməsi işlərinin davam etdirilməsi, məhkəmə icraatında müasir informasiya texnologiyalarından hərtərəfli istifadə edilməsi və digər mühüm məsələlərin həll olunması istiqamətində zəruri tədbirlərin görülməsi nəzərdə tutulmuş, aidiyyəti qurumlara müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

Fərmanda sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması, hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması və digər mühüm məsələlərlə bağlı qanunvericilik aktlarının layihələrinin hazırlanması müvafiq icra hakimiyyəti orqanına tapşırılmışdır.

Məhkəmə-hüquq sahəsində mühüm islahatlardan biri də mediasiya institutunun yaradılmasıdır. Martın 29-da bununla bağlı müvafiq qanun Prezident tərəfindən imzalanmışdır. Qanunda mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili məsələləri öz əksini tapmışdır.

Prezident İlham Əliyev cinayət törətmiş şəxslərin bağışlanması ənənəsini davam etdirmişdir. Azərbaycan Prezidentinin 2019-cu il 16 mart tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı ilə 431 nəfər əfv edilmişdir.

**Sosial təminat paketinin hazırlanması və həyata keçirilməsi**

Sosial təminat paketinin həyata keçirilməsi ölkədə sosial müdafiə sisteminin gücləndirilməsi sahəsində atılan mühüm addımlardan biridir. Bu paketdə müəyyənləşdirilmiş məqsədlərdən irəli gələrək Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə şəhid ailələri üçün nəzərdə tutulmuş Prezident təqaüdünün məbləği 242 manatdan 300 manata, Əfqanıstan müharibəsində həlak olanların ailələrinə verilən müavinət 220 manatdan 300 manata qaldırılmışdır. Minimum əməkhaqqı və pensiyalarda 40 faizədək artım olmuşdur. Təxminən 100 minə yaxın tələbənin təqaüdü əhəmiyyətli dərəcədə

yüksəlmişdir.

Ötən dövr ərzində qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində mühüm addım atılmışdır. Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği isə 50 faiz artırılmışdır. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülmüşdür. Həmin il şəhid ailələri və Qarabağ müharibəsi əlilləri 626 mənzillə təmin edilmiş, 2019-cu ildə isə onlara 800-ə yaxın mənzilin verilməsi nəzərdə tutulmuşdur.

2018-ci ilin aprel ayında seçkilərdən dərhal sonra Prezident İlham Əliyev "Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" fərman imzalamışdır. Sənəddə bu qəbildən olan insanların vərəsələrinə on bir min manat məbləğində birdəfəlik ödəmənin verilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Prezidenti 2019-cu il yanvarın 11-də Nazirlər Kabinetinin iclasında bu məsələyə yenidən qayıdaraq demişdir: "Bildiyiniz kimi, keçən il prezident seçkilərindən dərhal sonra şəhid ailələrinin vərəsələrinə, - o vərəsələrə ki, o yardımı, o müavinəti almayıblar, - mənim sərəncamımla 11 min manat vəsait nəzərdə tutulur. Eyni zamanda, siyahılara baxılır, dəqiqləşdirilir və bu məsələ ilə bağlı təkliflər də irəli sürülür. Burada, əlbəttə ki, sosial ədalət prinsipi əsas olmalıdır. Qanun və ədalət. Əminəm ki, biz bu istiqamətdə də istədiyimizə nail olacağıq". Cənab Prezident o zaman "qanun və ədalət" prinsipini önə çəkərək vaxtilə bu yardımı alanlara indikindən xeyli az vəsait ödənildiyini nəzərə çatdırdı və yaranmış uyğunsuzluğun tezliklə aradan qaldırılmasını təmin etdi.

Azərbaycan Prezidentinin 2019-cu ilin fevral ayında "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" və "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanları sosialyönümlülük və humanizm prinsiplərinin əsas götürülərək, əhalinin sosial maraqlarının müdafiəsinə və rifah halının yaxşılaşmasına yüksək diqqət yetirildiyini bir daha göstərdi.

**Mütərəqqi inkişafın təməlində dayanan iqtisadi nailiyyətlər**

Cənab İlham Əliyevin yenidən Prezident seçilməsindən ötən bir il ərzində digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də ciddi nailiyyətlər qazanılmışdır. Azərbaycan iqtisadiyyatının dayanıqlığının təmin edilməsi, onun neftdən və qazdan asılılığının daha da azalması, qeyri-neft sektorunun inkişafı məqsədilə ardıcıl tədbirlər davam etdirilmişdir. İqtisadi və maliyyə sektorlarında maksimum şəffaflığın təmin olunması istiqamətində mühüm addımlar atılmışdır. Müasir mərhələdə onu da nəzərə almaq lazımdır ki, bu sahələrdə kompleks tədbirlərin görülməsi iqtisadiyyata, xüsusilə də qeyri-neft sektoruna böyük həcmdə xarici sərmayənin cəlb olunması üçün mühüm əhəmiyyət daşıyır.

Həyata keçirilmiş iqtisadi islahatlar, gömrük və vergi sahəsində şəffaflıqla bağlı görülən işlər büdcə daxilolmalarına da müsbət təsir göstərmişdir. 2019-cu ilin birinci ayında büdcəyə daxilolmalar xeyli artmış, vergi orqanları plandan əlavə 80 milyon manatdan çox, gömrük orqanları isə 20 milyon manatdan çox vəsait toplamışlar. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycanda rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"ndan irəli gələrək vergi sistemində həyata keçirilən əsaslı dəyişikliklər də öz bəhrəsini verməyə başlamışdır.

Son bir ildə sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi sahəsində mühüm addımlar atılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 31 iyul tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu təsis edilmişdir. Fondun yaradılması sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli kredit vəsaiti hesabına maliyyələşdirilməsində mühüm əhəmiyyət daşıyır. 2018-ci ildə fondun xətti ilə 999 sahibkara 160,0 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb, İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277,0 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, 17,0 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərib. Sahibkarlara köməyin gücləndirilməsi üçün bir çox ölkələrə ixrac missiyaları təşkil olunmuşdur. Sahibkarlığa dəstək məqsədilə artıq Belarus, Çin, Ukrayna, Latviya və Polşada Azərbaycan Ticarət evləri fəaliyyətə başlamışdır. Ticarət evlərinin açılması eyni zamanda həmin ölkələrə Azərbaycanın ixracını da artırır. Yaxın gələcəkdə Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur.

Ötən dövr ərzində sənaye potensialının inkişafı ilə bağlı göstəricilərin yüksək dinamikasına nail olunmuşdur ki, bunun nəticəsində sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz artmışdır. 2016-cı ildən tətbiqinə başlanmış investisiya təşviqi mexanizmi müsbət nəticələr verməkdədir. Hazırda bu proqram 300-dən çox layihəni əhatə edir ki, onlardan 107-si 2018-ci ildə icra olunub. İnvestisiya təşviqi proqramı çərçivəsində həyata keçirilən layihələrin dəyəri 2,8 milyard manatdır. İndiyə qədər bu layihələrin icrası nəticəsində 12 min iş yeri yaradılmışdır. 2018-ci ilin iyul ayında Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodu fəaliyyətə başlamışdır.

Azərbaycan iqtisadiyyatında rəqabətliyin artırılması özünün müsbət əksini nüfuzlu beynəlxalq təşkilatların və aparıcı maliyyə qurumlarının reytinq cədvəllərində tapmışdır. Məsələn, Davos Forumunun hesablamalarına əsasən, ölkəmiz iqtisadi rəqabətliliyə görə dünyada 35-ci yeri tutur. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir.

Regionların inkişafı sahəsində həyata keçirilmiş dövlət proqramlarında və digər direktiv sənədlərdə nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına mühüm təkan vermişdir. Regionların III sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində ötən bir il ərzində bölgələrdə əhəmiyyətli infrastruktur layihələri icra edilmiş, yeni sənaye müəssisələri yaradılmışdır. Bununla yanaşı, regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı Azərbaycan Prezidenti tərəfindən bir çox sərəncamlar imzalanmışdır. Azərbaycan Prezidentinin 2019-cu il 29 yanvar tarixli fərmanı ilə "Azərbaycan Respublikası regionlarının

2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Azərbaycan Prezidenti 2018-ci ildə Azərbaycanın bölgələrinə 24 səfər etmişdir.

Məlumdur ki, regionların iqtisadiyyatı əsasən aqrar sahə ilə bağlıdır. Ötən il kənd təsərrüfatı sahəsində çalışanlara 370,0 milyon manat məbləğində subsidiya və güzəştlər verilmişdir. Prezident İlham Əliyevin göstərişi ilə ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, sitrus meyvəçiliyi, çəltikçilik və arıçılığın dirçəldilməsi, fındıq, badam, xurma, zeytun, nar bağlarının genişləndirilməsi istiqamətində görülən işlər ölkənin ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır.

**Enerji-nəqliyyat layihələrinin regional və beynəlxalq əhəmiyyəti**

Azərbaycanın yaxından iştirak etdiyi nəhəng transmilli layihələrin reallaşması Avrasiyanın enerji və nəqliyyat xəritəsində ciddi dəyişikliklər yaratmışdır. 2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi olmuşdur. Bu layihələrin həyata keçirilməsi Azərbaycanın regionda və Avropada geoiqtisadi əhəmiyyətinin artmasında, Qərb ölkələri ilə münasibətlərin daha yüksək pilləyə qalxmasında vacib əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də böyük işlər görülmüşdür. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolu istifadəyə verilmişdir. Ümumiyyətlə, respublika üzrə 2018-ci ildə 2 min kilometr avtomobil yolu çəkilmişdir.

**Sosial-mədəni xidmət sahələrinin və təsərrüfat infrastrukturunun inkişafı**

Ötən bir il ərzində ölkənin sosial-mədəni xidmət sahələrində və təsərrüfat infrastrukturunda mühüm yeniliklər baş vermişdir. Tarixi bina, muzey, teatr və kitabxanalarda yenidənqurma işləri davam etdirilmiş, ölkənin bütün ali təhsil ocaqları, həmçinin AMEA-nın nəzdində olan institut və müəssisələr təmir edilərək yeni avadanlıqla təchiz olunmuşdur. 2018-ci ilin avqust ayında Böyük Britaniyanın müxtəlif aviaşirkətlər və aeroportlar tərəfindən göstərilən xidmətin keyfiyyətini öyrənmək üzrə ixtisaslaşmış nüfuzlu özəl konsaltinq şirkəti "Skytrax" beşulduzlu hava limanlarının reytinqini müəyyənləşdirmişdir. Reytinqə görə, Bakının Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın beşulduzlu 9 əsas hava limanı siyahısına daxil olmuşdur. 2018-ci ilin sentyabrında isə Azərbaycanın daha bir telekommunikasiya peyki "Azerspace-2" orbitə çıxarılmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 1 ildə ölkədə turizm sənayesinin formalaşdırılması, yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi məqsədilə əsaslı islahatlar və mühüm tədbirlər həyata keçirilmişdir. Turizm və dövlət qoruqlarının ərazilərində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə 2018-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi yaradılmışdır. Əlverişli biznes və investisiya mühiti nəticəsində Bakıda və regionlarda yüksək standartlara cavab verən turizm müəssisələri fəaliyyətə başlamışdır.

2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin İmişli rayonunda və Şəki şəhərində yeni mərkəzləri istifadəyə verilmiş, 2019-cu ildə isə regionlarda bu cür 5 mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulmuşdur. Prezident İlham Əliyev 2018-ci ilin avqustunda əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyini (DOST) yaratmışdır.

**Milli maraqlara söykənən xarici siyasətin və ordu quruculuğunun uğurlu nəticələri**

Ötən bir il ərzində beynəlxalq tədbirlər çərçivəsində və eyni zamanda, Azərbaycana edilən səfərlər, ikitərəfli formatda aparılan danışıqlar nəticəsində ölkəmizin dünya birliyində nüfuzu daha da artmışdır. Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin sayəsində Azərbaycanın dünya dövlətləri və beynəlxalq güc mərkəzləri ilə səmərəli, işgüzar və bərabərhüquqlu münasibətləri daha da möhkəmlənmişdir. Prezident İlham Əliyev təkcə 2018-ci ildə xarici ölkələrə 16 səfər etmiş, xarici ölkələrin 16 dövlət və hökumət başçısı isə Azərbaycana səfərə gəlmişdir. Hazırda Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişinin imzalanması üzərində iş gedir. Tərəflər arasında müxtəlif istiqamətlər üzrə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açan bu sənədin bu il imzalanacağı gözlənilir. 2018-ci ilin avqust ayında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması ölkəmizin maraqlarına tam cavab verməklə, onun dənizdə həyata keçirdiyi karbohidrogen hasilatı ilə bağlı layihələrinin, eləcə də digər növ təsərrüfat-iqtisadi fəaliyyətlərinin davamlılığını və təhlükəsizliyini təmin edir.

Prezident İlham Əliyev xarici ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın prinsipial mövqeyini onların diqqətinə çatdırmışdır. Bu istiqamətdə aparılan qətiyyətli və prinsipial siyasət nəticəsində Ermənistanın yeni rəhbərliyinin danışıqlardan yayınmaq, danışıqların formatının dəyişdirilməsi cəhdlərinin qarşısı alınmışdır. Keçən dövr ərzində nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət yetirilmişdir. 2018-ci il iyulun 11-də Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlığın prioritetlərinə dair imzalanmış sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər də öz əksini tapmış, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək, hörmət ifadə olunmuşdur. 2018-ci ilin iyul ayında NATO-nun Brüssel Zirvə görüşündə qəbul edilmiş yekun bəyannamədə də Azərbaycanın ərazi bütövlüyü dəstəklənmişdir. Ötən il Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində böyük konfrans keçirilmişdir. Bu il isə paytaxtımızda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək və Azərbaycan bu böyük təşkilata sədrlik edəcəkdir. Şübhəsiz, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatına sədrlik etmək Azərbaycanın nüfuzunu daha da artıracaq, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işinə müsbət təsir göstərəcəkdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür. Bütün bunların nəticəsidir ki, 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-

Gorus-Laçın yolu nəzarətə götürülmüşdür. Ötən dövr ərzində ölkəmizin hərbi potensialının daha da gücləndirilməsi Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasına daxil olmasında mühüm rol oynamışdır. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri 2018-ci ildə dünyada ən güclü 50 ordu sırasında yer tutmuşdur.

2018-ci il iyunun 26-da Bakı şəhərinin Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə təntənəli hərbi parad keçirilmişdir. 240-dan çox hərbi texnika, gəmi, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikaların nümayiş olunduğu parad Azərbaycanın Silahlı Qüvvələrinin maddi-texniki təchizat baxımından gücünü bütün dünyaya nümayiş etdirdi.

### Davamlı inkişaf və beynəlxalq təşkilatların, sosioloji sorğu mərkəzlərinin hesabatları

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında isə Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilərək, 2018-ci ildə dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Hesabatda Azərbaycan 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə qalxmış, dünyanın bir çox ölkələrini geridə qoyaraq Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqe tutmuşdur. Davos İqtisadi Forumunun "Qlobal Rəqabətlilik 2019" hesabatına əsasən, Azərbaycan 140 ölkə arasında "Dövlət tənzimlənməsinin yükü" alt-indikatoru üzrə əvvəlki illə müqayisədə 3 pillə irəliləyərək 12-ci yeri tutmuşdur. Bu forumun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə dünya ölkələri içərisində 30-cu yeri tutur.

Dövlətin və cəmiyyətin bütün sahələrini əhatə edən dəyişikliklərin baş verdiyi ötən bir il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Azərbaycan Prezidentinin apardığı daxili və xarici siyasət kursu, həyata keçirdiyi islahatlar xalqımız tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Bu fikri Fransanın "Opinion Way" şirkətinin 2019-cu ilin mart ayında Azərbaycanda keçirdi rəy sorğusunun yekunları da təsdiq edir. Təşkilatın Naxçıvan Muxtar Respublikası istisna olmaqla, ölkənin bütün bölgələrində apardığı sorğularda respondentlərin 85,1%-i Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri müsbət qiymətləndirdiyini bildirmişdir. "Opinion Way"in "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5%-i müsbət cavab vermişdir. Rəyi soruşulanların mütləq əksəriyyəti, 80%-ə qədəri Prezident İlham Əliyevin öz seçkiqabağı vədlərini tam yerinə yetirdiyi qənaətindədir.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyev yeni prezidentliyi dönəminin ilk ilində həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətlə ölkəmizin inkişafı, xalqımızın əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədləri vaxtında və yüksək səviyyədə yerinə yetirmişdir. Azərbaycanın əldə etdiyi uğurlar xalqımızın bir il bundan əvvəl keçirilən prezident seçkilərində cənab İlham Əliyev kimi uzaqgörən siyasi lideri dəstəkləməklə düzgün mövqe tutduğunu bir daha sübut edir.

### MƏNBƏLƏR


*1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi. // "Azərbaycan", 19 aprel 2018-ci il.*

*2. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda nitqi. // "Azərbaycan", 29 may 2018-ci il.*

*3. Azərbaycan Prezidenti İlham Əliyevin Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində nitqi. //"Azərbaycan" qəzeti, 30 may 2018-ci il*

*4. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Əskişəhər şəhərində TANAP layihəsinin açılış mərasimində nitqi. // "Azərbaycan" qəzeti, 13 iyun 2018-ci il*

*5. Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi paradda nitqi. // "Azərbaycan" qəzeti, 27 iyun 2018-ci il*

*6. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ntqi. // "Azərbaycan" qəzeti, 10 iyul 2018-ci il.*

*7. Azərbaycan Prezidenti İlham Əliyevin Xəzəryanı dövlətlərin başçıları Aktau Zirvə toplantısında nitqi. //"Azərbaycan" qəzeti, 13 avqust 2018-ci il.*

*8. Azərbaycan Prezidenti İlham Əliyevin Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda nitqi. // "Azərbaycan" qəzeti, 16 sentyabr 2018-ci il.*

*9. Azərbaycan Prezidenti İlham Əliyevin Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda nitqi. // "Azərbaycan" qəzeti, 22 sentyabr 2018-ci il.*

*10. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ntqi. // "Azərbaycan" qəzeti, 10 oktyabr 2018-ci il.*

*11. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ntqi. // "Azərbaycan" qəzeti, 12 aprel 2019-cu il.*

*12. Azərbaycan Prezidenti İlham Əliyevin Real televiziyasına müsahibəsi. // "Azərbaycan", 13 fevral 2019-ci il.*

*13. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda nitqi.// "Azərbaycan", 30 yanvar 2019-ci il.*

*14. Azərbaycan Prezidenti İlham Əliyevin VII Qlobal Bakı Forumunun açılışında nitqi. // "Azərbaycan", 15 mart 2019-ci il.*

*15. Prezident İlham Əliyev bir il əvvəlki reytinqini və seçicilərinin yüksək etimadını daha da artırıb. // "Azərbaycan", 10 aprel 2019-ci il; //https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_bir_il_evvelki_reytinqini_ve_sechicilerinin_yuksek_etimadini_daha_da_artirib_VIDEO-1267335*

*16. http://www.president.az*

*17. http://www.mehriban-aliyeva.org*

*18. http://www.cabmin.gov.az*

*19. http://www.meclis.gov.az*

*20. http://www.mfa.gov.az*

*21. http://www.azstat.org*

*22. http://www.eco.gov.az*

*23. http://www.preslib.az*

*24. http://www.azertag.az*

**Açar sözlər:** *dövlət müstəqilliyi, dövlət idarəçiliyi, sosial-iqtisadi inkişaf, makroiqtisadi sabitlik, siyasi plüralizm, vətəndaş cəmiyyəti, xarici siyasət, enerji təhlükəsizliyi.*

**Ключевые слова:** *государственная независимость, государственное управление, социально-экономическое развитие, макроэкономическая стабильность, политический плюрализм, гражданское общество, внешняя политика, энергетическая безопасность.*

**Key words:** *state independence, public administration, socio-economic development, macro-economic stability, political pluralism, civil society, foreign policy, energy security*

**Али Гасанов,**
**помощник Президента Азербайджанской Республики**
**по общественно-политическим вопросам,**
**доктор исторических наук, профессор**

**Ильхам Алиев - Грандиозный год нового периода президентства**

**РЕЗЮМЕ**

В начале статьи подробно анализируются идеологические основы политики национального развития общенационального лидера Гейдара Алиева, построенной на независимойгосударственности Азербайджана. В то же время, изучается понятие сильного государства, отраженное в государственном учении Гейдара Алиева, и его экономические, политические, социальные и нравственные основы. В статье отмечается, что Ильхам Алиев, очень успешно и динамично продолжающий эту политику, за 15 лет президентства, опираясь на платформу гражданскойсолидарности, основа которой была заложена общенациональным лидером Гейдаром Алиевым, еще более укрепил внутреннюю общественно-политическую стабильность, обеспечил безопасность населения, основные права и свободы граждан, спокойствие в стране, добился постепенногоповышения благополучия граждан.

Наряду с этим, в статье подчеркивается, что по коэффициенту прочной общественно-политической стабильности, воцарившейся на основе внутреннего национального гражданского единства, поддержки большинством населения политики власти в современный период, Азербайджан занимает первое место на постсоветском пространстве. В статье отмечается, что по внутренним параметрам развития – макроэкономической стабильности, динамично развивающейся экономике, динамики системы социальногои морального обеспечения, позитивной демографической ситуации, государственному контролю за процессами миграции и урбанизации, эффективности государственного управления и др. Азербайджан за последние 15 лет укрепил свое место в первой тройке среди стран региона.

В то же время, в статье научно обосновывается, что благодаря внешней политике Президента Ильхама Алиева, опирающейся на национальные интересы, Азербайджан признан как государство, отличающееся независимой позицией, неуклонно повышается его международный авторитет. Наряду с этим, в статье на фактах широко анализируются успехи Азербайджана в экономической сфере, а также доводится до внимания осуществление в Азербайджанепод руководством Президента Ильхама Алиева гигантских транснациональных энергетических и транспортных проектов.

Кроме того, в статье обосновывается, что Президент Азербайджана Ильхам Алиев своей продуманной и целенаправленной политикой, осуществленной в первый год нового президентского срока, своевременно и на высоком уровне выполнил все обещания, касающиеся развития нашей страны, обеспечения жизни народа в условиях мира и спокойствия. Достигнутые Азербайджаном успехи еще раз доказывают, что наш народ занял правильную позицию, поддержав на проведенных в прошлом году президентских выборах такого дальновидного политического лидера, как господин Ильхам Алиев.

**Ali HASANOV**
**Assistant to the President of the Republic of Azerbaijan for Publicand Political Issues,**
**Doctor of Science in History, Professor**

**Ilham Aliyev - A grandiose year of the new presidential term**

**SUMMARY**

The article begins with a thorough analysis of the ideological foundations of the national development policy of national leader Heydar Aliyev, which was built on the basis of independent statehood of Azerbaijan. The article studies the concept of a strong state, reflected in Heydar Aliyev's state doctrine, as well as its economic, political, social and moral foundations. The article says that during 15 years of his presidency, President Ilham Aliyev, relying on a civil unity platform, the foundation of which was laid by national leader Heydar Aliyev, has strengthened internal public and political stability, ensured security of the population, the fundamental rights and freedoms of the people, tranquility in the country, and well-being of citizens succeeded gradually.

The article notes that Azerbaijan ranks first in the post-Soviet area thanks to internal national-civil unity and the strong public and political stability factor, which is based on the broader public support for the government's policy. The article says that over the past 15 years Azerbaijan has reinforced its position in the top three among the regional countries on key parameters of internal development, including macro-economic stability, dynamic economic development, dynamics of public and moral security system, positive demographic situation, effective government control of migration and urbanization.

The article provides a scientific proof of Azerbaijan`s recognition as a state that has its independent standing and enjoys gradually increasing international influence thanks to President Ilham Aliyev's foreign policy, which is based on national interests.The article features a factual analysis of Azerbaijan's economic achievements, highlighting huge transnational energy and transport projects being implemented in the country under the leadership of President Ilham Aliyev.

The article also substantiates that the President of Azerbaijan Mr. Ilham Aliyev fulfilled all the promises he made in the first year of his new presidency on time and at a high level, ensuring the development of our country and living of our people in a tranquil condition. The success of Azerbaijan once again prove the right position of our people supporting political leader Mr. Ilham Aliyev in the presidential elections a year ago.



İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

# CƏNUBİ QAFQAZDA SOVET DÖVLƏTİNİN MİLLİ SİYASƏTİNDƏ ERMƏNİ AMİLİ VƏ ONUN TARİXİ KÖKLƏRİ



Müasir dövrün ən bəlalı problemlərindən biri olan milli zəmində qızışdırılmış və dəstəklənən münaqişələr Cənubi Qafqazda özünü tam çılpaqlığı ilə nümayiş etdirdi. İndi ictimai-siyasi proseslərdən az-çox başı çıxan hər bir şəxs yaşadığı yerdən asılı olmayaraq bu məsələ barəsində kifayət qədər məlumat ala bilir və onun böyük oyunların aləti olmasını görə bilir. Dünyada bu gün elə bir ölkə yoxdur ki, müxtəlif səbəblər üzündən baş verən qarşıdurmalar, qanlı münaqişələr, müharibələr, terror ona bu və ya digər dərəcədə toxunmasın.

Son dövrlərdə bu münaqişələrin ən ziddiyyətliləri postsovet məkanında baş verir. Uzun illər proletar beynəlmiləlçiliyi, xalqların dostluğu və qardaşlığı pərdəsi altında özünün humanist imicini formalaşdırmağa çalışmış Sovet dövləti və onun bayraq etdiyi kommunist ideologiyası milli münasibətlər məsələsində heç də olduğu kimi görünmədiyini real həyatda sübut etdi. Sovetlər ittifaqının dağılması məqamında maskalar atıldı, partiya və dövlətin müxtəlif xalqlara münasibətdə tutduğu qərəzli mövqe açıq şəkildə ortaya çıxdı. Milli məsələnin tam və dönməz olaraq həll olunduğu hakim partiyanın və dövlətin fündamental sənədlərində yazıldığı bir ölkədə - SSRİ-də həmin iddiaların tam əksi aşkar oldu. Onun müxtəlif yerlərində milli zəmində münaqişə ocaqları yaradıldı. Özü də mövcud faktlar sübut etdi ki, bu münaqişələr üçün zəmin son illərdə yaranmamışdır. Bu səbəblər həmişə mövcud olmuş, qayğıkeşliklə pərdələnərək qorunub saxlanmış, zaman-zaman istifadə olunmuşdur.

Sovet hakimiyyəti illərində bu dövlətin siyasətində xeyli miqdarda müəmmalı məqamlar, gizli işlər olmuşdur ki, onların əksəriyyəti tədqiqatçıların diqqətindən gizlədilmiş, yaxud həmin hadisə və proseslər hakimiyyətin diqtəsi ilə saxtalaşdırılaraq, kommunist ideologiyasına sərf edən formada təqdim edilmiş, onlara müsbət don geyindirilmişdir. Belə məsələlərdən biri də SSRİ-nin bütün tarixi boyu ermənilərin Cənubi Qafqaza köçürülməsi, onların müsəlman əhalinin torpaqlarında yerləşdirilməsi, erməni amilinin bu regionda gücləndirilməsi və bununla bağlı digər vacib məsələlərdir.

Sovet dövləti və onun avanqardı olan Kommunist partiyası Rusiya imperiyasından miras qalmış millətçilik siyasətini fasiləsiz olaraq davam etdirmiş, ənənəvi ayrı-seçkilik siyasətindən ayrılmamışdır. Ümumiyyətlə, Cənubi Qafqazda erməni amilinin gücləndirilməsi birmənalı olaraq onlardan imperiya dayaqlarının formalaşdırılması və möhkəmləndirilməsinə xidmət etmişdir.

Rusiya dövlətinin Qafqaz siyasətində erməni amili öz kökləri ilə xeyli qədim dövrlərə gedib çıxır. Hələ XVIII əsrin I yarısında Qafqaza can atan I Pyotrun Qafqaz siyasətində erməni amilinin gücləndirilməsi və ondan imperiyanın dayaqları kimi istifadə edilməsi kifayət qədər əhəmiyyətli yer tuturdu. Həmin vaxt Rusiya imperiyası burada möhkəmlənə bilmədi. Nadirin hələ şah taxtına çıxmamışdan əvvəl

bir sərkərdə kimi uğurlu hərbi fəaliyyəti sayəsində onlar Xəzəryanı Azərbaycan ərazilərini tərk etsələr də, sonradan Cənubi Qafqazın ekspansiyası bərpa edilən zaman erməni amili yenidən aktuallaşmışdı.

XIX əsrin əvvəllərində Cənubi Qafqaza gələn Rusiya bütövlükdə azərbaycanlı əhalinin əksəriyyət təşkil etdiyi bir ərazi kimi, bu müsəlman ölkəsində imperiya dayaqlarını qurmaq üçün müxtəlif xristian əhalinin burada yerləşdirilməsi hesabına özünün dayaq nöqtələrini yaradırdı ki, bu prosesdə də ermənilər böyük əksəriyyət təşkil edirdilər. Bu ərazilərdə məskunlaşdırılmış almanlar, rus təriqətçiləri və bidətçiləri sayca çox məhdud idilər və imperiya dayaqları missiyasını lazım olan səviyyədə yerinə yetirə bilmirdilər. Ermənilər həmin fəaliyyət üçün əvəzsiz keyfiyyətlərə malik idilər. Buna görə də onların bu ərazilərə köçürülməsinə xüsusi üstünlük verilirdi. Təsadüfi deyildi ki, ermənilərin Cənubi Qafqazın müsəlman ərazilərinə köçürülməsi həmin vaxtdan müasir dövrümüzə qədər fasiləsiz olaraq davam etdirilmiş, siyasi rejimlərin dəyişməsi belə bu köçürmənin məqsədlərini dəyişməmişdir.

XIX əsr boyu ermənilərin Cənubi Qafqaza köçürülməsi zorakılıqla müşaiyyət edilsə də, nisbətən dinc şəkildə həyata keçirilmişdir. Onlardan bir avantürist, terrorçu, araqarışdıran qüvvə kimi bilavasitə istifadə edilməsi XX əsrin əvvəllərindən başlayır.

Bu zaman ölkədə, xüsusən də ictimai-siyasi həyatda fəallığın artması, milli şüurun dirçəlişi və milli hərəkatın gücləndiyi şəraitdə erməni avantürasından geniş istifadə olunmağa başladı. 1905-ci ildə Cənubi Qasqazın müxtəlif yerlərində, xüsusən Bakıda milli zəmində münaqişə törədilməsinə təkan verildi.

O vaxtdan etibarən Cənubi Qafqaz xalqlarının, xüsusən Azərbaycan xalqının həyatının həlledici məqamlarında törədilən fitnəkar hadisələrdə ermənilərdən başlıca qüvvə kimi istifadə olunurdu. 1918-ci il Mart soyqırımı, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti zamanı törədilən təxribatlar, həmin siyasətin real təzahürləri idi.

1917-ci ildə Rusiyada mütləqiyyətin devrilməsi və bolşeviklərin sovet hakimiyyətinin yaradılmasından sonra erməni amili dövlətin siyasətində öz yerini və əhəmiyyətini saxladı. Buna görə də onların Cənubi Qafqazda sayının artırılması, müəyyən ideyalarla zəhərlənməsi, potensial münaqişə qüvvəsi kimi qorunub saxlanması prosesi nəinki zəifləmədi, hətta bir qədərdə gücləndirildi və məqsədyönümlü edildi.

Erməni əhali bu sahədə öz xidmətlərini təmənnasız yerinə yetirmirdilər. Onlar bu xidmətin meqabilində özləri üçün torpaq, vəzifə, titul, sərvət alırdılar. Eyni zamanda onları itaətdə saxlamaq və konkret məqsədlərdə istifadə etmək üçün beyinlərini uydurma əfsanələrlə idarə edirdilər. Onların ərazi iddiaları da bu ideyalardan qaynaqlanırdı..(1. c.134-138)

Sovet dövləti və onların liderləri olan bolşeviklər K.Marks və F.Engelsin əsasını qoyduqları sosializm nəzəriyyəsinin daşıyıcıları kimi çıxış etsələr də, ictimai həyatın bütün sahələri üzrə baxışlarında və praktikalarında öz maraqlarına daha yaxın olan bir mövqedən çıxış edirdilər. Milli məsələdə də onlar proletar internasionalizmi ideyasını özlərinə şüar etsələr də, imperiya düşüncəsindən çox da uzağa gedə bilməmişdilər. Köhnə imperiyanı nəinki köhnə sərhədlərində qoruyub saxlamağa çalışırdılar, həm də bu imperiyanı daim genişləndirmək haqqında düşünürdülər. Bu imperiyada isə sözdə bütün millətlər və xalqlar etnik, dini, mədəni mənsubiyyətindən asılı olmayaraq bərabərhüquqlu elan edilsə də reallıqda onların hər birinin yeri məlum idi. Etnik və dini ayrıseçkilik dövlətin və onun lideri olan kommunist partiyasının gündəlik siyasətində əvvəllər olduğu kimi qalırdı.

Sovet dövlətinin Qafqazda yeritdiyi milli siyasət buranın əhali tərkibi və qeosiyasi xüsusiyyətlərinə uyğun olaraq səciyyələnirdi.




Ermənilərin Cənubi Qafqaza köçürülməsi Sovet dövlətinin buradakı gizli maraqlarından irəli gəlirdi. Sovet dövləti tarixində bu miqyasda köçürmələr ermənilərdən başqa digər xalqlara tətbiq edilmirdi.

Tarixi faktların təhlili sübut edir ki, bu köçürmə siyasəti Rusiya imperiyasının həmin siyasətinin ciddi cəhdlə davam etdirilməsi idi. Erməni amilinin Rusiya imperiyasında, onun ardınca isə Sovet dövlətinin siyasətində istifadə edilməsi ilk növbədə türk dünyasına, o cümlədən Osmanlı Türkiyəsinə, Türkiyə Respublikasına və yerli türk respublikalarına qarşı da istifadə olunurdu. Bu mənada həmin siyasətin hədəfi olan Türkiyəni və Sovet Azərbaycanını bir birindən ayırmaq da düzgün deyildi.

Məlumdur ki, Qafqaza və Türkiyənin şərq torpaqlarına ekspansiya siyasətində Rusiya ermənilərdən geniş istifadə edirdi. I dünya müharibəsinin axırlarında inqilabların baş verməsi səbəbindən Qafqaz cəbhəsində mövqelərini itirən Rusiya Almaniya ilə bağlanmış Brest müqaviləsinə görə bu iddialarından imtina etməli oldu. Bir qədər sonra həmin torpaqları ələ keçirmək istəyən Sovet dövləti erməni amili ilə öz hərəkətlərini izah edir, bunun üçün Ermənistanı gücləndirərək onların adından istəklərinə çatmaq istəyirdi. İkinci dünya müharibəsindən qalib çıxmış Sovet dövləti Türkiyəninn şərq torpaqlarını ələ keçirmək üçün fəal hərəkətə keçir. Bu məqsədlə Ermənistan SSR-in əhalisi xaricdən oraya köçürülən ermənilər hesabına artırılırdı. Həmin əhalinin Türkiyədən qoparılacaq ərazilərdə yerləşdirilməsi nəzərdə tutulurdu. Bu mümkün olmadıqda isə Sovet dövlətinin öz ərazisində olan Azərbaycan SSR-in hesabına yeni köçürülən ermənilər üçün həyati məkan yaradılırdı. Cənubi Qafqaz ölkələrinin sovetləşməsi anında Qarabağ, Naxçıvan və Zəngəzurun Ermənistana verilməsini təmin etmək istəyirdilər. O vaxt Zəngəzur Ermənistana verilmişdi. Lakin obyektiv səbəblər üzündən Naxçıvanın və Dağlıq Qarabağın Ermənistana verilməsi mümkün olmur. Buna görə də orada muxtar hüquqlu inzibati ərazi vahidləri yaradılmışdı. Bütün bunlara baxmayaraq 1920-1940-cı illər arasında Ermənistana 100 mindən artıq erməni köçürülmüş və məskunlaşdırılmışdı.(2, s. 64)



СОВЕРШЕННО СЕКРЕТНО.

СПРАВКА

О настроениях среди азербайджанского населения Армении в связи с предстоящим его переселением в Азербайджанскую ССР.

Еще задолго до официального об"явления решения Правительства о переселении азербайджанцев из Армении в Азербайджанскую ССР слухи об этом стали циркулировать среди населения Армянской ССР и вызвали всякого рода неправильные толкования цели этого мероприятия.

Нами были зафиксированы многочисленные факты высказываний азербайджанцев об их нежелании переезжать на новое местожительство, посещения некоторыми из них кладбищ, где они оплакивали могилы родных и молились о том, чтобы их не переселяли.

Были отмечены также факты невыхода колхозников на полевые работы, вырубания ими своих фруктовых садов, разрушения жилых домов и подсобных строений.

Поступали данные и о том, что вражеский элемент использовывает эти отрицательные настроения, ведя антисоветскую агитацию и толкуя переселение как акт недоверия Советской власти к азербайджанцам на случай войны СССР с Турцией.

После официального об"явления решения Правительства о переселении азербайджанской части населения из Армении в Азербайджанскую ССР и проведения советско-партийными организациями раз"яснения цели этого мероприятия положение значительно улучшилось, в частности, в расположенных на низменности Вединском и Зангибасарском районах наблюдается большое стремление азербайджанцев - как можно скорее переселиться в Азербайджанскую ССР.

Türkiyənin şərq torpaqlarının – Qars, Ərdəhan, Ağrı dağı ətrafı, Sürməli vilayərlərini və s. ələ keçirilməsi guya I dünya müharibəsi nəticəsində itirilmiş "Qərbi Ermənistan" adı altında Ermənistan SSR-ə qaytarılması məsələsi İkinci dünya müharibəsindən dərhal sonra yenidən aktuallaşdırılır. 1945-ci ilin iyulunda Podstam konfransında SSRİ-nin Xarici işlər xalq komissarı V.Molotov bu məsələni qaldırdı. Müharibədən qalib çıxmış SSRİ öz nüfuzundan istifadə edərək bu məsələni həll edərək Ermənistanı genişləndirmək istəyirdi.

Sov.İKP MK Siyasi Büro Ermənistan K(b)P MK katibi Q.Arutinovun müraciəti əsasında qərar qəbul etdi: "Xaricdəki ermənilərin *vətənə* (kursiv mənimdir – İ.Ə.) qayıtması ilə əlaqədar Ermənistan K(b)P MK-nin müraciəti ilə razılıq bildirilsin və SSRİ XKS-nin bu məsələ üzrə tədbirlər planının layihəsi təsdiq edilsin"(3, s. 278; 4, s.). Siyasi Büronun qərarına uyğun olaraq 21 noyabr 1945-ci il tarixdə SSRİ XKS "Xaricdəki ermənilərin Sovet Ermənistanına qayıtması məsələsi üzrə tədbirlər haqqında" qərar qəbul etdi. Həmin qərarda Ermənistan DİXK-nə Bolqarıstan, Yunanıstan, İran, Livan, Rumıniya, və Suriyadan köçüb gələn ermənilər kömək göstərilməsi həvalə olunurdu. "(3, s. 278; 4)

Dünyanın 12 ölkəsindən 360 mindən artıq erməni SSRİ-yə köçmək arzusunu bildirdilər. Lakin tezliklə SSRİ ilə Qərb arasında başlanan "soyuq müharibə" "Qərbi Ermənistan" adlandırılan Türkiya ərazilərinin ələ keçirilməsinin qeyri-mümkün olduğunu göstərdi.(4). Buna görə də Sovet rəhbərliyi Ermənistana köçürülən ermənilərin yerləşdirilməsi problemini Azərbaycanın hesabına həll etməyə çalışır. 1945-ci ilin noyabrında Ermənistan KP MK-nın birinci katibi Q.Arutinov Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistan SSR-ə birləşdirilməsi təklifi ilə Sov.İKP MK-ə müraciət edir. Buna cavab olaraq Azərbaycan KP MK-nın birinci katibi bunun əvəzində Ermənistanın azərbaycanlılar yaşayan ərazilərini Azərbaycana verilməsini təklif edir. Buna görə də məsələ gündəlikdən çıxarılır.

Lakin xaricdən gətirilən ermənilərin yerləşdirilməsi üçün yeni avantura ortaya atılır. Azərbaycanda pambıqçılığı inkişaf etdirmək bəhanəsi altında Ermənistanda yaşayan Azərbaycanlıların Azərbaycanın Kür-Araz düzənliyinə könüllülük əsasında köçürülməsi planı işə salınır. ABŞ-da yaşayan tarixçi professor Vladislar Zubok hesab edir ki, Ermənistanda yaşayan azərbaycanlılar sovet siyasi oyunlarının qurbanı olmuşdular. Onun fikrincə erməni rəhbərliyinin təklifi ilə repatriasiya olunmuş ermənilərin yerləşdirilməsi xatirinə azərbaycanlılar Ermənistandan deportasiya edilmişdilər. Bunun sayəsində Ermənistanda azərbaycanlıların sayını 2 dəfədən artıq azaltmaq mümkün oldu.(5, c.58)

V.Zubkovun qeyd etdiyi kimi, xaricdən 400 min erməni köçürmək nəzərdə tutulsa da, 90 min nəfər köçürülmüşdü.(5, c. 58)

23 dekabr 1947-ci ildə SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən azərbaycanlı kolxozçular və digər əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığında köçürülməsi haqqında" qətarı ilə konüllülük adı altında azərbaycanlı əhalinin zorla köçürülməsinə start verilir.(6)

Həmin sənədin əsl mahiyyəti onun 11-ci bəndində üzə çıxır. Orada deyilirdi: "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülmüş azərbaycanlıların boşaltdıqları tikililəri və yaşayış evlərini Ermənistan SSR-ə xaricdən gələn ermənilərin məskunlaşdırılmasına icazə verilsin"(6)

Bu proses 1953-cü ilə - İ.Stalinin ölümünə kimi davam etdirilir." Qərara görə 100 min azərbaycanlının kömürülməsi nəzərdə tutulurdu. Gətirilən bəhanələrin qondarma olması özünü bir daha onunla sübut edirdi ki, köçürülənlərin çoxu Kür-Araz ovalığına gedib çıxmırdı. Onların çoxu pərakəndə şəkildə Azərbaycanın digər rayonlarına və hətta Gürcüstana gedib çıxmışdı. Gürcüstana gedib çıxanları 1951-ci ildə zorla Qazaxstana köçürmüşdülər.

10 mart 1948-ci ildə SSRİ Nazirlər Sovetinin yeni qərarı qəbul edildi ki, orada azərbaycanlıların Ermənistandan köçürülməsinə mütəşəkkil xarakter verildi.(7)

Bu, məsələnin mahiyyətini dəyişmirdi, lakin köçürmə zamanı nəzərdə tutulan tələblərdən yayınmaların qarşısını alırdı. Köçürülmə prosesi zamanı yol verilən pərakəndəliklər, qeryri-dəqiqliklər başqa bir reallıqdan xəbər verirdi. Görünür ki, bu köçürmənin məqsədi Kür-Araz ovalığında pambıqçılığın inkişaf etdirilməsi, əhalinin rifah halının yüksəldilməsi üçün onların işlə təmin edilməsi, ölkənin vacib iqtisadi problemlərinin həll edilməsi deyil, Türkiyəyə qarşı, ölkə daxilində isə Azərbaycan xalqına qarşı yönəlmiş bir avantüraya xidmət edirdi. Belə bir zamanda partiya və dövlətin humanist milli siyasətindən söhbət gedə bilməzdi. SSRİ-də müsəlmanlara, o cümlədən azərbaycanlılara münasibətdə ayrı-seçkilik mövqeyi dəyişilməz olmuşdur. Eyni zamanda Azərbaycana münasibətin başlıca göstəricilərindən biri də, onun turk xalqlarına mənsub olması və bu mənada Türkiyə ilə münasibətdə istifadə olunması idi. İstədiklərini Türkiyədən ala bilməyəndə hər dəfə onun qisası azərbaycanlılardan alınıb. Ona qarşı törədilən fitnələr çox zaman Türkiyə ilə münasibətlərin kəskinləşməsi anlarında özünü göstərmişdir. (8)

Qeyd olunduğu kimi, 1940-cı illərin sonu - 50-ci illərin əvvəllərində azərbaycanlı əhalinin Ermənistandan köçürülməsi prosesi 1953-cü ilə qədər davam etmişdi. İ.Stalinin ölümündən sonra bu proses bir qədər səngimişdi. Sənədlərdən məlum olduğu kimi, 1954-cü ildə köçürülmüş azərbaycanlıların xeyli hissəsi öz evlərinə qayıtmağa başlayır. 1954-cü ildə geri qayıdanların sayı 1155 nəfər olmuşdu.

Azərbaycan SSR Kənd təssərrüfatı nazirliyinin məlumatına görə 1948-1953-cü illərdə Kür-Araz ovalığına cəmi 11 914 təsərrüfat - 53

min nəfər köçürülmüşdü. Onların bir hissəsi Azərbaycanın başqa yerlərinə köçüb getmiş və ya Ermənistandakı köhnə yaşayış yerlərinə qayıtmışdılar. (8)

Köçürülmüş azərbaycanlıların yerində məskunlaşdırılmış ermənilər bu işi həyata keçirənlərin arzularını tam yerinə yetirə bilmirdilər. Əksinə, onlar Sovet dövlətində başağrısına çevrilmiş problemlərə yol açırdı. Xaricdən Ermənistana köçürülən ermənilərin xeyli hissəsi iş qabiliyyətini artıq itirmiş şəxslər idi və Sovet dövlətinin müavinətləri və pensiyaları hesabına yaşamaq istəyirdilər.

Digər tərəfdən sovet kəşfiyyat orqanlarının müəyyənləşdirdiyinə görə köçürülən ermənilərin xeyli hissəsi Qərbin xüsusi xidmət orqanları tərəfindən casus kimi cəlb olunmuşdu. Buna görə də köçürməyə maraq azalmışdı.

Lakin bu proses zəif də olsa fasilsiz olaraq davam etdirilmişdir. SSRİ Nazirlər Sovetinin 1961-ci ilin 12 avqust tarixli qərarı ilə ermənilərin repatriasiyası tam bərpa oıundu və SSRİ-nin süqutuna qədər davam etdirildi. 1986-cı ildə Armənistan KP MK-sının birinci katibi K.Dəmirçiyanın Sov.İKP MK Siyasi Bürosuna ermənilərin 50 ildən artıq davam edən repatriasiyasının müddətinin bir daha uzadılması haqqında müraciəti və Sov.İKP MK Siyasi Bürosuna buna müvafiq qərarının qəbul etməsi bu siyasətin ən yüksək səviyyədə dəstəklənməsindən xəbər verirdi.

Göründüyü kimi, Sovet dövlətinin konkret maraqları ortalıqda olanda bu dövlət formal olaraq əsasında durduğu bütün prinsiplərini tapdayaraq hətta özünün tərkibində olan xalqların, xüsusən müsəlman-türk xalqlarının haqlarını zərbə altına qoymaqdan çəkinmirdi. Təsadüfi deyildir ki, İkinci dünya müharibəsi ərəfəsində və ondan sonra deportasiya edilən xalqların böyük əksəriyyəti bu xalqlar olmuşdur. Sovet bolşevik rəhbərliyi Türkiyəyə qarşı düşmənçilik siyasəti yeridəndə Azərbaycanlıları onlardan ayırmır, onlara qarşı mənəvi, maddi repressiyalar tətbiq edir, onları doğma yerlərindən deportasiya edirdi.

Ermənilərin xarici ölkələrdən kütləvi şəkildə Sovet Ermənistanına köçürülməsində Sovet dövləti konkret məqsədlər güdürdü. Ermənilər və Ermənistan rəhbərliyi isə bu məsələdə özlərinin məxsusi maraqlarına malik idilər. Onlar vəziyyətdən istifadə edərək Türkiyənin və Azərbaycan SSR-in hesabına ərazilərini genişləndirməyə, Ermənistan ərazisində yaşayan azərbaycanlıları buradan sıxışdırıb çıxarmağa çalışırdılar. Bu məqamda onların məqsədləri İttifaq dövlətinin maraqları ilə üst-üstə düşürdü. Xalqlar dostluğundan ağız dolusu danışan, ölkədə milli məsələnin qəti olaraq həll olunduğundan dəm vuran hakim Kommunist partiyası lazım olanda azərbaycanlıları və digər müsəlman xalqlarının haqqını öz məkrli siyasətinə qurban verirdi.

Göründüyü kimi, ermənilərin Sovet Ermənistanına köçürülməsinin astar üzü azərbaycanlıların öz evlərindən didərgin salınması, onların vətən haqqının taptalanması olurdu. Müstəqillik dövrünə qədər Azərbaycanın ayrı-ayrı əraziləri Ermənistana verilmişdir.(9, s.3-6) Bunların məntiqi yekunu və ən böyük təzahürü SSRİ-nin süqutu ərəfəsində Qarabağda münaqişənin alovlandırılması və ermənilərin sovet ordusunun bilavasitə dəstəyi ilə Azərbaycan ərazisinin 20 faizini işğal etməsi oldu. Qeyd edək ki, Ermənistan vasitəsi ilə Azərbaycana, Türkiyəyə, digər müsəlman-türk xalqlarına qarşı erməni amilindən istifadə edilməsi Qərb dövlətlərinin çoxunun maraqlarına uyğun gəlir. Məhz bu səbəbdən müasir dövrdə erməni təcavüzünə, onun istənilən şıltaqlıqlarına göz yumulur. Bu münaqişənin görünən tərəflərinə fərqli münasibət, məsələlərə ikili yanaşma standartının olması həmin səbəbdən qaynaqlanır.

**ƏDƏBİYYAT:**


*1. От Майендорфа до Астаны: Принципиальные аспекты Армяно-Азербайджанского Нагорно-Карабахского Конфликта, Москва, 2010*

*2. Корреспондент «Власти» Кирилл Новиков. Журнал «Власть» № 15 (618) от 18.04.2005., https://www.kommersant.ru/doc/570883*

*3. Дж.П.Гасанлы. СССР–Турция: от нейтралитета к холодной войне (1939–1953). М.: «Центр Пропаганды», 2008.*

*4. https://www.kommersant.ru/doc/570883*

*5. Vladislav Martinovich Zubok. A Failed Empire: The Soviet Union in the Cold War from Stalin to Gorbachev. — UNC Press, 2007*

*6. Постановление Совета Министров СССР от 23.12.1947 № 4083 https://ru.wikisource.org/wiki/_Постановление_Совета_Министров_СССР_от_23.12.1947_№_4083*

*7. Постановление N: 754 Совета министров СССР "О мероприятиях по переселению колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР" 10 mart 1948-ci il http://www.hrono.info/dokum/194_dok/19480310azer.html*

*8. "Каспий".-2014.-30-31 октября.-1 ноября.-4-5 ноября.-№ 115/116/117/118/119*

*9. İ.Əliyev. Azərbaycan torpaqlarının ermənilər tərəfindən zəbt edilməsi tarixindən// "Geostrategiya" 2018, N 1(43)*



**Açar sözlər:** *Milli siyasət; ermənilərin repatriasiyası; etnik münaqişələr; azərbaycanlıların deportasiyası; Sov.İKP-nin köçürmə siyasəti*
**Ключевые слова:** *Национальная политика; репатриация армян; этнические конфликты; депортация азербайджанцев; переселенческая политика КПСС*
**Keywords:** *national policy; repatriation of Armenians; ethnic conflicts; deportation of Azerbaijanis; CPSU resettlement policy*



**РЕЗЮМЕ**

**Армянский фактор в национальной политике Советского государства в Южном Кавказе и его исторические корни**

Этнические конфликты, провоцируемые в разных точках Советского государства накануне его распада были логическими результатами проводимой Советским государством и его комунистическим руководством за всю свою историю национальной политики. К ним относятся также этнические конфликты, имеющие места в Южном Кавказе, в том числе и Армяно-Азербайджанский Нагорно Карабахский конфликт. В проводимой в Южном Кавказе этой политика особое место знимает армянский фактор. Анализ формирование, поддержки и использование в нужный момент имперскими властями этого фактора способствует лучшему пониманию происходящих в регионе процессов в этой области. В статье освещаются также особенности переселения, размешения и использования армян на эти территории, их этапы, цели и последствия.

**SUMMARY**

**The Armenian factor in the national policy of the Soviet state in the South Caucasus and its historical roots**

The ethnic conflicts provoked in different parts of the Soviet state on the eve of its collapse were the logical results of the national policy pursued by the Soviet state and its communist leadership throughout its history. They also include ethnic conflicts in the South Caucasus, including the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. In the policy pursued in the South Caucasus, the Armenian factor is of particular importance. Analysis of the formation, support and use of this factor at the right time by the imperial authorities contributes to a better understanding of the processes taking place in the region in this area. The article also highlights the characteristics of the resettlement, accommodation and use of Armenians in these territories, their stages, goals and consequences.

İRADƏ NURİYEVA
Siyasi elmlər üzrə elmlər doktoru, professor

# AZƏRBAYCAN DİPLOMATİYASININ PARİS SÜLH KONFRANSINDA FƏALİYYƏTİ



*Əlimərdan bəy Topçubaşov Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin toplantısında. Paris. Hôtel Claridge.1919*

Rusiya imperiyasının dağılması nəticəsində başqa respublikalarla yanaşı Gürcüstan və Azərbaycan adlı respublikaların da yaranması gözlənilməz bir hadisə idi. Cənubi Qafqazda "qəflətən" meydana çıxan bu respublikalar haqqında, nəinki Avropa dövlətlərinin, ABŞ prezidentinin və siyasi dairələrinin, eləcə də Amerika ictimaiyyətinin məlumatı çox az idi. Bunu nəzərə alaraq Ə.M.Topçubaşov Azərbaycan və Gürcüstan dövlətlərini Birləşmiş Ştatlarda təbliğ etməyi, onları siyasi cəhətdən tanıtmağı öz öhdəsinə götürən, Nyu-York şəhərindən ABŞ Konqresinin nümayəndələr palatasının üzvü olan vəkil Valter Çandler vasitəsi ilə sentyabrın 26-da prezident V.Vilsona məktub və bir sıra materiallar göndərdi. Ə.M.Topçubaşov Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyəti haqqında memorandumu, dövlətin sərhədləri göstərilən iqtisadi xəritəni, Azərbaycan dövlətinin iqtisadi və maliyyə vəziyyəti haqqında diaqramları, etnoqrafik xəritə ilə birlikdə Azərbaycan əhalisinin milli-etnik tərkibi haqqında memorandumu prezident V.Vilsona göndərdi [1, v.56].

Erməni nümayəndələri təkcə Ermənistanın müstəqilliyini tanıtmaq deyil, həm də Azərbaycan və Gürcüstan dövlətlərini Birləşmiş Ştatların siyasi dairələrinin, ictimaiyyətinin gözündə nüfuzdan salmaq istiqamətində güclü iş aparırdılar. Buna görə də, ABŞ-da Azərbaycan dövləti haqqında həqiqətin yayılmasına, Amerika siyasi dairələrində Azərbaycan Xalq Cümhuriyyəti haqqında düzgün təsəvvür formalaşmasına böyük zərurət duyulurdu. Bu məqsədlə Baltik ölkələri, Azərbaycan və Gürcüstan nümayəndələri vəkil V.Çandlerlə müqavilə bağladılar [17, p.39]. Amerikalı Valter M.Çandler Azərbaycan nümayəndə heyətinin tərkibinə təbliğati məsələlərlə əlaqədar hüquq məsləhətçisi kimi qəbul edilirdi və 3 ay müddətinə Azərbaycan Xalq Cümhuriyyətinin mənafeyini və dövlət müstəqilliyini müdafiə etməyi öhdəsinə götürürdü [12, v.131-132]. ABŞ ilə iqtisadi əlaqələr yaratmaq üçün Azərbaycan nümayəndəliyinin maliyyə işləri üzrə məsləhətçi vəzifəsinə təyin olunmuş Amerika vətəndaşı Maks Rabinov Azərbaycan Respublikasından dünya qiymətlərinə uyğun neftin alınmasını, ABŞ maliyyə orqanlarının Azərbaycan dövlətinə kredit verilməsini və Azərbaycan üçün Amerika manufakturalarında

istehsal olunan malların alınmasını təşkil etməli idi [11, v.116-117]. 1920-ci il yanvarın 31-ə qədər "Standard oyl" kompaniyasına hər tonu 34 dollardan 6 milyon pud kerosin verilməli idi [5]. Bu kompaniyanın vasitəsi ilə Azərbaycan dövləti ABŞ-dan hər pudu 2,5 dollara 40 min ton taxıl aldı [6]. M.Rabinov az bir vaxtda Birləşmiş Ştatlarda Amerika-Qafqaz kommersiya palatasını təşkil etdi. Bu palata Azərbaycan dövləti ilə ticarət-iqtisadi əlaqələrinin yaradılmasında həlledici rol oynaya bilərdi. Oktyabrın ortalarında Fransa hərbi missiyası ilə birlikdə Fransa Respublikasının Ticarət və Sənaye Nazirliyinin nümayəndəsi də Bakıya gəldi [18, folio 95.]. Bir az sonra İ.Enriko başçılığı ilə İtaliya missiyası Azərbaycan Respublikasına gəldi. İngiltərənin "Kosmos" kompaniyası ilə Azərbaycan nümayəndə heyəti arasında imzalanmış sazişə əsasən, kompaniya Qara dəniz limanlarından Azərbaycan dövlətinin ərazisində olan artıq xammalın daşınıb Avropa ölkələrində satışını təşkil etməyi öz öhdəsinə götürürdü [21, v.128-130]. Fransa dövlətinin teleqraf və telefon kompaniyası Azərbaycan dövlətinin poçt-teleqraf sistemini ümumdünya standartlarına uyğunlaşdırmaq və Gəncə radiostansiyasını Eyfel qülləsindəki Avropa radiostansiyasına qoşmaq üçün Parisdəki Azərbaycan nümayəndə heyəti ilə ikitərəfli razılaşmaya görə, Fransa dövləti Azərbaycan Respublikasına xeyli avadanlıq göndərdi və öz mühəndislərini ezam etdi [2, v.109]. Fransa dövləti ilə poçt-teleqraf işləri üzrə imzalanmış sazişdən az sonra Ə.M.Topçubaşov İsveçrənin Bern şəhərində yerləşən Ümumdünya poçt ittifaqına üzv olmaq üçün Beynəlxalq Büroya ərizə ilə müraciət etdi. Gürcüstan və Azərbaycan nümayəndə heyətləri 1919-cu ilin payızında Sülh konfransında Qafqaz məsələsinin həll edilməsi məqsədi ilə Qafqaz işləri üzrə xüsusi komissiyanın yaradılması üçün sentyabr ayının 17-də konfransın sədrinə, sentyabr ayının 20-də isə Antanta dövlətlərinin konfransında olan nümayəndə heyətlərinə ərizə ilə müraciət etdilər [15, folio 107-108].

Belorusiya və Ermənistan nümayəndələrindən başqa Azərbaycan, Estoniya, Latviya, Litva, Ukrayna, Kuban, Şimali Qafqaz və Gürcüstan nümayəndələrinin imzaladıqları nota oktyabrın 8-də Sülh konfransına təqdim edildi. Notada Rusiya imperiyasının dağılması nəticəsində yaranmış respublikaların istiqlaliyyətinin tanınması, onların beynəlxalq maliyyə sisteminə və iqtisadi münasibətlərə cəlb edilməsinin zəruriliyi Sülh konfransının, Antanta ölkələrinin Xarici İşlər Nazirlərinin daxil olduğu və Fransa dövlətinin Xarici İşlər Naziri Stefan Jan Mari Pişonun sədrlik etdiyi Ali Şuranın nəzərinə çatdırılırdı [14]. Oktyabrın 29-da, Fransa müstəmləkə liqasının xarici siyasət bölməsində Azərbaycan və Gürcüstan nümayəndə heyətlərinin müraciətinə əsaslanaraq Cənubi Qafqaz məsələsi müzakirə edildi. Liqanın direktoru Pol Burdari Azərbaycan diplomatiya heyətinin sədrinə göndərdiyi məktubda qeyd edirdi: "Azərbaycan və Gürcüstan respublikalarının mövcud hökumətlərinin de-fakto və de yure tanınması haqqında xahişləri Fransa müstəmləkə liqasının iclasında müdafiə edilmişdir" [19, p.3]. Fransa müstəmləkə liqası Azərbaycan və Gürcüstan respublikalarına təcili diplomatik nümayəndəlik göndərilməsini Klemanso hökumətindən xahiş etdi. Parisdə olan Azərbaycan nümayəndə heyəti 1919-cu ilin oktyabrında daha 2 mühüm məsələni həll etdilər: 1) Hindistan müsəlmanlarının və ismayililərin başçısı, 1886-cı ildə yaradılan Mərkəzi Müsəlman Cəmiyyətinin liderlərindən biri Ağa Xanla [13, p.3]; 2) İran şahının Londona səfərini müşayiət edərkən yolüstü sentyabr ayının 30-da Parisə gəlmiş İranın Xarici İşlər Naziri Firuz Mirzə ilə keçirilən görüşlər olmuşdu. Oktyabrın 25-də İran nümayəndə heyətinin iştirakı ilə Hind-Azərbaycan nümayəndə heyətlərinin birgə müşavirəsi oldu




[3, v.21]. Onlar Cənubi Qafqazda müstəqil Azərbaycan dövlətinin mövcudluğunun və ona kömək göstərilməsinin zəruriliyini qeyd etdilər. Parisdə yaradılan Azərbaycan-İran birgə komissiyasının noyabrın 1-də 4 maddədən ibarət İran-Azərbaycan İttifaqı haqqında hazırladıqları sazişdə qeyd edilirdi: 1. Rusiyada hansı dövlət forması və quruluşu yaranırsa yaransın, Qafqaz Azərbaycanı, Azərbaycan nümayəndələrinin Sülh konfransına təqdim etdiyi tələblərdə və xəritələrdə göstərilən sərhədlərdə qəti olaraq birdəfəlik Rusiyadan ayrılır; 2. Qafqazın göstərilən dairəsində mövcud olan Azərbaycan Respublikası 1918-ci il mayın 29-dan etibarən Azərbaycan hökuməti tərəfindən ümumi seçki yolu ilə yaradılmış, Azərbaycan Müəssislər Məclisində təsdiq edilmiş qanun əsasında seçilən prezidenti və parlamenti ilə, paytaxtı Bakı şəhəri olmaqla, müstəqil, asılı olmayan, demokratik respublika kimi tanınır; 3. Xarici işlər sahəsində Azərbaycan Demokratik Respublikası Azərbaycan və İran hökumətlərinin qarşılıqlı razılıq əsasında işləyib müəyyən etdiyi əlaqələr formasında qonşu İran dövləti ilə siyasi-iqtisadi münasibətlər yaradır. Yuxarıda bir və ikinci maddələrdə göstərilən məqsədə nail olmaq üçün Azərbaycan Respublikası özünün müstəqilliyinin tanınmasında, hər cür qəsddən qorunmasında, təhlükəsizliyinin təmin olunmasında, siyasi, iqtisadi və mədəni inkişafında, hərbi gücündə İranın etdiyi kömək şəklində, İngiltərənin də həqiqi köməyinə ehtiyac duyur; 4. Bütün bu dörd maddə bir-birilə bağlıdır və Azərbaycan nümayəndəliyinin özü tərəfindən elan edilməlidir [7, c. 94-95].

Azərbaycan nümayəndə heyəti 1919-cu il avqust ayının 9-da İngiltərə ilə İran dövlətləri arasında imzalanmış sazişə "dolayısı yolla Britaniya qalxanının altında müdafiə imkanı kimi baxırdılar" [16, p.157]. İranla ittifaq bağlamaqla Azərbaycan nümayəndə heyəti nəzərdə tuturdu ki, "Azərbaycan da İran kimi Britaniyadan eyni dərəcədə kömək alacaqdır" [16, p.158]. Bu ittifaq Azərbaycanın istiqlaliyyətini Denikin və Sovet Rusiyası təhlükəsindən qoruya biləcək ən real vasitə idi. 1920-ci ilin mart-aprel aylarında Azərbaycanla İran arasında siyasi, iqtisadi, ticarət, poçt-teleqraf, gömrük, konsulluq mübadiləsi və digər məsələlərlə bağlı ikitərəfli müqavilələr imzalandı. İran dövləti Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyətini de yure tanıyan ilk dövlətlərdən biri oldu [9].

Azərbaycan nümayəndə heyəti Parisdə həm siyasi və iqtisadi məsələlərlə, həm də geniş təbliğat işləri ilə məşğul olurdu. İstiqlaliyyətin tanınması ərəfəsində atılan ilk addımlardan biri Versalda olan Azərbaycan nümayəndələrinin əzmkarlığı sayəsində Azərbaycan dövlətinin tarixi, əhalisi, iqtisadiyyatı, təbii

*"Böyük dordlük": Lloyd Corc, Vittorio Orlando, Jorj Klemanso, Vudro Vilson.*



sərvətləri və siyasi vəziyyəti haqqında ingilis və fransız dillərində kitabçaların çap edirilməsi oldu. "İctimai fikri öz tərəfimizə çəkmək üçün Qərbi Avropanın böyük mərkəzlərində intensiv təbliğat işlərini təşkil etmək zəruri idi". Erməni "təbliğatçıları" hər vasitə ilə Azərbaycanın müstəqil dövlət kimi tanınmasının əleyhinə çalışırdılar. Ona görə Azərbaycan Xarici İşlər Nazirliyi Qərbi Avropada iki mühüm vəzifəni - Azərbaycan dövləti haqqında yayılan saxta materialları təkzib etmək və Azərbaycanı populyarlaşdırmaq vəzifəsini yerinə yetirmək üçün təbliğat mərkəzi yaratmağı vacib bilirdi [20, v.7]. Bunun üçün nəzərdə tutulurdu ki, Avropa ölkələrinin mərkəzlərindən birində, neytral ölkə olan İsveçrədə illüstrasiyalı əlavə ilə birlikdə bir qəzet buraxılsın, bu dövlətlərdə Azərbaycan Respublikasının tarixi, ədəbiyyatı, incəsənəti, sosial-siyasi vəziyyəti haqqında broşurlar çap edilib yayılsın, təbliğat məqsədi ilə Qərbi Avropa dövlətlərində bir çox siyasi partiyaların mətbuat orqanlarından istifadə edilsin, açıq mühazirələr keçirilsin və mitinqlərdə çıxışlar edilsin [20, v.8-10].

Millətlər Cəmiyyəti Cenevrədə fəaliyyət göstərdiyinə görə, Azərbaycan nümayəndə heyəti ilk addım olaraq orada ingilis və fransız dillərində nəşr olunan "L"Eyrope Orientale" jurnalının rəhbərliyi ilə əməkdaşlıq edərək, 20 min nüsxə jurnala abunə yazılmaq qarşılığında "L"Eyrope Orientale"də Azərbaycan Xalq Cümhuriyyəti haqqında tez-tez yazılar çap olunmasına nail oldular. Bütün çətinliklərə baxmayaraq, 1919-cu ilin yayında və payızında Avropa ölkələrində müxtəlif dillərdə nəşr olunan "L"Eyrope Orientale", "Limaçe", "Les Paubles Libres" jurnallarında, "Le Temps", "Revus du Monde musulman", "Revus Kon Temporaine", "Humanite", "Le Dieçe Kolonial", "Le Derniçes Nouvelles", "Le Kroix" və digər qəzetlərdə Azərbaycan dövləti haqqında bir sıra məqalələr çap olundu. Fransız professoru Q.Borşe Azərbaycanı tanıtmaq üçün "Journal de Geneve" jurnalında çap etdirdiyi "Öz müqəddəratını təyinetmə hüququ və Azərbaycan Respublikası" adlı məqaləsində yazırdı: " Mən indiyə qədər təyini müqəddərat hüququnun tanınmasına etiraz edilən bir millətin müdafiəsi üçün səsimi qaldırıram və onların tələbinin ədalətli olduğuna dərindən inanıram" [10, v.137]. Q.Borşe qeyd edirdi ki, "öz müstəqilliyini arzulayan hər bir xalq azad olmaq hüququna malikdir. Azərbaycan artıq sübut etmişdir ki, o müstəqil olmaq istəyir və öz müstəqilliyini qorumaq və ondan istifadə etmək bacarığına malikdir. Ona görə də Azərbaycan müstəqil Demokratik Respublika kimi Sülh konfransı tərəfindən tanınmalıdır" [10, v.138].

1919-cu il oktyabrın 23-də Azərbaycan və Gürcüstan respubikalarında olan italiyalı kommersant Korsinin "Korrena della sera" qəzetində müsahibəsində də Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik uğrunda əzmlə apardığı mübarizəsi, hər iki dövlətin istiqlaliyyətinin ən qısa vaxtda Sülh konfransı tərəfindən tanınmasının zəruriliyi və hər iki dövlətin bu tanınmaya layiq olması qeyd edilirdi [4]. Avropa mətbuatında aparılan təbliğat işlərindən başqa, Versalda da olan Azərbaycan nümayəndə heyəti Paris Sülh konfransında iştirak edən digər nümayəndələri, Fransa, Böyük Britaniya, ABŞ və digər dövlətlərin ictimaiyyətini məlumatlandırmaq üçün sentyabrdan etibarən "Azərbaycan haqqında İnformasiya bülleteni" nəşr etməyə başladı [8, s. 47-62]. İngilis və fransız dillərində çap olunmuş "Qafqaz Azərbaycan Respublikasının Paris Sülh konfransına memorandumu" kitabçaları, 1919-cu ildə Parisdə C.Hacıbəylinin hazırladığı "İlk müsəlman respublikası Azərbaycan" adlı kitabı, onun "Revue du Monde musulman" qəzetində çap olunan məqalələri, nümayəndə heyətinin üzvü olan Ə.Şeyxülislamovun Azərbaycan əhalisinin etnik tərkibi (Azərbaycan əhalisinin 75,41 %-nin türklər təşkil etdiyi bildirilirdi) haqqında fransız dilində nəşr olunan kitabçası, M.Hacınskinin hazırladığı "Qafqaz Azərbaycanının iqtisadi və maliyyə vəziyyəti"

adlı kitabçası, Azərbaycan nümayəndələrinin respublikanın dövlət büdcəsi, onun mədaxili və məxarici, ölkənin iqtisadi zənginliyi haqqında hazırlayıb Parisdə çap etdirdikləri "Azərbaycan rəqəmlərdə" kitabçası və s. nəşrlər Qərbin siyasi dairələrinə, ictimai xadimlərinə, geniş oxucu kütləsinə Azərbaycan haqqında geniş məlumat verirdi. Nəşrlərin materiallarının hazırlanmasında və onun faktlarla əsaslandırılmasında Azərbaycan Xarici İşlər Nazirliyinin Parisə göndərdiyi sənədlər, arayışlar, statistik məlumatlar və fotogörüntülər böyük əhəmiyyət kəsb edirdi. Bu nəşrlərin sayəsində Avropanın geniş dairələrinə Azərbaycan əhalisinin milli tərkibi, qədim keçmişi və tarixi, müstəqil dövlətin yaranması və gələcək arzuları haqqında müfəssəl məlumatlar çatdırılırdı.

Azərbaycan hökuməti və Xarici İşlər Nazirliyi tərəfindən dekabr ayının 28-də Paris sülh konfransına parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə göndəriləcək nümayəndə heyətinin gərgin və səmərəli fəaliyyəti nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti 1920 il yanvarın 11-də Paris sülh konfransının (1919-20) iştirakçı dövlətləri tərəfindən de-fakto tanındı. Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluqlarını açdılar. ABŞ, İngiltərə, Fransa və İtaliya ölkələri Azərbaycan Respublikası ilə iqtisadi əlaqələr yaratmağa başladılar.

Azərbaycan nümayəndə heyətinin şücaəti sayəsində müstəqilliyi böyük dünya dövlətləri tərəfindən tanınan Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı 28 Aprel işğalı ilə sona çatdı. Azərbaycan Xalq Cümhuriyyəti sovet qoşunları tərəfindən işğal edildi və Rusiyaya birləşdirildi. SSRİ dağıldıqdan sonra Azərbaycan xalqı 1991-ci il 18 oktyabr tarixində Azərbaycanda dövlət müstəqilliyini yenidən bərpa etdi. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

## ƏDƏBİYYAT:

*1. Azərbaycanın Paris Sülh konfransındakı nümayəndə heyətinin sədri Ə.M.Topçubaşovun ABŞ prezidenti V.Vilsona məktubu. 26.09.1919.//ARDA, f.970, s.l, i.146, v.56*

*2. Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Eyfel qülləsindəki radiostansiya vasitəsi ilə Nazirlər Şurasının sədrinə teleqramı. Noyabr, 1919.//ARDA, f.970, s.l, i.145, v.109.*

*3. Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.1919.//ARDA, f.894, s.10, i.94, v.21*

*4. Азербайджан, 1919, 5 ноября*

*5. Азербайджан, 1919, 6 июля*

*6. Азербайджан, 1919, 9 декабря*

*7. А.М.Топчибашев. Письма из Парижа. Баку, 1998, с.40.*

*8. Xarici ölkələrdə Azərbaycan Xalq Cümhuriyyəti haqqında nəşr işləri ilə bağlı məlumat üçün bax: V.Quliyev. Azərbaycan Demokratik Respublikası xarici mənbələrdə. //Azərbaycan Demokratik Respublikası. Bakı, 1992, s.47-62*

*9. Qafqaz fövqəladə heyəti: Seyyid Ziya-əddin Təbatəbainin rəhbərliyi altında Qafqaza ezam olunmuş heyətin müzakirə və müqavilələrinə dair sənədlər (1919-1920). Tehran, Siyasi və beynəlxalq tədqiqatlar mərkəzi, 1379 (2000).*

*10. Q.Borşe. Öz müqəddəratını təyinetmə hüququ və Azərbaycan Respublikası. //ARDA, f.970, s.1. i.142, v.137.*

*11. Maks Rabinovun Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin sədri Ə.M.Topçubaşova məktubu. 22.09.1919.// ARDA, f.970, s.l, i.142, v.116-117*

*12. Contract № 1. September 1919. // ARDA, f.970, s.l, i.142, v.131-132*

*13. L'Azerbaidjan et l'Aga Khan.//Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, p.3*

*14. Le Temps, 1919, 12 octobre*

*15. Président de la Délégation de Paix de la République d'Azerbaïdjan Ali Mardan Toptchibacheff - Son Excellence, Monsieur le Président de la Conférence de la Paix. Lle 17 septembre 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.832, folio 107-108.*

*16. T.Swietochowski. Russian Azerbaijan, p. 137*

*17. The Armenian Question Before the Peace Conference, p.5.*

*18. Télégramme Le Ministre des Affaires EtrangèresA Mission Militaire Française Tiflis. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique,vol.638, folio 95.*

*19. Une letter De M.Bourdarie.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 15 Decembre, №5, p.3*

*20. ARDA, f.2905, s.l, i.21, v.7.*

*21. ARDA, f.970, s.l, i.142, v.128-130*

***Açar sözlər:*** *istiqlaliyyət, xarici siyasət, Paris Sülh Konfransı, Azərbaycan diplomatiyası, təbliğat.*

***Ключевые слова:*** *независимость, внешняя политика, Парижская мирная конференция, Азербайджанская дипломатия, пропаганда.*

***Key words:*** *independence, foreign policy, Paris peace conference, Azerbaijani diplomacy, propaganda.*



**РЕЗЮМЕ**

**ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ ДИПЛОМАТИИ НА ПАРИЖСКОЙ МИРНОЙ КОНФЕРЕНЦИИ**

Азербайджанская Республика, провозглашенная в 28 мае 1918 года, изъявила стремление вступить в международное сообщество мировых государств и установить добрососедские отношения со всеми сопредельными государствами и народами. Выдающимся успехом внешней политики Азербайджанского государства было признание ее независимости «де-факто» Союзным Советом великих держав в 11 январе 1920 года, а также – «де-юре» Ираном во 2 марте 1920 года. Признание независимости Азербайджанской Республики со стороны великих держав – это благотворный труд азербайджанской делегации во главе А.А. Топчибашева на Парижской мирной конференции.

**SUMMARY**

**THE ACTIVITY OF THE AZERBAIJANI DIPLOMACY AT THE PARIS PEACE CONFERENCE**

The Republic of Azerbaijan, proclaimed on may 28, 1918, expressed its desire to join the international community of world States and establish good-neighborly relations with all neighboring States and nations. The outstanding success of the foreign policy of the Azerbaijani state was the recognition of its independence "de facto" by the Union Council of the great powers in January 11, 1920, and – de jure" by Iran in March 2, 1920. Recognition of the independence of the Republic of Azerbaijan by the great powers is a beneficial work of the Azerbaijani delegation headed by A. A. Topchibashev at the Paris peace conference.

# Fəlsəfə

# QLOBALİSTİKA VƏ İNSANIN BU DÜNYADAKI YERİ

NAZİM İSMAYILOV
Fəlsəfə üzrə fəlsəfə doktoru

SEVDA YUSİFOVA
Baş müəllim



Qlobalistika - müasir dünyada baş verən proseslərin təsiri altında beynəlxalq münasibətlər və dünya siyasəti sahəsində analitik fənn kimi çıxış edən biliyin fənlərarası formasıdır. O, qloballaşmanın mahiyyəti, meylləri və səbəblərini üzə çıxardır, insan və biosfera üçün bu proseslərin pozitiv nəticələrinin bərqərar olması, neqativ nəticələrinin isə aradan qaldırılması yollarını axtarır. Daha geniş mənada bu termin qloballaşmanın və qlobal problemlərin müxtəlif aspektlərinin elm, fəlsəfə, mədəniyyət və tətbiqi tədqiqatların məcmusunun müxtəlif aspektlərini; həmçinin, ayrı - ayrı dövlətlər səviyyəsində, həm də beynəlxalq miqyasda bu cür tədqiqatlardan alınmış nəticələrin iqtisadi, sosial və siyasi sahələrdə reallaşdırılması, praktiki fəaliyyətdə istifadə edilməsini ifadə etmək üçün istifadə edilir.

Qlobalistika sərbəst elmi istiqamət kimi XX əsrin 60-cı illərindən formalaşmağa başlayır. Bu zaman əvvəlcə sənaye cəhətdən ən inkişaf etmiş ölkələrdə, sonra isə digər ölkələrdə də ekoloji vəziyyətin kəskinləşməsi müşahidə olunurdu. 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində qlobal təhlükəsizliyin təmin olunması ilə bağlı problemlər xüsusilə kəskinləşir ki, bu da siyasi qlobalistikanın inkişaf etməsinə səbəb olur. O zaman qlobalistika hələ elmi biliyin bir sahəsi kimi formalaşmamışdır. Qlobalistikanın təkamül prosesini analiz etsək, görərik ki, əgər XX əsrin 60-cı - 70-ci illərində tədqiqatın obyekti bütövlükdə dünya həmrəyliyinin perspektivləri idi isə (bu mərhələnin əsas kateqoriyaları - "qlobal problemlər" və "qlobal dinamika" anlayışları idi), 1980 - 1990-cı illərdə, yəni, qlobalistikanın inkişafının 2- ci mərhələsində, artıq konkret ümumbəşəri məsələlərin öyrənilməsinə həsr edilmiş silsilə işlər yazılır və bu mərhələnin əsas kateqoriyası - "qloballaşma" olur.

XX əsrin sonundan başlanan qlobalistikanın inkişafının 3-cü, müasir mərhələsində alimlər qlobal problemləri məcmu halda, yəni onları həm bütövlükdə dünya həmrəyliyinin problemləri kimi, həm də ümumbəşəri məsələlər kimi (məsələn, ekoloji böhran, nüvə

təhlükəsi, zəhərli maddələrin nəticələri, terrorizm, səhiyyə sahəsi ilə bağlı problemlər və s.) tədqiq edirlər. XXI əsrin əvvəllərində qlobalistika, müxtəlif elmi istiqamətlər və fəlsəfə, bir-biri ilə sıx qarşılıqlı təsirdə, hər biri öz predmeti və metodundan çıxış edərək, qloballaşmanın mövcud ola bilən hər cür aspektlərini təhlil edir, qlobal problemlərin həlli yollarını təklif edirlər. XX əsrin sonundan başlanan və müasir dövrə qədər davam edən qlobalistikanın inkişafının bu, 3-cü mərhələsinin açar kateqoriyası - artıq, "qlobalistika" anlayışının özü olur.

"İnsan" mövzusu həmişə ictimai şüurun mərkəzində olub, bəşəriyyətin əsas problemlərindən birini təşkil etmişdir. Ancaq, insan fəaliyyətinin nəticəsi olan "qloballaşma" ilə bağlı bütün dünyada gedən proseslər və bununla bağlı, insanın şəxsiyyətinin formalaşmasına təsir edən müxtəlif amillər və s. yeni dövrdə sonadək dərk edilməmiş və indiyə qədər geniş və hərtərəfli təhlil edilməmişdir.

Müasir dövrdə Yer kürəsindəki canlı həyatın, insanın sosial və bioloji növ kimi özünün; bəşəriyyət tərəfindən formalaşmış mədəniyyətlərin, həyat tərzlərinin, həmçinin dəyərlər və normativlərin inkişaf etdirilərək, saxlanılması ilə bağlı suallar meydana çıxır. Bizim planetimiz heç vaxt əvvəllər bu cür çətin vəziyyətə düşməmiş və onun ağır təsirlərinə məruz qalmamışdır; insan isə heç vaxt öz əməyinin nəticələri ilə belə ziddiyyətlərə girməmiş, yaratdığı elmi - texniki nailiyyətlərin nəticələrindən özünü bu cür, son dərəcə asılı vəziyyətə salmamışdır.

XXI əsrin əvvəllərində insanların daim sürətlənən həyat fəaliyyəti prosesində bəşəriyyət öz inkişafının yeni dövrünə daxil olur. Bizim dövrümüzün fərqləndirici xüsusiyyəti - ictimai həyatın bütün sferalarında: iqtisadi, siyasi, sosial və mənəvi tərəflərini əhatə edən qlobal böhranın daha da inkişaf edib, dərinləşməsidir. O, bir çox səbəblərlə doğurulmuşdur, amma ilk növbədə bu, ictimai həyatda baş verən qloballaşmanın müasir prosesləriylə üzvi surətdə bağlıdır. İnsan durmadan dəyişir və bu proseslərin təsiri altında onun amansızcasına başqalaşması prosesi baş verir. Onun psixologiyasında və dünyagörüşündə, bilik səviyyəsində, həyata həssaslığında, nigarançılıq, iztirab və təşvişlərində, analitik qabiliyyətində dəyişikliklər müşahidə olunur. Bu yeni dövrün əsas əlaməti ondadır ki, müasir insan öz fərdi və intellektual imkanları - yəni, özü üçün çox mürəkkəb bir dünyanı yaratmışdı. Nəticədə, acınacaqlı bir hal olsa da, insan çox vaxt obyektıv və subyektiv şərtlərdən asılı olaraq, bu dünyanın və burada baş verən dəyişikliklərin əsas, baza qanunauyğunluqlarını dərk etmək bacarığını, öz səylərinin nəticələrini və öz şəxsi inkişafının istiqamətlərini qabaqcadan görüb, başa düşmək qabiliyyətini bəzi hallarda düzgün qiymətləndirə bilmir.

Qloballaşan dünyada insan şəxsiyyətinin sonrakı formalaşması məsələsi insanın özünün bir fərd kimi bu dünyada qalması, saxlanılması probleminin kəskinləşməsi məsələsi ilə sıx bağlıdır. Qloballaşma proseslərinin şüurlara, idrak prosesinə təsiri nəticəsində, müasir insanın dünyagörüşü spesifik tərzdə formalaşmağa başlayır. İçtimai həyatın bütün sferalarında baş verən böhran insanın dünyaya baxışlarını da sarsıdır, bir çox hallarda bəşəri dəyərlərin, mənəviyyatın korlanmasına, deformasiyasına səbəb olur.

Obyektiv tarixi inkişaf meyllərinə məhəl qoymadan, qloballaşmanın lehinə və ya əleyhinə qarşı asanlıqla fikir yürütmək, çıxış etmək əlbəttə ki, düzgün deyil. Əsas məsələ, müasir dünyada nə baş verdiyini, müasir dünyanın əvvəlki dövrlərdən nə ilə fərqləndiyini dərk etməkdən ibarətdir. Qloballaşma - müasir həyatın reallığıdır və bəşəriyyət yeni əsrin başlanğıcında bir çox yeni qlobal problemlərlə rastlaşdığından, bu gün qloballaşan dünyada insanın varlığının dərk edilməsinə çox böyük ehtiyac duyulur. Həyat sübut edir ki, bəşəriyyətin tarixi çoxmənalı, inkişafı isə çox mürəkkəb olduğundan, o, çox vaxt qabaqcadan nəzərdə tutulmuş, ehtimal edilən xətt üzrə inkişaf etmir. Buna görə də, mədəniyyətlərin və sivilizasiyaların çox variantlılığına əsaslanaraq, qloballaşma dövründə insanın şəxsiyyətiylə bağlı problemlər, qlobal unifikasiyaya doğru inkişaf şəraitində dünyanın mədəni - mənəvi müxtəlifliyinin saxlanılması konsepsiyası çərçivəsində araşdırılmalıdır.

İnsanın bir şəxsiyyət kimi formalaşması probleminin tədqiqi məsələsi uzun bir tarixə malikdir. Bu məsələ ilə bağlı ideyalara biz hələ qədim dövrün filosoflardan Konfusi, Platon, Aristotel, Siseron, Plotin və digərlərinin yaradıcılığında rast gəlirik. Hələ o dövrün filosofları insan şəxsiyyətinin inkişafı ilə bağlı problemlərin həllində, bu məsələyə bütöv, tam yanaşmanın əhəmiyyətini xüsusilə qeyd edirdilər. İnsanın bir şəxsiyyət kimi formalaşması problemi hər zaman aktual olmuşdur, amma müasir dövrdə bu məsələyə münasibət xüsusilə güclənib. Bu isə onunla bağlıdır ki, qlobalizasiya ilə bağlı proseslərlə insanların şüuru və dünyagörüşü, fəaliyyəti, rəftar və əməlləri də daxil olmaqla, onların həyatlarının müxtəlif tərəfləri ilə sıx, birbaşa əlaqəsi olan yeni problemlər meydana çıxır. Yeni tarixi dövrdə texniki və informasiya cəhətdən həddən artıq inkişaf etmiş cəmiyyətlərdə insanın və cəmiyyətin mövcudluğu problemi də müasir dünyanın kəskin problemlərindən birinə çevrilərək, filosofların, sosioloqların, politoloqların və digərlərinin diqqəttini daim özünə cəlb edir. Lakin, müasir dövrdə insanın onu əhatə edən dünya ilə qarşılıqlı əlaqəsi ilə bağlı tədqiqatlar hərtərəfli surətdə araşdırılaraq, tam bitmədiyinə görə, qloballaşan dünyada insan şəxsiyyətinin formalaşması ilə bağlı məsələlər də hələlik tam ölçüdə tədqiq olunmamış qalır.

XXI əsrin əvvəllərində aparılan qlobalistik araşdırmalar göstərir ki, qloballaşma prosesi müxtəlif region, ölkə, xalqlar və bir fərd kimi insanın özü üçün də müxtəlif, fərqli nəticələrə gətirib çıxardır. Lakin qlobalistika - müxtəlif elmlər arasında elmi tədqiqatların müstəqil sahəsi kimi sübut edir ki, qloballaşma prosesinin müasir forması vəhdətə, tamlığa və yeknəsəqliyə (bir cürəliyə), unifikasiyaya (vahid şəklə salınmaya) gətirib çıxardaraq, milli müstəqilliyə və milli sərhədlərə, mədəniyyətlərin müxtəlifliyinə məhəl qoymur. Amma, bildiyimiz kimi, bəşəriyyətin tarixini əks etdirən dünya həmişə millinin - vahidin çoxluğun içində mövcudluğu, inkişafı kimi qəbul edilib.

Müasir qloballaşma prosesi insanların düşüncələri ilə onların həyatlarının birliyini tələb edir və bu birlik, vəhdət insanın yaradıcı qabiliyyəti ilə sıx bağlıdır. Özü də insanın bu yaradıcı, quruculuq prosesı bəşər mədəniyyətinin tərkib hissəsi, onun real hərəkətverici qüvvəsi kimi çıxış edir. Qloballaşma dövrünün insanı dünyanı və təbiəti həm abadlaşdıran, həm də onları dərk edən zaman təbiətin qanunlarını, onun təbii imperativlərini (imperativ - idealist fəlsəfədə qəti, qeyd-şərtsiz tələb deməkdir) pozmadan mövcud olması üçün özünü də dəyişdirməyə, başqa cür olmağa məcburdur. Müasir dövrün insanı bu günkü və gələcək həyatı üçün hər bir tarixi burumda dəyişən tənzimləyici, nizamlayıcı funksiyaları saxlayaraq və onlara arxalanaraq, onları müasir dövrün iqtisadi, sosial, mədəni və mənəvi prosesləriylə əlaqələndirməyi bacarmalıdır. Qloballaşan və inteqrallaşan dünyada insanın mədəniyyəti bəşəri mədəniyyətin təsiri ilə yenilənmiş yaradıcı və yeni formalar əmələ gətirmə xarakteri əldə edir. Bu isə o deməkdir ki, insanın şəxsiyyətinə bu prosesin təsir gücündən danışarkən, bunu insanın mədəni və bütün digər fəaliyyət



sferalarına da aid etmək lazımdır.

Qloballaşma dövründə insanının şəxsiyyətinin formalaşması, bir tərəfdən, onun inkişafı nəticəsində yüksələn, artan daxili, mənəvi dünyası ilə, 2- ci tərəfdən isə onun azadlığının təzahürü kimi onun ekzistensiyasını (ekzistensializm - həyatın mənasızlığını, ictimai fəaliyyətin, əxlaqın faydasızlığını sübut etməyə çalışan fəlsəfi cərəyan) tabelikdə saxlayan xarici reallıq arasındakı artan ziddiyyətlə sıx bağlıdır. Bundan irəli gələrək, hal - hazırkı dövrdə insan azadlığı, bərabərliyi, həmrəyliyi, qardaşlığı kimi ideyaların inteqral, sintetik anlamının təkmilləşdirməsinə böyük ehtiyac duyulur ki, bu da bu ideyaların insanların yalnız hər hansı bir aktiv yaradıcı sferasının sərhədləri çərçivəsində əsaslandırılması ilə məhdudlaşdırılmamalıdır.

Qloballaşma dövründə şəxsiyyətin mövcudluğunun və fəaliyyətinin mənası sadə insan işlərinin və hərəkətlərinin sərhədlərindən kənara çıxır və o, bütün dünyanın mədəni və mənəvi fəzasında yayılmaq xarakteri əldə edir. Bu gün insanların həyatı artıq bəşəriyyətin etik, humanist, insanpərvərlik kimi planetar dəyərlərindən kənarda bir normativ olaraq qiymətləndirilə bilməz. Buna görə də, bəşəriyyətin ən yaxın və uzaq gələcəkdə necə olacağı məsələsi, müəyyən mənada xeyli dərəcədə tez dəyişən reallığın nəzəri cəhətdən nə dərəcədə düzgün dərk edilməsindən, qiymətləndirilmənin adekvat olmasından və praktiki fəaliyyətdə seçilmiş prioritetlərin düzgünlüyündən asılıdır. Bununla bağlı olaraq, qeyd etmək lazımdır ki, müasir qlobalistika nöqteyi-nəzərindən bəşəriyyət üçün əsas təhlükəni özü - özlüyündə qloballaşma deyil, onun neqativ nəticələri, fəsadları - ilk növbədə, yaratdığı qlobal problemlər təşkil edir. Öz əsasında qloballaşma - obyektiv prosesdir və o da elmi-texniki tərəqqi kimi müəyyən üstünlüklərə və mənfi çalarlara malikdir. Əsas məsələ, bunu bəşəriyyətin ziyanına yox, onun xeyrinə, tərəqqisinə, inkişafına, əmin - amanlığına yönəltmək və istifadə etməkdir.

**ƏDƏBİYYAT:**


*1. Mazanlı İ.A. Jurnalistika və müasir dövrün qlobal problemləri: Dərs vəsaiti. – Bakı, "Bakı Universiteti" nəşr., 2013, 416 səh.*

*2. Məmmədov Q. və b. Sosial ekologiya (sosioekologiya). Ali məktəb üçün dərslik. Bakı, "Radius" nəşr., 2015, 675 səh.*

*3. Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, Qanun Nəşriyyatı, 2013, 264 səh.*

*4. Глобальная геополитика. Под ред. Абылгазиева И.И., Кефели И.Ф., Ильин И.В. Москва, Изд-во МГУ, 2010.*

*5. Гранин Ю. Д. Глобализация: диалектика исторических форм осуществления - Журнал: " Век глобализации". 2014, № 1(13).*

*6. Ильин И.В. Глобальные проблемы в контексте предметного поля глобалистики. - "Вестник университета". Теорет. и науч. - метод. журнал. 2010, №13.*

*7. Махаматов Т. М. От эпохи глобализации к неоглобализации: культурно -цивилизационный аспект. - Журнал: "Век глобализации". 2017, №4 (24).*

*8. Панфилова Т. В. Ценности глобализированного мира: общечеловеческие или обесчеловеченные? - Журнал: "Философия и общество". 2014, №2(74).*

*9. Пфаненштиль И. А. Современные процессы глобализации и геополитические последствия : социально-философское осмысление. Красноярск, СФУ, 2013.*

*10. Чумаков А.Н. Глобалистика в системе современного научного знания. - "Вопросы Философии". Научно-теоретический журнал, Москва, 2012, №-7.*



***Açar sözlər:*** *qlobalistika, qlobal problemlər, insan, bəşəriyyət, qloballaşma.*

***Ключевые слова:*** *глобалистика, глобальные проблемы, человек, человечество, глобализация.*

***Key words:*** *Key words: global studies, global problems, human being, humanity, globalization.*



**РЕЗЮМЕ**

**Глобалистика и место человека в этом мире.**

**Исмайылов Назим Исрафил о.**

**Доктор философии философских наук.**

**Юсифова Севда Фаррух к.**

**Старший преподователь.**

В статье отмечается, что в современном мире человек никогда не входил в такой степени в конфликт с итогом своей трудовой деятельности и не ставил бы себя в такое зависимое положение от ее результатов. Поэтому, сегодня диктуется большая потребность в познании бытия человека в глобализирующемся мире. В статье указывается, что происходящий во всех сферах общественной жизни кризис поражает и взгляды человека на мир и поэтому, вопрос о том, каким будет человечество в ближайшем и отдаленном будущем, зависит от того, в какой степени правильно расстановлены выбранные приоритеты и как направить их на благо человечества.



**SUMMARY**

**Global studies and man's place in this world**

**Ismayilov Nazim Israfil**

**Doctor of Philosophy**

**Yusifova Sevda Farrukh**

**Senior Lecturer**

The article notes that in the modern world a person has never been in such a degree in conflict with the outcome of his work activity and would not put himself in such a dependent position on its results. Therefore, today there is a great need for the knowledge of human existence in a globalizing world. The article points out that the crisis occurring in all spheres of public life also affects the world's views of a man and therefore, the question of how humanity will be in the near and distant future depends on the degree to which the selected priorities are correctly placed and how to direct them to the good of humanity.

# İnfrastruktur

## NƏQLİYYAT İNFRASTRUKTURU MÜRƏKKƏB SİSTEM KİMİ

GÜNEL MƏLİKLİ
Siyasi elmlər üzrə fəlsəfə doktoru






Müstəqillik şəraitində ölkəmizin inkişafı, mövcud potensialı quruculuq proseslərinə fəal surətdə cəlb etməsi; həm regional, həm də qlobal miqyasda öz nüfuzunu artırması reallıqdır. Hazırda əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan, insanların həyat fəaliyyətinin bütün tərəflərini əhatə edən, böyük irəliləyişi şərtləndirən siyasi kurs Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla davam etdirilir. Məhz dövlət başçısının gündəlik qayğısının nəticəsidir ki, ölkəmizdə güclü nəqliyyat sektoru, nəqliyyat infrastrukturu formalaşıbdır. Nəqliyyat kompleksində özünü göstərən struktur prosesləri respublikamızın sosial-iqtisadi və mədəni inkişafına kömək edir.

Sevindirici haldır ki, qısa bir vaxtda ölkədə yüz kilometrlərlə yeni dəniz və şosse yolları, rayonlarda yüzlərlə körpülər çay keçidləri və digər infrastrukturlar inşa edilibdir.[7,s.64,65] Təsadüfi deyildir ki. Respublikamıza gələn qonaqlar, turistlər etiraf etiraf edirlər ki, Azərbaycanın nəqliyyat infrastrukturu yenidir, müasirdir, heyrətamizdir.

Müasir mərhələdə ölkəmizin nəqliyyat infrastrukturu kifayət qədər mürəkkəb olan kompleks kimi insanların həyat fəaliyyətinin davamlı, zəngin olması istiqamətində öz töhfələrini artırır. Zənnimizcə, müasir nəqliyyat infrastrukturu bir sistem olaraq üç istiqamətdə fəal iş aparılmasını tələb edir:

1. nəqliyyat infrastrukturunun müxtəlif elementlərinin bir bütövlük daxilində nizamlı fəaliyyətinin təmin olunması;
2. nəqliyyat infrastrukturunun təhlükəsizliyinin müasir tələblər səviyyəsində həyata keçirilməsi;
3. nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi imkanlarının diqqətdə saxlanılması və münasib şərait yarandıqda reallaşdırılması.

Nəqliyyat infrastrukturunun nizamlı fəaliyyəti üçün onun ayrı-ayrı elementlərinin qarşılıqlı əlaqə və təsirinin ahəngdarlığı çox vacibdir. Bu bir həqiqətdir ki, bəzən infrastrukturun hər hansı elementinin, yaxud elementlərinin işində pozulma halları təzahür edir.





Belə halların mütəmadi surətdə araşdırılmasına, profilaktik tədbirlərin görülməsinə ciddi ehtiyac yaranır. Nəqliyyat infrastrukturunun real vəziyyəti həmişə nəzərə alınmalı, onun ahəngdar fəaliyyəti yetərli səviyyədə təmin olunmalıdır.

Müasir şəraitdə həm ayrı-ayrı dövlətlərdə, həm də dövlətarası münasibətlərdə təhlükəsizlik problemləri aktuallaşır, getdikcə daha geniş sahələri əhatə edir. Hazırda beynəlxalq nəqliyyat dəhlizlərinin və boru kəmərlərinin təhlükəsizliyini təmin etmək istiqamətində əhəmiyyətli addımlar atılır. Bu baxımdan tam əminliklə deyə bilərik ki, respublikamız bir sıra istiqamətlərdə olduqca vacib vəzifələri həyata keçirir.

Beynəlxalq nəqliyyat dəhlizlərinin və boru kəmərlərinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Respublikası aşağıdakı vəzifələri həyata keçirir:

- nəqliyyatın və nəqliyyatda təhlükəsizliyin təmin edilməsi; nəqliyyat sistemində səfərbərlik hazırlığının təmin edilməsi;

- Avropa – Qafqaz –Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması məqsədi ilə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;

- nəqliyyat infrastrukturlarının mühafizə sisteminin etibarlılığının təmin edilməsi; nəqliyyat infrastrukturlarının təhlükəsizliyinə kənardan təhdid yarada biləcək amillərin aşkarlanması və qarşısının alınması;

- nəqliyyat vasitələri və infrastrukturlarında, o cümlədən boru kəmərlərində terror aktlarının törədilməsində istifadə oluna biləcək vasitələrin dövriyyəsinin qadağan olunması və ya bu dövriyyəyə ciddi nəzarətin həyata keçirilməsi.[1,s.35,36]

Qeyd edək ki, bu vəzifələrin müxtəlif xarakterli təyinatlı təhlükəsizlik strukturlarının, aidiyyəti dövlət qurumlarının fəaliyyətində nəzərə alınmasına, həyata keçirilməsinə, adekvat imkanlar yaradılmasına daha ciddi diqqət yetirilir. Çünki bu, minlərlə insanların taleyinə, fəaliyyətinə dərindən təsir edən, onların əhval-ruhiyyəsində, psixologiyasında, davranışında müəyyən iz buraxan əhatəli vəzifələr kompleksidir.

Son illərdə Azərbaycanda nəqliyyatın, nəqliyyat infrastrukturunun təhlükəsizliyini daha yaxşı təmin etmək istiqamətində müvafiq qurumların fəaliyyətində nəzərə çarpan ciddi məqamları müşahidə olunur. Belə ki, nəqliyyat təhlükəsizliyi ilə əlaqədar işlək hüquqi baza yaradılıbdır və onun təkmilləşdirilməsi sahəsində normativ fəal iş gedir. “Nəqliyyat haqqında” Qanun, “Nəqliyyat sektorunun inkişafı Strategiyası” və s. xüsusilə diqqətə layiqdir. Bundan əlavə, nəqliyyat sektoruna qarşı yönəlmiş təhdidlərin müəyyənləşdirilməsi indi daha konkret səciyyə daşıyır, nəqliyyat infrastrukturu obyektlərinin, habelə nəqliyyat vasitələrinin kateqoriyalar üzrə qruplaşdırılmasında, müvafiq sahələr üzrə mütəxəssislərin hazırlanmasında yaxşı təcrübə toplanıbdır. Azərbaycan dövləti nəqliyyat dəhlizlərinin və infrastrukturlarının təhlükəsizliyinin təmin olunması istiqamətində fəal siyasət yeridir. Bu siyasət əslində bir sıra konkret vəzifələrin reallaşdırılmasını nəzərdə tutur:

- yüklərin və sərnişinlərin ölkə ərazisində maneəsiz hərəkətinin təmin olunması və Avropa-Asiya nəqliyyat sistemlərinin inteqrasiyası məqsədilə nəqliyyat infrastrukturunun razılaşdırılmış şəkildə inkişaf etdirilməsi;

- nəqliyyat sisteminin idarə olunmasında səmərəliliyin artırılması;

- intermodal nəqliyyat xətti üzrə ayrı-ayrı nəqliyyat növləri arasında qarşılıqlı əlaqənin səmərələşdirilməsi;

- beynəlxalq nəqliyyat dəhlizləri sahəsinə investisiya qoyulması üçün münbit şəraitin yaradılması;

- daxili daşımalarda milli nəqliyyat şəbəkəsinin yükləmə

dərəcəsinin artırılması;

- beynəlxalq turizmin inkişafına yardım edilməsi.[9,s.132,133]

Azərbaycanın müasir nəqliyyat təhlükəsizliyi siyasətində həm də aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- nəqliyyat sektorunda səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması istiqamətində islahatların aparılması;
- nəqliyyat sektorunda dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi;
- nəqliyyat xidmətləri bazarında sağlam rəqabət mühitinin yaradılması, tarif sisteminin təkmilləşdirilməsi;
- ölkənin sərhəd-keçid məntəqələri yaxınlığında yerləşən nəqliyyat infrastrukturlarının müasir tələblərə uyğun yeniləşdirilməsinə dair layihələrin həyata keçirilməsi;
- nəqliyyat infrastrukturunun və nəqliyyat vasitələri parkının müasir tələblərə uyğun yeniləşdirilməsi;
- Bakı və ölkənin digər şəhərlərində nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun qurulması;
- Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi üçün yolların buraxıcılıq qabiliyyətinin artırılmasını təmin edən proqramların işlənib hazırlanması;
- ölkə əhalisinin nəqliyyat xidmətlərinə olan tələbatının tam təmin edilməsi;
- ölkənin tranzit potensialından daha səmərəli istifadə edilməsi məqsədilə kompleks tədbirlərin davam etdirilmsəi. [9,s.140,141]

Araşdırmalar göstərir ki, respublikamızda enerji nəqliyyatı infrastrukturunun yaradılması sahəsində çox fəal iş aparılıbdır, başlıca ixrac marşuratları müəyyənləşdirilbdir. Bu baxımdan hələ 2011-ci ildə 28 may-Respublika günü münasibətilə keçirilən rəsmi qəbulda Prezident İlham Əliyev söylədiyi nitqində diqqəti bir neçə məqama cəlb etmişdir. O demişdir: "Bu gün çoxşaxəli enerji nəqliyyatı infrastrukturu yaradılıbdır. Azərbaycanın 7 neft və qaz kəməri vardır ki, təbii resurslarımızı 7 istiqamətdə dünya bazarlarına çıxarır. Yəni bu sözün əsl mənasında, şaxələndirmədir. Bəzi ölkələr şaxələndirmə məsələləri ilə bağlı indi fəal işləyirlər, o cümlədən Azərbaycanla da danışıqlar aparırlar. Biz isə şaxələndirmə siyasətimizi uğurla başa vurmuşuq. Növbəti illərdə artıq yalnız bu marşrutlar əsasında ixrac imkanlarımızı genişləndirə bilərik. Çünki bu 7 istiqamətdən başqa daha heç bir istiqamət qalmayıb. Enerji resurslarımız qonşu ölkələrə ixrac nəql edilir. Gələcəkdə aparılacaq danışıqlardan asılı olaraq biz istənilən istiqamət üzrə enerji resurslarımızın ixracının həcmini artıra bilərik".[12,s.148]

Göründüyü kimi, Prezident İlham Əliyev məsələni belə qoyur ki, istehsal olunan neftin, qazın nəqli və dünya bazarlarına çıxarılması üçün yeni istiqamət axtarılmasına ehtiyac yoxdur, lakin enerji resurslarımızın ixracının həcmini artırmaq imkanlarımızın mövcudluğu faktını nəzərə almalıyıq. Azərbaycanda güclü nəqliyyat infrastrukturunun yaradılması və təkmilləşdirilməsi hazırda ümumən etiraf olunur. Ölkəmizi üç qonşu dövlətlə bağlayan müasir avtomobil yollarının tikilməsi, şimal və qərb istiqamətlərində bu işlərin tamamlanması üçün ciddi addımların atılması göstərir ki, dövlətimiz magistral avtomobil yollarının tam şəkildə istismara verilməsini, infrastrukturun ən müasir standartlara və prinsiplərə uyğun qurulmasını daim diqqətdə saxlayır, müəyyən problem ortaya çıxdıqda onun operativ həllini təmin edir. Son illərdə nəqliyyat sektoruna qoyulan investisiyalar getdikcə artır. Bu, təkcə mərkəzdə, böyük şəhərlərdə yox, həm də bölgələrdə nəqliyyat infrastrukturunun təkmilləşməsinə gətirib çıxarır. Bölgələrdə avtomobil və dəmir yollarının müasirləşdirilməsi ilə yanaşı yeni aeroportlar, özü də beynəlxalq səviyyəli hava limanları tikilmişdir. Ölkəmizə yeni, ən müasir təyyarələrin gətirilməsi, yeni marşrutların müəyyən edilməsi, nəqliyyatla bağlı müxtəlif layihələrin icra olunması inkişaf imkanlarımızı genişləndirir. Yeri gəlmişkən xatırlamaq yerinə düşər ki, MDB məkanında Azərbaycan birinci ölkədir ki, hələ 4 il bundan əvvəl ən müasir Boening-787 Dreamliner təyyarəsi, iki sərnişin təyyarəsi gətirilmişdir. Təsadüfü deyildir ki, Azərbaycan hava nəqliyyatı sahəsində həm yük, həm də sərnişin daşımaları baxımından artıq fəal regional mərkəzə çevrilibdir. Ölkə başçısı yaranmış yeni imkanları nəzərə alaraq, bir neçə məsələnin vacibliyini xüsusi olaraq nəzərə çarpdırmışdır: birincisi, turizm marşrutları nəqliyyat infrastrukturu ilə uzlaşdırılmalıdır, yəni bu məsələyə kompleks şəkildə baxılmalıdır; belə yanaşmada əldə ediləcək yeni təcrübə gələcəkdə respublikamızda turizmin inkişafına da öz töhfəsini verəcəkdir; ikincisi, bir fəal regional mərkəz olmaq rolumuzu daha da gücləndirmək; üçüncüsü, bizim coğrafi baxımdan əlverişli vəziyyətimiz güclü nəqliyyat infrastrukturu ilə də təmin edilməlidir; məsələn, dəniz ticarət limanının tikintisi və Bakı-Tbilisi-Qars dəmir yolunun inşası bir-biri ilə sıx bağlı olan məsələlərdir, onlara bir sistemin müxtəlif tərəfləri kimi baxılmalıdır. Ölkəmizin nəqliyyat infrastrukturunun inkişafı baxımından kifayət qədər əlverişli, münasib imkanları vardır. Şimal-Cənub, Şərq-Qərb dəhlizləri – onlar Azərbaycan üzərindən keçir. Azərbaycanda yaradılan və yaradılacaq nəqliyyat infrastruktukturu həm ölkəmizə, həm də qonşulara xidmət göstərəcəkdir. [4,s.371]

Deməli, nəqliyyat infrastrukturu elə mürəkkəb və çoxşaxəli sistemdir ki, onun imkanlarından yetərincə yararlanmaq istiqamətində səylər getdikcə gücləndirilməli, müxtəlif ölkələrdə əldə edilmiş təcrübə diqqətlə araşdırılmalı və ondan yaradıcılıqla istifadə olunmalıdır.

Nəqliyyat infrastrukturu, xüsusilə geniş və miqyaslı əraziləri əhatə edən beynəlxalq xarakterli nəqliyyat infrastrukturu tarixiliklə müasirliyi əlaqələndirmək, sosial-siyasi və iqtisadi sahədə uğurları artırmaq, müasir dövrün zəngin imkanlarını işə qoşmaq baxımından olduqca əhəmiyyətlidir. Tarixi İpək Yolunun bərpası ideyasının müxtəlif dövlətlər və təşkilatlar tərəfindən dəstəklənməsi sübut edir ki, beynəlxalq marşrutlar əməkdaşlığın inkişafına yeni impuls verə bilər, daha perspektivli əlaqələrin qurulmasını və dərinləşməsini stimullaşdıra bilər. Məsələn, ATƏT Parlament Assambleyasının sədri məhz bu cəhəti nəzərdə tutaraq Bakıda keçirilən beynəlxalq konfransda qeyd etmişdir ki, "İpək Yolu bizim üçün çox önəmlidir. İpək Yolu bizim üçün çox önəmlidir. İpək Yolu elə marşrutdur ki, bu yol boyunca əhali yaşayır. Bu marşrut üzrə vacib şəhərlər yerləşir. Bunların xalqlarımızın inkişafı baxımından əhəmiyyət kəsb edən şəhərlərdir. Nəqliyyat infrastrukturunu müasirləşdirmək də əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Qars dəmir yolunu buna misal göstərmək olar. Ümumiyyətlə, hamımız üçün qarşımızda duran əsas prioritet iqtisadi sahədə müvəffəqiyyət əldə etməkdir" .[3,s.2]

Azərbaycan İpək Yolunun bərpasını reallaşdırmaq istiqamətində öz səylərini daim artırır. TRASEKA proqramı çərçivəsində 8 sentyabr 1998-ci ildə Bakıda Azərbaycan və Gürcüstan Prezidentlərinin təşəbbüsü ilə "Tarixi İpək Yolunun bərpası" adlı Beynəlxalq Konfransın keçirilməsi bunun əyani sübutudur. Bu konfransda 32 ölkə və 12 beynəlxalq təşkilat nümayəndələri iştirak etmişdir. Konfransda ən mühüm nailiyyət qismində Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkiyə, Ukrayna, Moldova, Rumıniya, və Bolqarıstanın imzaladığı "Avropa-Qafqaz-Asiya Dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə

Əsas Çoxtərəfli Saziş"i qeyd etmək olar.

Hazırda Azərbaycanla Çin arasında malların nəqli və mübadiləsi baxımından İpək Yolu özünəməxsus tranzit mərkəzi kimi öz imkanlarını genişləndirir. Bu yolun yeni variant Orta Asiya və Avropaya Ələt limanından keçir, bu da regional əhəmiyyət baxımından İpək Yolu üçün əhəmiyyətli addımdır. Şərqi-Qərb və Qərb-Şərq marşrutlarını, eləcə də Şərqi Asiya və Cənubi Asiyanın marşrutlarını birləşdirən yeni Şimal-Cənub nəqliyyat dəhlizini birləşdirmək üçün İpək Yolu Azərbaycanın alternativ yoludur. Əksər hallarda bu, Azərbaycanın nəqliyyat infrastrukturuna əhəmiyyətli investisiyalar hesabına mümkün olmuşdur. [11,s.160]

Bakı şəhərində inşa edilən müasir tipli möhtəşəm körpülər, yeraltı keçidlər və dayanacaqlar meqapolis miqyaslı paytaxtda nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulması ilə nəticələnmişdir. Azərbaycanın coğrafiyasının bütün çıxış nöqtələrinə doğru çəkilən yeni yollar mükəmməl otoban səviyyəsindədir. Ölkəmizin bütün regionlarını əhatə edən genişzolaqlı avtomobil yolları həm də respublikamızı iqtisadi və mədəni cəhətdən inkişaf etdirən at gücü funksiyasını daşıyır. [8]Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə 3,1 dəfə böyümüş nəqliyyat sektoru təkcə Azərbaycan üçün deyil, bütövlükdə Avrasiya regionu üçün nəqliyyat-logistika xəritəsinin yeni şəkil almasına gətirib çıxarmışdır. Xəzər dənizi akvatoriyasında ən böyük və müasir liman kompleksi olan bakı Beynəlxalq Dəniz Ticarət Limanı ətrafındakı Xüsusi İqtisadi Zona və Bakı Gəmiqayırma Zavodu Xəzərin bütün perimetri üzrə liman infrastrukturunun və su nəqliyyatının inkişafına stimul yaratmışdır. Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və dəstəyi ilə reallaşan "Dəmir İpək Yolu" adlanan Bakı-Tbilisi-Qars dəmiryolu xətti layihəsi Böyük İpək Yolunun Xəzər dənizi, Aralıq dənizi və Qara dəniz arasındakı intermariumda bərpasını təmin etmişdir. Hava nəqliyyatı üzrə Bakı, Gəncə, Zaqatala, Naxçıvan, Lənkəran və Qəbələdə yeni aeroportlar tikilərək istifadəyə verilmişdir. Prezident İlham Əliyevin son 15 ildə həyata keçirdiyi meqalayihələr və iqtisadi diplomatiya sayəsində Azərbaycan dünyada yeganə ölkədir ki, okeana birbaşa çıxışı olmadan nəqliyyat-logistika mərkəzinə çevrilmişdir. [6]

**ƏDƏBİYYAT:**


*1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Bakı: Qanun Nəşriyyatı, 2012.*

*2. Azərbaycan 2013-2003. Əsrə bərabər illər. İqtisadiyyat inkişaf və tərəqqi amili kimi. Bakı-"Şərq-Qərb", 2013.*

*3. Bakıda ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun beynəlxalq konfransı keçirilib. //"Respublika " qəzeti 14 mart 2018-ci il.*

*4. Dövlətçiliyin, milli maraqların və təhlükəsizliyin Qarantı , Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2015.*

*5. European Neighbourhood and Partnership İnstrument, Azerbaijan Country Strategy Paper, 2007-2013, P.15.*

*6. Əmirov N. // İlham Əliyev-ulu öndərin və xalqın inandığı lider. Azərbaycan qəzeti 23 dekabr 2018-ci il.*

*7. Heydər Əliyev Müasir Azərbaycan Parlamentinin Banisidir. Bakı: Azərbaycan Respublikası Milli Məclisinin Nəşri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları və Milli Məclisdə çıxışları. 2008.*

*8. Həbibbəyli İsa. İlham Əliyev zirvələri// Azərbaycan qəzeti, 23 dekabr 2018-ci il.*

*9. Həsənov Ə. M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, "Letterpress" nəşriyyat evi, 2011.*

*10. Məlikli G. Azərbaycan iqtisadiyyatının inkişafı//XXI əsr-mülahizələr və düşüncələr. Gənc tədqiqatçıların elmi-praktik konfransının materialları-2009 s.90-93.*

*11. Məlikli G. İlham Əliyevin siyasi strategiyasında milli prioritetlər. Bakı, "Nurlar Poliqrafiya şirkəti" 2018.*

*12. 2003-2013 Prezident İlham Əliyevin Seçilmiş Nitqləri. SAM center for strategic studies, 2013.*



***Açar sözlər:*** *nəqliyyat sistemi, nəqliyyat sektoru, nəqliyyat infrasrukturu, beynəlxalq nəqliyyat dəhlizləri, boru kəmərləri və onların təhlükəsizliyi, nəqliyyat infrastrukturunun təhlükəsizliyinə başlıca təhdidlər.*

***Key words:*** *transport system, transport sector, transport infrastructure, international transport corridors, pipelines and their safety, major threats to the transport infrastructure.*

***Ключевые слова:*** *транспортная система, транспортный сектор, транспортная инфраструктура, международные транспортные коридоры, трубопроводы и их безопасность, основные угрозы транспортной инфраструктуре.*



**Gunel Melikli, Ph.D. in Political Sciences, Doctoral Student of Institute of Philosophy of the National Academy of Sciences of Azerbaijan, Teacher at "Political and Social Sciences" Department of Baku State University**


**SUMMARY**


The article focuses on the analysis of the formation and development of transport infrastructure. The elements of this infrastructure are characterized by close interaction and interaction with each other. At the present stage, the issues of ensuring the safety and efficiency of the transport infrastructure are studied in the context of different requirements and the necessity of training qualified personnel responsible for this area is emphasized. Coordinate national, regional and global levels of transport infrastructure, current approaches in terms of effective monitoring, positions are reviewed and relevant generalizations are being carried out.



**Гюнель Меликли, доктор философии по политическим наукам, докторант института Философии НАНА, преподаватель кафедры «Политология и социология» Бакинского государственного университета**


**РЕЗЮМЕ**


Статья посвящена анализу формирования и развития транспортной инфраструктуры. Элементы этой инфраструктуры характеризуются тесным взаимодействием и взаимодействием друг с другом. На современном этапе вопросы обеспечения безопасности и эффективности транспортной инфраструктуры изучаются в контексте различных требований, и подчеркивается необходимость подготовки квалифицированных кадров, ответственных за эту область. Координировать национальный, региональный и глобальный уровни транспортной инфраструктуры, существующие подходы с точки зрения эффективного мониторинга, позиции пересматриваются и выполняются соответствующие обобщения.

# İqtisadiyyat

## İNVESTİSİYA MÜHİTİNİN FORMALAŞDIRILMASI PROSESLƏRİNİN VƏ MEXANİZMLƏRİNİN MÜASİR ASPEKTLƏRİ

ELNURƏ MƏMMƏDOVA
İqtisad üzrə fəlsəfə doktoru




Investisiya mühitinin formalaşdırılması prosesləri hər bir ölkənin iqtisadi siyasətinin strateji istiqamətlərindən biri kimi diqqət çəkir. Bunun əsas səbəbi iqtisadi inkişaf proseslərində davamlı şəkildə investisiya resurslarına və maliyyə təminatına zərurətin olması ilə bağlıdır. Dövlətin investisiya siyasətinin optimal formalaşdırılması üçün bütün məsələlər kompleks şəkildə təhlil olunmalı və investisiya siyasətinin ana xətti kimi qəbul edilən mexanizmlər uzunmüddətli dövrü əhatə etməklə əsaslandırılmalıdır [1]. Eyni zamanda, investisiya mühitinin işlək və səmərəli olmasında seçilən təhlil metodlarının və strateji yanaşmaların mühüm əhəmiyyəti diqqət mərkəzində saxlanılmalıdır [2]. Aparılan davamlı tədqiqtlar və araşdırmalar göstərmişdir ki, ölkədəki iqtisadi və sosial problemləri tam şəkildə özündə əks etdirən balanslaşdırılmış investisiya siyasəti olmadan mövcud sosial-iqtisadi problemlərin həll edilməsi və iqtisadiyyatın yeni artım mənbələrinin formalaşdırılması qeyri-mümkündür. Başqa sözlə, investisiya resursları və axınları multiplikativ təsirin nəticəsində iqtisadi inkişaf proseslərinə təkan verir və onları sürətləndirir [3]. Dövlətin də rolu bu məsələlərdə, ilk növbədə investisiya fəaliyyətinin səmərəli təşkili üçün sistemli tədbirlərin görülməsi və cəlbedici investisiya mühitinin yaradılmasından ibarətdir. Dövlət, xüsusilə investisiya mühitinə təsir edən daxili və xarici amilləri ciddi şəkildə qiymətləndirməli və bunlara adekvat şəkildə kompleks tədbirlər görməlidir [4]. Ümumilikdə, ölkədəki investisiya mühitinin formalaşdırılması proseslərinə və onların mexanizmlərinin səmərəliliyinə təsir edən hər bir elementin və komponentin iqtisadi-siyasi, təşkilati-hüquqi aspektlərinin öyrənilməsi, yaranma səbəblərinin müəyyənləşdirilməsi, buraxılmış nöqsanların aradan qaldırılması yollarının müəyyənləşdirilməsi və investisiya proseslərinin sabitliyinin təminatına imkan verən çoxfunksiyaslı fəaliyyət mexanizmlərinin dövriyyəyə cəlb olunması təmin olunmalıdır.

Qlobal iqtisadi çağırışlar və baş verən transformasiyalar ölkə iqtisadiyyatının müxtəlif fəaliyyət istiqamətləri üzrə yeni tələbləri ortaya çıxarmaqla bərabər, kompleks və sistemli tədbirlərin görülməsini şərtləndirir. Belə olduğu halda, müxtəlif iqtisadiyyat sahələrinin modernləşdirilməsi, müasir texnologiyalar əsasında yenidən inkişaf etdirilməsi, daha çox əlavə dəyər yaratmaq qabiliyyətinə malik iqtisadiyyat sahələrinin potensialından səmərəli istifadə olunması problemləri ortaya çıxır. Şübhəsiz, bütün bu problemlərin həlli üçün institusional və iqtisadi islahatların sürətləndirilməsi və bunlarla bağlı olaraq külli məbləğdə əsaslı

kapital qoyuluşları, əvvəldə qeyd etdiyimiz kimi, investisiyaların yatırılması və xüsusilə xarici investisiyaların daha intensiv şəkildə cəlb edilməsi tələb olunur. Bu amillər baxımından, qlobal iqtisadi çağırışlar kontekstində investisiya mühitinin və strukturunun səviyyəsinin qiymətləndirilməsi prinsipləri və meyarlarının təkmilləşdirilməsi, yenilənməsi hesabına, investisiya fəallığının artırılması, xüsusilə, xarici investisiyaların daha fəal cəlbinin təmin edilməsi üçün əlavə imkanlar yaratmaq mümkündür [5;6;7;8]. Dövlətin investisiya siyasətində mütərəqqi dünya təcrübəsi və onun ölkənin milli iqtisadi maraqlarına cavab verən səviyyədə tətbiq edilməsi amillərindən çıxış etməklə, mövcud və perspektivli iqtisadi inkişaf xüsusiyyətlərinə uyğun şəkildə işlək mexanizmlərin tətbiq edilməsi daha çox səmərə verə bilər. İqtisadiyyatın müxtəlif sahələrinə investisiyaların cəlbi mexanizmlərin uzunmüddətli dövrü əhatə etmək iqtidarında olan konseptual yanaşmalarının müəyyənləşdirilməsi, mövcud mexanizmlərin tamamilə yenilənməsi təmin olunmalıdır [9;10;11]. İnvestisiya mühitinin cəlbediciliyinin yüksəldilməsi və onun strukturunun diversifikasiyalaşdırılması prioritetləri üzrə təsirli tədbirlər görülməli, investisiya fondlarının yaradılması institutunun inkişaf etdirilməsi və investisiyalardan istifadənin səmərəlilik səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi problemləri həll edilməlidir [12;13;14;15].

İnvestisiya mühitinin formalaşdırılması proseslərinin və mexanizmlərinin müasir aspektlərindən yanaşdıqda, bu proseslərə təsir edən çoxsaylı amilləri sistemli şəkildə araşdırmaq, onların təsir dairəsini müəyyənləşdirmək, ölkənin iqtisadi inkişaf prioritetləri kontekstində fokuslaşdırmaq, inkişaf səmtlərini proqnozlaşdırmaq və s. bu kimi tədbirlərə kompleks şəkildə yanaşmaq vacib şərtlərdəndir.

Şəkil 1-də müasir dövrdə investisiya mühitinin formalaşdırılması proseslərinin və mexanizmlərinin blok-sxemini vermişik.

**Şəkil 1. Müasir dövrdə investisiya mühitinin formalaşdırılması proseslərinin və mexanizmlərinin blok-sxemi (tədqiqat materialları əsasında müəllif tərəfindən hazırlanmışdır).**




Şəkil 1-də verilmiş müasir dövrdə investisiya mühitinin formalaşdırılması prosesləri və mexanizmlərinin təhlilindən baxsaq, strateji əhəmiyyət kəsb edən yanaşmalar və mexanizmlər, əvvəldə qeyd etdiyimiz kimi, kompleks və sistemli münasibətləri şərtləndirir. Şübhəsiz, investisiya mühitinin səmərəlilik prinsiplərinin müəyyənləşdirilməsi üçün, ilk növbədə investisiya mühitinin formalaşması üzrə optimal dövlət siyasətinin təmin edilməsi tələb olunur, eyni zamanda bu siyasətin işlək alətlərinin, həmçinin dövlət dəstəyi mexanizmlərinin hazırlanması və tətbiq edilməsi vacibdir. İnvestisiya mühitinin müvafiq infrastruktu potensialının formalaşdırlması, texnologiyalar və innovasiyalar bazarlarının inkişaf etdirilməsi, ölkədə makroiqtisadi və makromaliyyə sabitliyinin qorunması, bank-kredit və sığorta sisteminin inkişafının təmin edilməsi və s. tədbirlərin reallaşdırılması, son nəticədə investisiya mühitinin cəlbediciliyinin yüksəldilməsinə yüksək təsir göstərə bilər.

Qeyd edək ki, Azərbaycan iqtisadiyyatı dünyada baş verən qlobal dəyişikliklərə və iqtisadi çağırışlara adekvat şəkildə modernləşmək, təkmilləşdirilmək proseslərinin intensiv fazasına keçmişdir. Belə ki, milli iqtisadiyyatımızın strateji hədəflərinin müəyyənləşdirilməsi və bunlarla bağlı milli iqtisadiyyatın 11 əsas fəaliyyət istiqaməti üzrə praktiki yanaşmaların və mexanizmlərin müəyyənləşdirilməsi tədbirlərinin reallaşdırılması və maksimum səmərəli nəticələrin əldə edilməsi üçün davamlı tədbirlər görülməkdədir [16]. Bu Strateji Yol Xəritələri sırasında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair” Strateji Yol Xəritəsi xüsusi əhəmiyyət kəsb edir və burada bir çox məsələlərlə yanaşı, ölkədə investisiya mühitinin cəlbediciliyinin təmin edilməsi ilə bağlı strateji hədəflər verilmişdir [17]. Strateji yol xəritələrində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün davamlı və etibarlı maliyyə mənbələri, o cümlədən intensiv şəkildə xarici investisiya axını vacibdir. Təəssüf ki, bu istiqamətlərdə ölkəmizdə son illərdə müəyyən problemlər yaranmışdır. Obyektivlik naminə qeyd etmək olar ki, dövlət tərəfindən bu problemlərin mahiyyətinin öyrənilməsi, həmin problemlərin həlli istiqamətində təsirli tədbirlərin görülməsi təmin edilmişdir və artıq ilkin nəticələr diqqət çəkir. 2017-2018-ci illərin yekunlarında ölkəmizin qeyri-neft sektorunun payı və iqtisadi artımda oynadığı rol təqdirəlayiqdir, qeyri-neft ixracında müsbət tendensiyalar müşahidə edilməkdədir [18]. Bir-birinin ardınca qeyri-neft sektorunun ayrı-ayrı sahələrində rəqabətqabiliyyətli müəssisələr, o cümlədən ixracyönlü müəssisələr yaradılmaqdadır və bu müəssisələrə 100 milyonlarla həcmində investisiyalar yatırılmaqdadır. 2004-2018-ci illərdə bütün mənbələr üzrə ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 260 mlrd. ABŞ dolları həcminə qədər yüksəlmişdir və bu proseslər intensiv şəkildə davam etməkdədir.

Ölkəmizdə iqtisadi inkişaf proseslərinin və yenidənqurma işlərinin intensivləşdirilməsi üçün sabit maliyyə və investisiya mənbələrinin formalaşdırılması vacib məsələlər kimi qiymətləndirilməlidir [19]. Xüsusilə, qeyri-neft sektoru sahələrinin inkişafına xarici investisiyaların cəlb edilməsi prioritet vəzifələrdən biri kimi baxılmalıdır [20]. Bundan əlavə, ölkəmizdə investisya mexanizmlərinin daha səmərəli iqtisadi-təşkilati mexanizmlərinin yaradılması və qanunvericilik bazasının formalaşdırılması vacibdir. Qeyd edək ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xarici investisiyaların qorunması, investisiya fəaliyyətinin



təşkili və investisiya fondlarının yaradılması üzrə qanunvericilk bazası formalaşdırılmış, müvafiq ölkə qanunları qəbul olunmuş və bu qanunların təkmilləşdirilməsi üzrə davamlı tədbirlər görülməkdədir. Belə ki, 15 yanvar 1992-ci il tarixli "Xarici investisiyanın qorunması haqqında", 13 yanvar 1995-ci il tarixli "İnvestisiya fəaliyyəti haqqında", 22 oktyabr 2010-cu il tarixli "İnvestisiya fondları haqqında", 15 sentyabr 2017-ci il tarixli "Kredit Zəmanət Fondunun yaradılması haqqında" və 18 yanvar 2018-ci il tarixli "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" ölkə qanunları qəbul olunmuşdur [21;22;23;24;25]. Bundan əlavə, son illərdə ölkə iqtisadiyyatının inkişaf istiqamətlərinin potensialından səmərəli istifadənin təmin edilməsi və onun neftdən asılılığın azaldılması üçün aparılan məqsədyönlü tədbirlərin sırasında xarici investisiyaların stimullaşdırılması və onların cəlbinin intensivləşdirilməsi üçün investisiya mühitinin yaxşılaşdırılması məsələlərinə geniş yer verilməkdədir. Bu amillər baxımından, investisiya mühitinin cəlbediciliyinin yüksəldilməsi və mövcud mexanizmlərin dünya təcrübəsinə uyğun şəkildə təkmilləşdirilməsi prioritetlik təşkil edir [26]. Etiraf etmək lazımdır ki, əslində, bu problem kifayət qədər mürəkkəbdir və hələ də ölkə iqtisadiyyatının neftlə bağlı olmayan sahələrinə investisiyaların cəlbi prosesləri istənilən səviyyədə deyildir və bu sahədə problemlər qalmaqdadır. Mövcud mexanizmlər xarici investorların intensiv şəkildə qeyri-neft sektoru sahələrinə investisiyaların yatırılmasına bəs etmir [27]. Ölkə iqtisadiyyatının qeyr-neft təmayüllü müxtəlif sahələrinin investisiya cəlbediciliyi üzrə müasir prinsiplər və yanaşmalar formalaşdırılmalı, investisiyaların cəlbinə əngəl yaradan baryerlərin aradan qaldırılması tədbirləri görülməlidir [28].

Qlobal iqtisadi çağırışlar şəraitində müasir dövrdə investisiya mühitinin formalaşdırılması proseslərinin səmərəliliyinin təmin olunması və bununla bağlı mövcud mexanizmlərin dünya təcrübəsinə uyğun şəkildə təkmilləşdirilməsi üçün bir qrup məsələlərə daha çox diqqətin yetirilməsini vacib hesab edirik:

- Qlobal iqtisadi və maliyyə təhdidləri şəraitində ölkəmiz özünün daha güclü fəaliyyət mexanizmlərindən ibarət investisiya siyasətini formalaşdırmalı və bununla bağlı strateji, konseptual yanaşmalar müəyyənləşdirilməlidir;
- Milli iqtisadiyyatın strateji inkişaf hədəfləri kontekstində dövlət investisiya siyasətinin gücləndirilməsi və daha işlək olan praktiki mexanizmlərin tətbiqi olunması prosesləri sürətləndirilməlidir;
- İnvestisiya cəlbediciliyinin və investisiya mühitinin səmərəliliyinin atrırılması üzrə beynəlxalq təcrübədə özünü doğrultmuş fəaliyyət modellərinin fundamental səviyyədə öyrənilməsi və ölkəmizin iqtisadi inkişaf modelinin strateji hədəfləri nəzərə alınmaqla, bu təcrübənin mütərəqqi nümunələrinin tətbiqi məsələlərinə baxılmalı və reallaşdırılamlıdır;
- Qeyri-neft sektoru sahələrinin əsas istiqamətləri üzrə iri investisiya-innovasiya layihələrinin hazırlanması və onların səmərəliliyinin təmin edilməsi tədbirləri həyata keçirilməlidir;
- Ölkədə investisiya mühitinin formalaşdırılması proseslərinin intensivləşdirilməsi və bununla bağlı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi üçün investisiyaların cəlbi, hərəkəti, idarə olunması üzrə hüquqi-iqtisadi, institusional mexanizmlərin yenilənməsi, təkmilləşdirilməsi təmin olunmalıdır və s.

**ƏDƏBİYYAT:**


*1. Уоррик С., Холлуорд-Дримайер М. Анализ инвестиционного климата // Журнал «Финансы и развитие», 2005.- С. 40-43.*

*2. Robert B. Stobaugh. How to Analyze Foreign Investment Climates. Harvard Business Review, 1969.*

*3. Bloomberg. Meet 2016's worst economic performers by Bloomberg, 2016. URL: www.bloomberg.com/news/ articles/.*

*4. Резепин А.С. Активизация роли государства в формировании привлекательного инвестиционного климата. Дисс. канд. экон. наук. Москва, 2007.- 138 с.*

*5. Лаврентьева Н.Д. Оценка инвестиционного климата м привлекательности экономических систем. Дисс. канд. экон. наук. Нижний Новгород, 2009.- 225 с.*

*6. Анисимова Э.В. Количественная и качественная оценка инвестиционного климата. Научный журнал КубГАУ, №75(01), 2012. http://ej.kubagro.ru.*

*7. Кувшинов М.С. Формирование инвестиционного климата промышленных предприятий. Дисс д-ра экон. наук. Челябинск, 2009.- 406 с.*

*8. Фатхиев А.М. Инвестиционный климат в системе экономического развития. Дисс. канд. экон. наук. Казань, 2008.- 190 с.*

*9. Антипин С.А. Формирование системы организационно-экономических отношений в аграрной сфере. Дисс. д-ра экон. наук. Санкт-Петербург, 2006.-279 с.*

*10. Ильин Н.П. Парадигма стратегического управления в аграрном секторе экономики в условиях реформирования: теория, методология, практика. Дисс. д-ра экон. наук. Санкт-Петербург, 2007.-324 с.*

*11. Шабунин Н.А. Привлечение инвестиций в развитие агропромышленного комплекса России. Дисс. канд. экон. наук. Москва, 2011.*

*12. Топсахалова Ф.М-Г. Теоретические и методологические основы оценки инвестиционной привлекательности аграрного сектора. Дисс. д-ра экон. наук. Ставрополь, 2006.-419 с.*

*13. Рябинин Е.В., Худоренко Е.А. Совершенствование методики оценки инвестиционного климата страны// Журнал Статистика и экономика, Том 13, №5, 2016.- С. 18-22.*

*14. Аксенова Н.И., Приходько Е.А. Современные подходы к оценки инвестиционной привлекательности страны// Журнал*

*Инвестиционный потенциал, №32(416), 2010- С.46-53.*

*15. Смаглюкова Т.М. Методика комплексной оценки инвестиционной привлекательности регионов с учетом их отраслевой специализации// Журнал Проблемы современной экономики, №3(23), 2007.- с.-51-59.*

*16. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*17. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafina dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.-59 s.*

*18. Azərbaycanın rəqəmlərdə. Bakı, 2018.-264 s.*

*19. Ataşov B.X. Maliyyə bazarları. Bakı, "Kooperasiya nəşriyyatı", 2016. -456 s.*

*20. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Nəşriyyatı, 2015.-185 s.*

*21. Xarici investisiyanın qorunması haqqında Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 15 yanvar 1992-ci il. № 57.*

*22. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 13 yanvar 1995-ci il. № 952.*

*23. İnvestisiya fondları haqqında Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 22 oktyabr 2010-cu il. № 1101-IIIQ.*

*24. Kredit Zəmanət Fondunun yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15.09.2017-ci il.*

*25. İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 18 yanvar 2018-ci il.*

*26. Гюльалиев М., Алиев Р. Динамика и отраслевая структура иностранных инвестиций, направленных в экономику Азербайджана // Экономический Вестник Донбасса, №3 (41), 2015.-С. 67-74.*

*27. Namazova C.B. İnvestisiya mühitinin təhlili və onun formalaşmasında vergi siyasətinin rolu. İ.e.d. dissertasiyasının avtoreferatı. Bakı, 2011.*

*28. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt Dövlət Universiteti, 2018.-384 s.*

**Açar sözlər:** *investisiya mühiti, investisiya mühitinin formalaşdırılması, investisiya mühitinin formalaşdırılması prosesləri, investisiya mühitinin formalaşdırılması mexanizmləri, investisiya mühitinin formalaşdırılması üzrə dövlət siyasəti, investisiya problemlərinə strateji yanaşmalar.*

**Ключевые слова:** *инвестиционная среда, формирование инвестиционной среды, процессы формирования инвестиционной среды, механизмы формирования инвестиционной среды, государственная политика по формированию инвестиционной среды, стратегические подходы к инвестиционным проблемам.*

**Key words:** *investment environment, the formation of the investment environment, the processes of formation of the investment environment, the mechanisms of formation of the investment environment, the state policy on the formation of the investment environment, strategic approaches to investment problems.*

**РЕЗЮМЕ**

**Современные аспекты формирования процессов и механизмов инвестиционной среды**

В статье исследованы современные аспекты формирования процессов и механизмов инвестиционной среды. С этой целью анализирована сущность процессов формирования инвестиционной среды в контексте глобальных угроз и тенденций. Рассмотрена эффективность основных механизмов формирования инвестиционной среды с учетом обеспечения их эффективности. Обоснована важность совершенствования механизмов формирования инвестиционной среды, с учетом стратегической цели развития национальной экономики и потенциала его перспективных секторов. Отмечена важность совершенствования основных механизмов государственной политики по формированию инвестиционной среды и обеспечению привлекательности инвестиционной среды в стране. Анализирована сущность стратегических подходов к инвестиционным проблемам и подчеркнута необходимость определения более эффективных механизмов по повышению привлекательности инвестиционной среды. Дана блок-схема формирования процессов и механизмов инвестиционной среды в современном периоде. В конце статьи приведен ряд предложений и рекомендаций по современным аспектам формирования процессов и механизмов инвестиционной среды.

**SUMMARY**

**Modern aspects of the formation of processes and mechanisms of the investment environment**

The modern aspects of the formation of processes and mechanisms of the investment environment are examined in the article. The essence of the processes of formation of the investment environment in the context of global threats and trends is analyzed with this purpose. The effectiveness of the basic mechanisms for the formation of the investment environment with regard to ensuring their effectiveness is considered. The importance of improving the mechanisms of formation of the investment environment, taking into account the strategic goal of developing the national economy and the potential of its promising sectors, is substantiated. The importance of improving the basic mechanisms of state policy on the formation of the investment environment and ensuring the attractiveness of the investment environment in the country is noted. The essence of strategic approaches to investment problems is analyzed and the need to identify more effective mechanisms to increase the attractiveness of the investment environment is emphasized. A block diagram of the formation of processes and mechanisms of the investment environment in the modern period is given. A number of proposals and recommendations on modern aspects of the formation of processes and mechanisms of the investment environment are presented at the end of the article.

# İqtisadiyyat

## STRATEJİ İNNOVASİYA PROSESLƏRİNİN VƏ İDARƏ EDİLMƏSİNİN SƏMƏRƏLİLİK PROBLEMLƏRİ

LALƏ MAHMUDOVA
İqtisad üzrə fəlsəfə doktoru




Qlobal iqtisadi proseslərin dərinləşdiyi bir dövrdə hər bir ölkənin innovasiya proseslərinin və bununla bağlı fəaliyyət istiqamətlərinin idarə edilməsinin səmərəlilik problemləri mühüm əhəmiyyət kəsb edir. Belə ki, qlobal təhdidlər artdıqca, innovasiyayönlü iqtisadi inkişaf mexanizmləri, başqa sözlə, innovatik inkişaf modeli xeyli aktual görünür. Bunun üçün, ilk növbədə, milli innovasiya sisteminin yaradılması və onun strukturunun təkmilləşdirilməsi vacib şərtlərdəndir. Milli innovasiya sisteminin əsas mexanizmləri və struktur elementləri innovasiya proseslərinin və idarəetmə funksiyalarının başlıca prinsiplərini özündə əks etdirməlidir [1]. İnnovasiya proseslərinin sistem əhəmiyyətli komponentlərinin təmin olunması, ölkədə dünya təcrübəsinə adekvat olan innovasiya infrastrukturun formalaşdırılması məsələlərinə daha çox önəm verilməlidir. Bu problemlərin həlli ilə bağlı məsələlərdə strateji innovatik idarəetmə mexanizmlərinin maksimum çevik və səmərəli şəkildə tətbiq edilməsi və ölkənin iqtisadi inkişaf hədəflərinə uyğun şəkildə praktiki fəaliyyət alətlərinin müəyyənləşdirilmsəsi mühüm əhəmiyyət kəsb edir [2]. Milli innovasiya sisteminin tərkib elementlərini, strukturunu, mühüm fəaliyyət istiqamətlərini, bunlarla bağlı strateji yanaşmaları müəyyənləşdirərkən qlobal təsirdən yaranan daxili və xarici amillər, innovasiyaların tələb olunma səviyyəsi, innovasiyalar və texnologiyalar bazarının inkişaf etdirilməsi problemləri mütləq şəkildə nəzərə alınmalıdır. Ölkədə innovasiya proseslərinin və idarə edilməsinin səmərəliliyinin təmin olunması və ümumilikdə innovasiya sisteminin inkişaf prioritetlərinin reallaşdırılması ilə bağlı strateji vəzifələrin həyata keçirilməsi üçün bir qrup məsələlərə xüsusi önəm verilməlidir: 1) dövlətin qlobal tendensiyalar kontekstində əsaslandırılmış innovasiya siyasətinin prioritetlərinin və strategiyasının hazırlanması, onun məqsədlərinin və vəzifələrinin optimal olaraq, müəyyənləşdirilməsi, innovativ inkişafın milli prioritetlərinin seçilməsi, innovasiya fəaliyyətinin xüsusiyyətlərin dərindən öyrənilməsi və qiymətləndirilməsi; 2) real şəraitdə innovasiya fəaliyyətinin inkişafı və stimullaşdırılmasının normativ-hüquqi bazasının yaradılması, zəruri olan qanunların qəbul edilməsi, innovasiya fəaliyyəti cəlbediciliyinin yüksəldilməsi; 3) milli innovasiya sisteminin dinamik inkişafının təmin olunması və bununla əlaqədar maddi-texniki bazanın, müvafiq innovasiya




infrastrukturunun yaradılması; 4) ölkədə bilik iqtisadyyatının yaradılması və yayılması sisteminin dünya təcrübəsinə uyğunlaşdırılması, təhsil sistemində islahatların dərinləşdirilməsi və intellektual resursların üzə çıxarılması şəraitinin formalaşdırılması; 5) ölkədə innovasiya fəaliyyəti üzrə müəssisələr şəbəkəsinin formalaşdırılması tədbirlərinin görülməsi, bununla əlaqədar dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi, ixtisaslaşdırılmış innovatik elmi-sənaye korporasiyaları, yüksək texnologiyalı sənaye istehsalı da daxil olmaqla ixtisaslaşdırılmış innovasiya müəssisələrinin təşkili; 6) innovasiyaların mənimsənilməsi, bu sahədə müvafiq biliklərə yiyələnmiş mütəxəssislərin hazırlanması, təhsil və ixtisaslı təlim sahəsinin səmərəliliyinin yüksəldilməsi, innovasiyalar sferasının təşkili və idarə edilməsi üzrə yüksək peşəkarlığa malik kadrların hazırlanması; 7) ölkədə innovasiyaların işlənməsi, hazırlanması və tətbiqinə təkan verən bazar iqtisadiyyatı şəraitinin və rejiminin formalaşdırılması; 8) innovasiyaların inkişafı və innovasiya məhsulların çeşidinin artırılması məqsədilə bu proseslərin dayanıqlı maliyyə təminatı mexanizmlərinin yaradılması, innovasiya müəssisələrinin ucuz kredit və maliyyə resurslarına çıxışının təmin edilməsi, bu sahələrin investisiya cəlbediciliyinin yüksəldilməsi; 9) dünya texnologiyalar və innovasiyalar bazarlarına fəal çıxışın təmin olunması, onların transferi istiqamətində strateji fəaliyyətin təmin edilməsi, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi, beynəlxalq elm və texnologiyalar layihələrində ölkə mütəxəssislərinin iştirakına nail olunması və 10) innovasiya proseslərinin qlobal təsirlərə uyğun şəkildə səmərəli idarəetmə mexanizmlərinin təşkili, onun bütün elementləri arasında qarşılıqlı əlaqələr sistemini əks etdirən innovativ inkişaf mexanizminin yaradılması və s. Bütün bu məsələlərə strateji yanaşmaların təmin edilməsi ölkədə innovasiya sisteminin inkişafını sürətləndirməyə və innovasiya proseslərinin səmərəliliyini artırmağa əlavə stimullar yarada bilər [3; 4].

Qeyd edək ki, innovasiya proseslərinin maksimum səmərəli təmin olunması üçün strateji yanaşmaların və mexanizmlərin əsalandırmış formada seçilməsi və tətbiq edilməsi, onların xüsusiyyətləri ilə bağlı məsələlərin nəzərə alınması vacib şərtlərdəndir [5; 6]. Bu proseslərdə sistemli yanaşmanın təmin olunması innovasiya strategiyasının hazırlanmasında, innovasiya proseslərinin və idarə edilməsinin səmərəlilik problemlərinin artırılmasında əlavə imkanlar formalaşdırır və bunlarla bağlı bir sıra məsələləri, elementləri ayrıca nəzərə almağa imkan verir:

- buraxılan innovasiya məhsullarının və tətbiq olunan texnologiyaların təkmilləşdirilməsi üçün tədbirlər sisteminin formalaşdırılması;
- qlobal innovasiya bazarlarına uyğun yeni növ məhsulların və mütərəqqi texnologiyaların yaradılması və mənimsənilməsi;
- innovasiya sahəsində tələb olunan səviyyədə kadr potensialından və informasiyalardan daha səmərəli istifadə edilməsi;
- innovatik inkişafa imkan verən texniki-texnoloji, elmi-tədqiqat və layihə-konstruktor bazasının keyfiyyətcə təkmilləşdirilməsi və yeni qlobal səmtlərə uyğunlaşdırılması;
- innovasiya proseslərinin idarəetmə mexanizmlərinin və bütünlüklə, ölkədə innovasiya fəaliyyətinin mövcud yanaşmalarının, təşkili alətlərinin təkmilləşdirilməsi;
- innovasiya proseslərinin sabit və səmərəli inkişafına imkan verən maddi-texniki bazanın formalaşdırılması, innovatik resurs bazasının möhkəmləndirilməsi;
- daxili və xarici bazarda analoji təyinatlı məhsulla müqayisədə innovasiya məhsulunun rəqabət üstünlüyünün təmin edilməsi, innovatik məhsullara sifarişlərin dairəsinin genişləndirilməsi, innovasiyayönlü müəssisələrinin fəaliyyətinin stimullaşdırılması üzrə dövlət dəstəyi mexanizmlərinin strateji səviyyədə baxılması və təkmilləşdirilməsi;
- ölkə səviyyəsində innovasiya proseslərinin inkişafına konseptual yanaşmaların təmin olunması və idarəetmə mexanizmlərinin maksimum yenilənməsi və s.

Qeyd edək ki, müasir dövrdə innovasiya proseslərinin səmərəliliyinin yüksəldilməsi və bununla əlaqədar olaraq, dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi bir qrup məqamlara xüsusi önəm verilməsini şərtləndirir. Bunların içərisində elm və texnologiyaların prioritetliyi, ixtiraların və kəşflərin əhatəsinin genişləndirilməsi şəraitinin formalaşdırılması, milli innovasiya mühəndislərinin və konstruktorlarının yetişdirilməsi daha çox fərqlənirlər [7;8]. Ümumilikdə isə, dövlətin innovasiyalara dəstək sahəsində rolunu bir qrup məsələlər üzrə baxmaq mümkündür: 1) dövlət elmin, o cümlədən, tətbiqi elmin inkişafına və innovasiya ideyalarının əsas mənbəyi olan mühəndis və elmi kadrların hazırlanmasına şərait yaradır; 2) dövlət idarələri çərçivəsində biznesin innovasiya fəallığının yüksəldilməsi istiqamətində müxtəlif proqramlar işlənib hazırlanır və reallaşdırılır; 3) elmi-texnoloji tədqiqat layihə işlərinin aparılması üzrə müqavilə formasında dövlət sifarişlərinin formalaşdırılması və bir sıra yeniliklərə ilkin tələbi təmin olunması, nəticədə sonrakı proseslərdə bu yeniliklər ölkə iqtisadiyyatının müxtəlif sahələrində geniş tətbiq edilməsi, 4) innovasiyaların inkişafı və daha geniş marağın yaradılması məqsədilə bu sahədəki fəaliyyətin maliyyə təminatı mexanizmlərinin gücləndirilməsi, fiskal və digər dövlət tənzimləmə alətləri vasitəsilə stimullaşdırıcı tədbirlərin görülməsi; 5) akademik və tətbiqi elm arasında səmərəli qarşılıqlı əlaqənin təşkil edilməsində dövlətin vasitəçi kimi çıxış etməsinin müasir mexanizmlərinin yaradılması, elmi-texnoloji tədqiqat layihə işlərinin yerinə yetirilməsində sənaye korporasiyaları və universitetlər arasında kooperasiyanın gücləndirilməsi, bu sahədəki fəaliyyətin “elm-universitet-istehsalat” sxemi əsasında davamlı şəkildə təşkili, təkmilləşdirilməsi və s. Digər tərəfdən, innovasiya fəaliyyətinin dövlət tənzimlənməsini tədqiq edərkən innovasiya mexanizmlərinin mühüm komponentlərini, o cümlədən, innovasiya proseslərinin

idarəetmə mexanizmlərinin səmərəlilik problemlərinin ciddi şəkildə qiymətləndirilməsi vacibdir. İnnovasiya mexanizmi dedikdə, innovasiya fəaliyyətinin həyata keçirilməsinin iqtisadi-təşkilati forması, innovasiya qərarlarının axtarışı, innovasiya fəaliyyətinin stimullaşdırılması və idarə edilməsi mexanizmi ilə bağlı fəaliyyət prosesləri və mexanizmləri başa düşülür [9].

Qeyd edək ki, dünya təcrübəsində innovasiya proseslərinin və idarə edilməsinin səmərəlilik problemlərinin həlli istiqamətində uzun onilliklər ərzində mütərəqqi təcrübə formalaşmış və özünü doğruldan idarəetmə mexanizmləri, fəaliyyət modelləri yaradılmışdır. Şübhəsiz, bunlar, ilk növbədə, hər bir ölkənin iqtisadi inkişaf xüsusiyyətləri və prioritetləri, milli resursları, intellektual bazası və s. nəzərə alınmaqla mümkün olmuşdur. Əgər, 20-30 il bundan əvvəl analoji proseslər əsasən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə aid idisə, son 10 ildə bir qrup inkişaf etməkdə olan ölkələrdə də innovasiya proseslərinin intensivləşdirilməsi, innovasiyalar və texnologiyalar bazarının inkişafının sürətləndirilməsi, daha səmərəli innovatik mexanizmlərinin hazırlanaraq dövriyyəyə cəlb edilməsi, milli innovasiya sisteminin səmərəli modelinin formalaşdırılması, innovasiyalarının hazırlanması, işlənməsi və tətbiqi problemlərinə daha çox məqsədli investisiyalarının yönəldilməsi və maliyyə resurslarının ayrılması diqqət çəkir. Milli innovasiya sistemlərinin səmərəliliyinin yüksəldilməsi ilə bağlı problemlərin biznesin inkişafı kontekstində baxılması prioritetləri də innovasiya bazarlarının inkişaf etdiyi ölkələr üçün xeyli xarakterikdir [10]. Şübhəsiz, milli innovasiya sisteminin inkişafında, innovasiya proseslərinin səmərəliliyinin yüksəldilməsində və idarəetmə mexanizmlərinin daha optimal modellərinin formalaşdırılmasında ABŞ-da əldə olunmuş təcrübə daha çox diqqətə layiqdir [11]. Bu ölkədə innovasiyaların inkişafına mane olan baryerlərin aradan qaldırılması problemlərinə strateji yanaşmalar kifayət qədər prioritetlik təşkil edir. Milli innovasiya sisteminin və onun idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi proseslərinə güclü maliyyə resursları yönəldilir, infrastruktur şəbəkəsi yaradılır [12]. Analoji yanaşmalar Avropa Birliyi ölkələri üçün də xarakterikdir və burada innovasiyaların yeni nəslinin, qlobal iqtisadi çağırışlara adekvat olan müasir innovatik məhsulların formalaşdırılması prioritetlərinə daha çox üstünlük verilməkdədir [13; 14]. Böyük Britaniyada isə milli innovasiya sisteminin bütün elementləri, o cümlədən, idarəetmə məsələləri dövlət tərəfindən ən yüksək səviyyədə - strateji səviyyədə baxılır və zəruri tədbirlər görülür, innovasiyalar üçün dövlət sifarişləri verilir və nəzarətedici orqanların sayı azaldılır, vergi güzəştləri müəyyənləşdirilir [15]. Fransada Milli İnnovasiya Agentliyi fəaliyyət göstərir və onun il ərzində koordinasiya etdiyi fərdi innovasiya proqramlarının sayı 4 mindən çoxdur. Bu Agentliyin özünün illik fəaliyyət büdcəsi təxminən 300 mln. avro həcmindədir. Ölkənin 45 universiteti və ali texniki məktəbləri 14 texnologiyalar və innovasiyalar mərkəzində davamlı şəkildə innovasiya fəaliyyəti ilə məşğul olurlar [16]. Almaniyada dövlətin innovasiya siyasətinin əsasında bu sahəyə güclü maliyyə dəstəyinin göstərilməsi yer almışdır. Ölkədə 220 innovasiya müəssisəsi və 14 innovasiya mərkəzi fəaliyyət göstərir [17]. Həyat səviyyəsi və əhalinin yaşayış şəraiti yüksək olan ölkə kimi İsveçdə iqtisadiyyatın və cəmiyyətin bütün sahələrində innovatik yanaşmalar və mexanizmlər mütləq şərtlərdən biri kimi qəbul olunmuşdur [18]. Son illərdə iqtisadi gücünə görə sürətlə inkişaf edən və dünya ikincisi kimi möhkəmlənən Çində il ərzində innovasiyaların və texnologiyaların inkişafı proseslərinə 700-800 mlrd. dollar səviyyəsində vəsait



xərclənir [19]. Bu ölkələrlə bərabər, Azərbaycanla elmi-texniki və iqtisadi inkişaf amilləri baxımından xeyli oxşar cəhətlərə malik olan postsovet respublikalarında - Rusiya və Qazaxıstanda da milli innovasiya sisteminin inkişaf etdirilməsi, innovasiya proseslərinin və idarə edilməsinin səmərəliliyinin artırılması istiqamətində milli konsepsiyaların və strategiyaların hazırlanmasına, reallaşdırılmasına diqqət son 10 ildə xeyli artmışdır [20; 21].

Qlobal təsirlərin genişləndiyi bir şəraitdə Azərbaycanda innovatik inkişafın təmin edilməsi, innovasiya proseslərinin və idarə edilməsinin səmərəlilik problemlərinin həll olunmasının vacibliyi diqqət çəkir. Bir tərəfdən, ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması istiqamətində qarşıya qoyulan strateji hədəflərin reallaşdırılması prosesləri intensivləşibsə, digər tərəfdən, ölkə iqtisadiyyatının yüksək texnologiyalar əsasında inkişafının təmin olunması strateji vəzifə kimi qarşıda durmuşdur. Belə ki, inkişaf etməkdə olan digər ölkələr kimi, Azərbaycan iqtisadiyyatının da gələcək inkişafı innovasiya yönümlü iqtisadiyyata yönəldilməlidir [22, s.13]. Bundan əlavə, ölkəmizdə innovasiya proseslərinin və idarə edilməsinin dünya təcrübəsi kontekstində təşkili iqtisadiyyatımızın əsas aparıcı sahələrindən biri kimi sənaye sektorunun yüksək texnologiayalar bazasında inkişafına güclü təkan verə bilər. İnnovasiyaların inkişafı üçün əlverişli şəraitin yaradılması Azərbaycan iqtisadiyyatının texnoloji bazasını modernləşdirilməyə imkan yaradar və milli məhsullarımızın rəqabət qabiliyyətini yüksəldər [23]. Eyni zamanda, ölkə iqtisadiyyatının inkişaf tempinin təmin edilməsi və dayanıqlılığının gücləndirilməsi baxımından milli iqtisadiyyat sahələrinin innovasiyalaşdırılması prosesləri sürətləndirilməlidir [24]. Bunun üçün artıq əsaslı zəmin də formalaşmaqdadır. Artıq İnnovasiyalar Agentliyinin Nizamnaməsi və Strukturu təsdiqlənmişdir və bu Agentliyin fəaliyyəti ilə bağlı dövlət büdcəsindən vəsait də ayrılmışdır. Əsas məqsəd - müasir texnologiyalarının və texnoloji həllərin əldə olunması, ölkədə innovasiya sahibkarlığının inkişafına təkan verilməsidir [25].

Yaxın perspektivdə ölkəmizdə innovasiya proseslərinin daha strateji səviyyəyə qaldırılması və onun səmərəlilik problemlərinin həlli üçün optimal mexanizmlərin işlənib hazırlanması, tətbiq edilməsi tədbirləri intensiv xarakter alacaqdır. Bu sırada əsas məsələlər kimi ölkədə innovasiyayönlü iqtisadiyyatın qurulması, innovasiya müəssisələri şəbəkəsinin yaradılması, innovasiya proseslərinin idarə edilməsi mexanizmlərinin səmərəliliyinin artırılması daha çox diqqət çəkəcəkdir və s.

**ƏDƏBİYYAT:**


1. *Красноперова Т.Я. Национальная инновационная система: структура, роль финансовой составляющей // Научно-технический вестник информационных технологий, механики и оптики. 2013. №6 (88), С. 46-54.*

2. *Давлетов, И.И., В.П. Черданцев, М.В. Тронина. Стратегическое управление инновационными процессами в организации. ФГБОУ ВО «Пермская ГСХА». – Пермь, 2015. – 290 с.*

3. *Третьяк В.В., Середа О.О. Национальная инновационная система как основа экономики инновационного типа // Вестник экономической науки Украины. 2010. №1 (17), с.115-118.*

4. *Вольчик В. В., Кривошеева-Медянцева Д. Д. Институты, ресурсы и национальная инновационная система или почему не получается инновационный суп // Journal of Institutional Studies, 2014. - С. 51-64.*

5. *Модели формирования национальных инновационных систем - http://kapital-rus.ru.*

6. *Гузырь В.В. Национальная инновационная система как основа экономики качества жизни. Дисс. канд. экон. наук. Томск, 2007, 171с.*

7. *Золотых И.Б. Национальная инновационная система как составляющая экономики знаний: проблемы и перспективы // Технологический аудит и резервы производства. № 2/6(22), 2015, С.94-99.*

8. *Шумилин А.Г. Сущность и функции национальной инновационной системы // Вестн. Том. гос. ун-та. Экономика. 2016. №1 (33), С.28-39.*

9. *Астапенко М. С. Общая характеристика теоретико-методологической основы национальной инновационной системы России // Интернет-журнал Науковедение. 2014. №4 (23), С. 67-79.*

10. *Гавловская Г.В. Национальные инновационные системы: зарубежный опыт // Бизнес в законе. 2013. №3, С. 37-49.*

11. *Национальная инновационная система США - https://habr.com/ru/post/405577/*

12. *Фролов А.В. Национальная инновационная система США: институциональные аспекты // Актуальные проблемы экономики и права. 2011. №4 (20), С.51-63.*

13. *Смирнов Е.Н.. Феномен наднациональной инновационной системы Европейского Союза // Вестник Университета, № 9, 2013, С. 208-214.*

14. *Шаров В.Ф. Опыт стран Европейского союза по созданию условий, повышающих конкурентоспособность и эффективность национальных инновационных систем // Экономические науки, 2012, 10(95). С.205-213.*

15. *Махортова В.К. Национальная инновационная система Великобритании // Вестник БГУ. 2014. №3. С.39-48.*

16. *Варламов М.Г. Инновационная среда Франции, Германии, России: сравнительный анализ // Вестник Казанского технологического университета. 2013. №9. С.43-52.*

17. *Романова Е.В. Национальная инновационная система ФРГ региональные исследования // Региональные исследования. 2 (48), 2015, С.98-108.*

18. *Удальцова Н.Л., Чирухина К.С., Федорова А.А. Национальная инновационная система Швеции: стратегия развития и факторы успеха // Вопросы экономики и права. 2015. № 2. - С.97-100.*

19. *Файзуллина Н.Г. Национальная инновационная система Китая // Фундаментальные исследования. – 2015. – № 6-3. – С. 628-631.*

20. *Еремина О. С., Демина Н. В. К вопросу о развитии национальной инновационной системы России // Научно-методический электронный журнал «Концепт». – 2015. – Т. 8. – С. 36–40.*

21. *Ситенко Д.А. Национальная инновационная система Казахстана: анализ и перспективы развития // Вестник КарГУ. 2010, №2, С.33-39.*

22. *Tağıyev A.H. İnnovasiya (nəzəri və tətbiqi səpkidə). Bakı, Təknur, 2018, 552 s.*

23. *Aslanzadə İ.A. Dövlət innovasiya siyasətinin formalaşması və sənaye sektorunun rəqabət qabiliyyətliyinin yüksəldilməsi problemləri. İ.e.d. dissertasiyasının Avtoreferatı. Bakı, 2013, 56 s.*

24. *Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018-376 s.*

25. *İnnovasiyalar Agentliyinin Nizamnaməsi və Strukturu təsdiqlənib. 22.02.2019. https://azertag.az/print/1249972.*



**Açar sözlər:** *strateji innovasiya prosesləri, innovasiya proseslərinin idarə edilməsi, innovativ inkişaf istiqamətləri, milli iqtisadiyyatın innovasiyalaşdırılması problemləri, innovasiya proseslərinin idarəetmə mexanizmlərinin səmərəliliyi, iqtisadiyyatın innovasiyalaşdırılması prioritetləri.*

**Ключевые слова:** *стратегические инновационные процессы, управление инновационными процессами, направления инновационного развития, проблемы инноватизации национальной экономики, эффективность механизмов управления инновационных процессов, приоритеты инноватизации экономики.*

**Key words:** *strategic innovative processes, management of innovative processes, directions of innovative development, problem of innovatization of national economy, efficiency of mechanisms of management of innovative processes, innovatization priorities of economy.*



**РЕЗЮМЕ**

**Проблемы эффективности инновационных процессов и управления инновациями**

В статье исследованы стратегические подходы к проблемам эффективности инновационных процессов и управления инновациями. Раскрыта сущность и важность существующих проблем в управлении инновационными процессами. Обоснована необходимость ускорения основных направлений инновационного развития. Обоснована важность интенсификации совершенствования процессов инноватизации национальной экономики Азербайджана в ближайшей перспективе. Обобщены ключевые моменты по проблемам эффективности инновационных процессов и управлению инновациями в современных условиях.



**SUMMARY**

**Problems of efficiency of innovative processes and innovation management**

Strategic approaches to problems of efficiency of innovative processes and innovation management are investigated in the article. The essence and importance of the existing problems in innovation management is disclosed with this purpose. Need of acceleration of the main directions of innovative development is improved too. Importance of an intensification of improvement of processes of an innovatization of national economy of Azerbaijan is improved too. The key moments on problems of efficiency of innovative processes and innovation management in modern conditions are generalized in the end of the article.

# İqtisadiyyat

## QLOBAL ÇAĞIRIŞLAR KONTEKSTİNDƏ SIĞORTA FƏALİYYƏTİNİN SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ

KAMAL İBRAHİMOV
İqtisad üzrə fəlsəfə doktoru



Qlobal çağırışlar kontekstində cəmiyyətin və iqtisadiyyatın davamlı və dayanıqlı inkişafı sosial-iqtisadi proseslərin təhlükəsizliyinin və səmərəliliyinin təmin edilməsilə bilavasitə bağlıdır. Dövlət bu məqsədlə müxtəlif sosial təyinatlı tədbirlər reallaşdırır və dövlət tənzimlənməsi mexanizmləri vasitəsilə sosial siyasət yürüdür, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi tədbirləri görür. Bu proseslərdə maksimum səmərəliliyə nail olmaq, sosial-iqtisadi proseslərdə ortaya çıxan müxtəlif risklərdən və təhlükələrdən dəyən zərərləri azaltmaq, bunlarla bağlı təsirli tədbirlər görmək dövlətin strateji vəzifələrindən hesab olunur [1]. Dünya təcrübəsində bu vəzifələrin öhdəsindən gəlməkdə sığorta fəaliyyəti strateji fəaliyyət istiqamətlərindən və dövlət siyasəti mexanizmlərindən hesab edilir [2, s. 58]. Hesab edirk ki, sığorta fəaliyyəti müsair dövrdə sosial təhlükəsizliyin və iqtisadi proseslərin daha etibarlı, fasiləsiz şəkildə təmin edilməsi üçün strateji əhəmiyyət kəsb edən fəaliyyət sahələrindəndir. Sığorta fəaliyyəti dövlətin sosial-iqtisadi siyasətinin daha səmərəli təşkilində, əhalinin sosial risklərdən qorunmasında, yaşayış səviyyəsinin tarazlaşdırılmasında, cəmiyyətin həyat tərzinin sağlamlaşdırılmasında, sosial-iqtisadi problemlərin yumşaldılmasında mühüm əhəmiyyət kəsb edir. Belə ki, sığorta xidmətlərinin göstərilməsi hesabına və müxtəlif istiqamətlərdə sığorta təminatının formalaşdırdığı etibarlı mühitin sayəsində sosial-iqtisadi təyinatlı sığorta xidmətləri cəmiyyətdə daha dinamik inkişafın getməsinə, insanların əhvali-ruhiyyəsinə müsbət təsir göstərməsinə, onların sosial-iqtisadi fəallığının artmasına əlavə imkanlar formalaşdırılır. Sığorta vasitəsilə insanlar öz həyat səviyyələrini yaxşılaşdırmaq və təmin etmək üçün pul vəsaitlərinin toplanmasına, fondların yaradılmasına, həmin vəsaitlərin səmərəli şəkildə bölüşdürülməsinə, pul-maliyyə resurslarından investisiya xarakterli layihələrdə istifadə olunmasına şərait yaranır [3; 4]. Dövlət özünün sosial-iqtisadi siyasətində sığorta mexanizmlərindən və alətlərindən fəal istifadə etməklə, əhalinin həyat şəraitinin sabitliyini təmin edir və insanların cəmiyyətdə və iqtisadi inkişaf proseslərində səmərəli fəaliyyətinə şəraiti daha da yaxşılaşdırır [5].

Qeyd edək ki, bazar iqtisadiyyatı şəraitində sığorta fəaliyyətinin səmərəli təşkili və sığorta şirkətlərinin fəallığı nəticəsində sığorta




sosial xərclərin əhəmiyyətli hissəsini qarşılamaqla cəmiyyət və ayrı-ayrı insanlar üçün çox mühüm funksiyaların öhdəsindən gəlir. Bu isə, öz növbəsində, insanların əmlak və pul vəsaitlərini qorumağa, sosial güvənliliyini artırmağa və, ümumilkdə, ölkədə sosial gərginliyin əhəmiyyətli səviyyədə azalmasına imkan verir [6]. Sosial məsələlər, sosial-iqtisadi problemlərin əhatəsi real şəraitdə əhalinin həyat səviyyəsinin təmin edilməsi üzrə sistemə daxil olan bir çox sahələri, o cümlədən əmək, istehlak, məişət, təhsil, mədəniyyət, incəsənət, istirahət, sağlamlığın qorunması, sosial təminat, sosial müdafiə və s. sahələri əhatə edir. Məlum olduğu kimi bu sahələr hər biri sığorta fəaliyyətinin mühüm fəaliyyət subyektləri kimi diqqət çəkirlər və praktikada realaşdırılan sığorta xidmətlərinin əksəriyyəti məhz bu sahələrə aiddirlər. Ölkənin iqtisadi təhlükəsizlik indikatorları içərisində sosial sahələrin və yuxarıda qeyd olunan fəaliyyət istiqamətlərinin təhlükəsizliyinin təmin edilməsi strateji xarakter daşıyır [7]. Bu amillər baxımından dövlət və cəmiyyət sığorta mexanizmlərinə və alətlərinə ciddi önəm verməklə, cəmiyyətin və dövlətin əsasını təşkil edən sosial-iqtisadi sistemi, ilk növbədə, öz vətəndaşlarını - insanları müxtəlif risklərdən və zərərlərdən qorumaqla, cəmiyyətdə və iqtisadi proseslərdə fasiləsiz inkişafı təmin edirlər. Bundan əlavə, həyat sığortasının müxtəlif növlərinin, o cümlədən, tibbi sığorta vasitəsilə insanların sağlamlığı qorunur, uzunömürlülük təmin edilir və əhali ilə dövlət arasında qarşılıq etimad mühiti formalaşdırılır [8].

Sığorta fəaliyyətinin çoxfunksiyalılıq xüsusiyyətləri və xidmətlərinin strukturunun genişliyi, bu xidmətlərin multiplikativ təsirinin yüksək olması sosial-iqtisadi proseslərin səmərəli formada intensivləşməsinə, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, sosial-iqtisadi problemlərin həllində yeni mexanizmlərin işlənib hazırlanmasına, yeni iş yerlərinin yaradılmasına, əmək şəraiti ilə bağlı daha təsirli tədbirlərin görülməsinə, əmək mühafizəsinin gücləndirilməsinə, bədbəxt hadisələrdən ortaya çıxan zərərlərin azaldılmasına əlverişli şərait yaradılır və potensial formalaşdırılır. Belə ki, sığorta fəaliyyəti və sığorta mexanizmləri təkcə sosial-iqtisadi proseslərdəki təhlükələrdən təminatçı rolunda çıxış etmir, eyni zamanda ümumi yanaşdıqda sığorta xidmətləri əhalinin həyat səviyyəsi və yaşayış indikatorları üzrə çoxlu sayda rast gəlinən risklərdə qorunmaqda əhəmiyyətli rol oynayır və bunlarla bağlı itkilərin bölüşdürülməsini təmin edir [9]. Bazar iqtisadiyyatı şəraitində sığorta fəaliyyətinin sosial aspektlərinə, onun sosial məzmununa, yığım və bölüşdürücü, investisiya funksiyalarına, multiplikativ təsir xüsusiyyətlərinə daha ciddi önəm vacibdir. Belə ki, bu amillər baxımından sığorta fəaliyyəti üzrə məqsədli investisiyaların yatırılması problemlərinə də xüsusi diqqət verilməlidir. Həyat sığortalarından əldə olunan vəsaitlərdən maksimum səmərəli istifadə olunması, toplanmış maliyyə resurslarından istifadənin genişləndirilməsi hesabına sığorta şirkətlərinin maliyyə sabitliyinə müsbət təsirin göstərilməsi sığorta şirkətlərinin manevr imkanlarını genişləndirməyə, onların sosial-iqtisadi fəaliyyət proseslərində daha fəal iştirak etməyə, ölkənin sosial-iqtisadi inkişafında, əhalinin yaşayış səviyyəsinin yüksəlməsində, digər makroiqtisadi problemlərin həll edilməsində sığortanın səmərəli rolunun təmin etməyə imkan verər [10; 11]. Sığorta xidmətlərinin səviyyəsinin sığorta bazarındakı tələblərə uyğun şəkildə genişləndirilməsi, təkrar sığorta fəaliyyətinin səmərəli təşkili, sığorta şirkətinin kapitallaşmasında öz vəsaitlərinin artması strategiyasına əməl olunması son nəticədə sığorta şirkətinin dayanıqlılığını daha da yüksəldə bilər və sığortalılar qarşısında olan öhdəliklərinin vaxtında və tələb olunan həcmdə ödənilməsində problemlər yaranmaz, həm də şirkətin gəlirlilik və rentabellik proqnozları səviyyəsində fəaliyyət göstərmək potensialı yaranar. Eyni zamanda, sosial-iqtisadi prioritetlərin reallaşdırılmasında sığorta bazarı mühüm funksiyalara malikdir [12]. Sığorta fəaliyyəti sosial-iqtisadi inkişaf proseslərinin tənizmlənməsində önəmli rol oynayır və bununla bağlı çox mühüm funksiyaları yerinə yetirir. Belə ki, sığorta fəaliyyətinin təşkili hesabına sosial-iqtisadi proseslərdə ortaya çıxa biləcək idarəetmə və əməliyyat risklərindən maksimum dərəcə sığortalanma, həmin əməliyyatların cəlbediciliyini və davamlı şəkildə həcminin artırılmasını təmin edilməklə bərabər, bu proses iştirakçılarının maraqlarının qorunması da reallaşdırılır [13; 14; 15; 16]. Digər tərəfdən, sığortanın, onun fəaliyyəti ilə bağlı proseslərin mahiyyətinin dövlət tərəfindən ciddi şəkildə qiymətləndirilməsi,

tənzimlənməsi, müvafiq qanunvericilik bazasının yaradılması vacib məsələlərdəndir. Sığorta fəaliyyəti üzrə inkişaf proseslərinə müdaxilə edilərkən, onun sosial-iqtisadi məzmununun dəyərlərinin obyektiv qiymətləndirilməsinə və sosial-iqtisadi qanunauyğunluqlarına önəm verilməlidir [17].

Sığorta fəaliyyətinin sosial-iqtisadi təyinatlı funksiyalarının səmərəliliyinin yüksəldilməsində onun əsas mexanizmlərinin daha məhsuldar istiqamətlərdə təkmilləşdirilməsinə strateji yanaşma təmin olunmalıdır. Bu halda fəaliyyət mexanizmlərinin və alətlərinin müəyyənləşdirilməsində sosial-iqtisadi inkişaf xüsusiyyətlərini əsas götürmək daha məqsədəuyğun hesab oluna bilər [18].

Qeyd edək ki, sığorta sosial-iqtisadi inkişaf proseslərində xəbərdaredici xüsusiyyəti hesabına, bu proseslərdə yarana biləcək risklərin, gözlənilən təhlükələrin, xoşagəlməz halların yaxınlaşmasını və fəsadları barədə xəbərdalıq edir, bununla da insanları və hüquqi şəxsləri gözlənilən zərərlərdən əsasən sığortalayır. Sığorta fəaliyyəti sosial sahədə cəmləşən subyektlərinin və milli iqtisadiyyatda yer alan müxtəlif sosial-iqtisadi fəaliyyət sahələrinin üzləşdikləri risklərin mənfi nəticələrinin və təsirinin aşağı salınması üçün əlavə tədbirlərin vacibliyini önə çıxaran faydalı fəaliyyət sahəsi kimi qiymətləndirilməlidir [19]. Bu problemlər üzrə, dünya təcrübəsindən yanaşsaq, sığorta fəaliyyəti özünün çoxfunksiyalı və multiplikativ təsir dairəsi hesabına sosial-iqtisadi inkişaf proseslərinin, həmçinin cəmiyyətin, insanların həyati proseslərinin daha çox dayanıqlı olmasına və təhlükəsizliyinə faydalı töhvələr verir. Həmin proseslərdə sığorta fəaliyyəti riskləri və onun mənfi nəticələrini sosial-iqtisadi subyektlər və fiziki şəxslər arasında səmərəli şəkildə bölüşdürmək potensialına malikdir [20].

Qeyd olunan amillər baxımından, sığorta fəaliyyətinin qlobal təhlükələrin artdığı bir dövrdə maksimum dayanıqlı və möhkəm mexanizmlər əsasında inkişafının təmin edilməsi, tənizmlənməsi də vacib şərtlərdəndir. Dövlət sığorta fəaliyyətinin səmərəliliyinin, fəaliyyət mexanizmlərinin işləkliyinin təmin edilməsi üzrə öz siyasətini mövcud problemlər və qlobal sığorta fəaliyyəti çağırışlarına uyğun şəkildə qurmalı, problemlərin tənzimlənməsinə səy göstərməlidir [21]. Tədqiqatçı Z.R.Rəcəbovaya görə, bunun üçün sığorta fəaliyyətinin sosial-iqtisadi və təşkilati əsaslarının təkmilləşdirilməsi və sığorta təşkilatlarının fəaliyyəti ilə bağlı məsələlərin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir [22].

Qlobal sosial-iqtisadi çağırışlar və sığorta səmtləri əsas götürülməklə, sığorta fəaliyyətinin, ümumilikdə sığorta bazarının mobilliyinin, səmərəliliyinin təmin edilməsi problemlərinə daha çox diqqətin yönəldilməsini vacib hesab edirik. Sosial-iqtisadi sığorta xidmətlərinin çeşidi və keyfiyyətinin geniş olması, etibarlılığı cəmiyyətin və iqtisadiyyatın daha geniş fəaliyyətini və iri layihələrə cəsarətlə qoşulmalarını, riskli layihələrdə tərəflərin maraqlarının qorunmasını, bir sözlə, cəmiyyətin və iqtisadi fəaliyyətin güvənliliyini artırır. Amma, bunlarla belə, sığorta bazarının müasir inkişaf aspektləri və mövcud mexanizmləri köklü islahatların aparılmasını və təkmilləşdirmələrin intensivləşdirilməsini tələb edir. Sosial-iqtisadi inkişaf üçün zəruri olan investisiya potensialının formalaşdırılması, investisiya-innovasiya fəaliyyətinin gücləndirilməsi, ilk növbədə, sığorta alətlərinin və mexanizmlərinin maksimum səmərəli olmasını şərtləndirir. Bu baxımdan, son illərdə müşahidə olunan ən önəmli tendensiyalardan biri sığorta kompaniyalarının təmərküzləşməsi prosesləri və kapitalın iri sığorta kompaniyalarının sərəncamına doğru axması proseslərinin sürətlənməsidir. Belə ki, sığorta kapitalı əsasən transmilli sığorta kompaniyalarında təmərküzləşməkdə davam edir. Təəssüf ki, bununla belə dünyada sosial-iqtisadi təyinatlı sığorta ödənişlərinin həcminin azalması tendensiyasını da qeyd etmək lazım gəlir. Məsələn, dünyanın ən iri kapital və sığorta bazarlarından olan Avropa bazarında son illərdə sığorta ödənişlərinin həcmi məcmu sığorta kapitalının 38-40 % səviyyəsində olmuşdur. Bu göstərici Şimali Amerika və Asiyanın sığorta bazarlarında 30-31 % səviyyəsində təşkil etmişdir [23]. Bunlarla yanaşı, sığorta bazarlarında kütləvi şəkildə sığorta kompaniyalarının və cəmiyyətlərinin birləşməsi prosesləri, daha doğrusu bir-birini "udması" prosesləri də sürətlənməkdədir. Nəticədə, müxtəlif sığorta kompaniyaları bank və maliyyə kapitalına malik digər maliyyə qurumları ilə birləşərək transmilli maliyyə qruplarına çevrilməkdədirlər [24].

Şəkil 1-də sığorta fəaliyyətinin sosial-iqtisadi əhəmiyyətini şərtləndirən amillərin blok-sxemini vermişik.

**Şəkil 1. Sığorta fəaliyyətinin sosial-iqtisadi əhəmiyyətini şərtləndirən amillərin blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**




Şəkil 1-də verilmiş sığorta fəaliyyətinin sosial-iqtisadi əhəmiyyətini şərtləndirən amillərdən baxsaq, qeyd etmək mümkündür ki, sığorta fəaliyyəti və ümumilikdə, sığorta sistemi ölkənin sosial təhlükəsizliyinin strateji tərkib komponenti kimi çıxış edir.

Qeyd edək ki, Azərbaycanda sığorta sisteminin və sığorta fəaliyyətinin sosial-iqtisadi proseslərdə rolunun yüksəldilməsinə ciddi zərurət vardır. Prezident İlham Əliyev "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar keçirdiyi müşavirədə Azərbaycanda sığorta sahəsindəki problemlərə toxunarkən, bildirmişdir: "Adətən inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə burada bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda

biz bunu görürük" [25]. Bu baxımdan, sığorta fəaliyyətinin müasir tələblər səviyyəsinə qaldırılması vacib şərtlərdəndir.

Beləliklə, səmərəli və çevik, həmçinin əlçatan sığorta xidmətləri cəmiyyətdə sosial tarazlığın formalaşmasına və möhkəmlənməsinə ciddi töhvələr verə bilər. Bundan əlavə, fikrimizcə, qlobal çağırışlar kontekstində sığorta fəaliyyəti aparılan sosial-iqtisadi məzmunlu dövlət siyasətinin və onun reallaşdırılması ilə bağlı tədbirlərin səmərəliliyinin yüksəldilməsinə əlavə stimullar vermək potensialına malikdir. Bu amillər baxımından, yaxın perspektivdə ölkəmizdə sığorta sosial institut kimi əhalinin sosial rifahının yaxşılaşdırmasında, insanların əmək proseslərində və həyatlarındakı qarşılaşa biləcəkləri risklərdən, təhlükələrdən qorunmasında strateji təminatçısı funksiyasını yerinə yetirmək potensialına malik fəaliyyət sahələrində biri kimi xüsusi diqqət mərkəzində saxlanılmalıdır və s.

**ƏDƏBİYYAT:**


*1. Колесников Ю. А. Социально-экономическое значение страхования // Социология власти. 2006. №2. - https://cyberleninka.ru/article/n/sotsialno-ekonomicheskoe-znachenie-strahovaniya.*

*2. Алексеева О.В. Страхование как механизм обеспечения социальной безопасности и экономических интересов россиян. Дисс. канд. соц. наук., Новочеркасск, 2007, 178 с.*

*3. Социально-экономические аспекты страхования ответственности при осуществлении профессиональной деятельности - http://librisum.com/halfin/mensh03.htm.*

*4. Общественно-экономические условия развития страхования - https://pravo.studio/kreditovanie/obschestvenno-ekonomicheskie-usloviya-46242.html.*

*5. Соколова Е.Н. Значение и место страхования жизни в реализации социально-экономической политики государства // Вестник РЭА им. Г.В. Плеханова. 2006. №3, С.63-71.*

*6. Социально-экономическая сущность страхования и его значение - https://socstrah24.ru/ekon-i-soc-neobh/.*

*7. Тугарин С.С. Социально-экономические аспекты рынка страховых услуг в системе экономической безопасности России. Дисс. канд. экон. наук. Москва, 2007, 196 с.*

*8. Роль личного страхования в организации социальной защиты - https://hr-portal.ru/article/rol-lichnogo-strahovaniya-v-organizacii-socialnoy-zashchity.*

*9. Кабирова Алина Салаватовна Влияние социально-экономического развития региона на страховой рынок // СИСП. 2013. №6 (26), С.46-54.*

*10. Тихомиров А.П. Социокультурные основания управления страховой деятельностью в современной России. Дисс.канд.соц. наук. Москва, 2006, 174 с.*

*11. Косарев Ю.А. Система социального страхования // Социальный мир. — 2001.-№ 11.-С. 8-11.*

*12. Социально-экономическое содержание страхового рынка - https://finlit.online/strahovoe-delo-finansi/sotsialno-ekonomicheskoe-soderjanie-strahovogo-18631.html*

*13. Анализ тенденций развития мирового рынка страхования. http://na5bal.narod.ru.*

*14. Тенденции и перспективы развития мирового страхового хозяйства. http://helpiks.org.*

*15. Глобализация мирового страхового рынка: причины, формы и тенденции. http://lib.sale.*

*16. Основные тенденции развития мирового страхового рынка. https://textbook.news.*

*17. Briggs S. Daunting Obstacles Confront Insurers in China II Best's Review/Life-Health Insurance Edition.- 1996.- Vol. 97.- № 5.- P. 50-59.*

*18. Hamilton, J. The Duty of Disclosure in Insurance Law The Effectiveness of Self-Regulation// Australian Business Law Review.- 1995.- Vol. 23.- № 5.- P.359-367*

*19. Фогельсон Ю. Б. Введение в страховое право / Ю.Б. Фогельсон. -М.: Издательство БЕК, 2004. 312 с.*

*20. Турбина К.Е. Тенденции развития мирового рынка страхования / К.Е. Турбина. — М.: Анкил, 2000. - 320 с.*

*21. Юргенс И. О проблеме регулирования страхования в России // Страховое дело. 2000. - № 9. - С. 24-28.*

*22. Раджабова З.Р. Организационно-экономические основы повышения эффективности управления в современных условиях. Дисс. канд. экон. наук. Махачкала, 2009, 148 с.*

*23. Романова А.А., Улыбина Л.К. Состояние и перспективы развития мирового страхового рынка. http://eee-region.ru.*

*24. Юлдашев, Р.Т. Организационно - экономические основы страхового бизнеса / Р.Т. Юлдашев // М.: АНКИЛ. 2002. - 247 с.*

*25. İlham Əliyev: "Azərbaycanda sığorta sahəsində boşluqlar var". 28 Mart 2019. - https://www.bbc.com/azeri/international-47716400.*



**Açar sözlər:** *sığorta fəaliyyəti, sığorta şirkətləri, qlobal sığorta çağırışları, sığortanın sosial-iqtisadi əhəmiyyəti, sığorta fəaliyyətinin təkmilləşdirilməsi, sığortanın inkişaf perspektivləri.*

**Ключевые слова:** *страховая деятельность, страховые компании, глобальные страховые вызовы, социально-экономическая значимость страхования, совершенствование страховой деятельности, перспективы развития страхования.*

**Key words:** *insurance activity, insurance companies, global insurance challenges, social and economic importance of insurance, improvement of insurance activity, prospect of development of insurance.*



**РЕЗЮМЕ**

**СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ СТРАХОВОЙ ДЕЯТЕЛЬНОСТИ В КОНТЕКСТЕ ГЛОБАЛЬНЫХ ВЫЗОВОВ**

В статье исследованы социально-экономические аспекты страховой деятельности в контексте глобальных вызовов. С этой целью анализирована сущность и значимость социально-экономических аспектов страховой деятельности. Рассмотрена важность расширения страховой деятельности социально-экономических процессов по укреплению социальной безопасности граждан и субъектов экономической деятельности. Дана блок-схема основных факторов, обуславливающих социально-экономическую значимость страховой деятельности. Обобщена и обоснована необходимость повышения роли страховой деятельности в Азербайджане в ближайшей перспективе в контексте глобальных страховых вызовов.



**SUMMARY**

**SOCIAL AND ECONOMIC ASPECTS OF INSURANCE ACTIVITY IN THE CONTEXT OF GLOBAL CHALLENGES**

Social and economic aspects of insurance activity in the context of global challenges are investigated in the article. The essence and the importance of social and economic aspects of insurance activity is analyzed for this purpose. Importance of expansion of insurance activities of social and economic processes for strengthening of social safety of citizens and subjects of economic activity is considered too. The flowchart of the major factors causing the social and economic importance of insurance activity is given. Need of increase in a role of insurance activity in Azerbaijan in the short term in the context of global insurance challenges is generalized in the end of the article.

# Mədəniyyət

## MƏDƏNİYYƏTLƏRARASI DİALOQ VƏ AZƏRBAYCANÇILIQ

CEYHUN ƏHMƏDOV
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin Gənc mədəniyyət işçiləri ilə iş sektorunun müdiri



**Giriş**

Müasir dövrdə mədəniyyətlər sürətlə dəyişir və daha da şaxələnir. Bu dəyişiklik və şaxələnmə prosesinin cəmiyyətlər üzərində böyük təsirləri olur. Mədəni müxtəliflik cəmiyyətin ən önəmli elementidir, çünki tarix boyu mədəni müxtəlifliklərin yaranmasına bir sıra amillər səbəb olub. Sərhədlərarası köç, qloballaşmanın mədəniyyətlər üzərindəki təsirləri, milli azlıqların məskunlaşdığı ərazilərdə mədəni kimlik iddiaları, regionlararası artan asılılıq və informasiya-kommunikasiyanın daha da təkmilləşərək beynəxalq miqyaslı sürətlə yayılması bu səbəblərdən sadəcə bir neçəsidir. Dünyanın bütün regionlarında demək olar ki, multikultural cəmiyyətlər formalaşıb və hər bir toplum öz hüquqlarını və mövcudluğunu qorumaq üçün mədəniyyətlərarası dialoqda iştirak edir.

Mədəni müxtəliflik həm də düzgün idarə olunma tələb edən siyasi, iqtisadi və sosial amildir. Çünki günümüzdə mövcud olan mədəni müxtəliflik özü ilə birgə siyasi, iqtisadi və sosial problemlərə də səbəb olur. Mədəni fərqliliklər zaman-zaman qorxu və toqquşmalara səbəb olur. Stereotiplərin mövcudluğu, rasizm, ksenefobiya, diskriminasiya və şiddət sülhə ən böyük təhdidlərdir və yerli-qlobal cəmiyyətlərin sülh dəyərlərini tamamilə alt-üst edə bilmək potensialına sahibdir. Bu amillər məqsədindən asılı olmayaraq mədəniyyətlərarası toqquşlamalara səbəb ola bilər.

**Mədəniyyətlərarası toqquşmalar: Problemlər və onların həlli yolları**

Mədəniyyətlərarası toqquşmalar hipotezisi ən geniş şəkildə Samuel Hantinqton tərəfindən səsləndirilmişdir. S.Hantinqtona görə mədəni və dini kimliklər "Soyuq Müharibə"dən sonrakı dövrdə ən böyük münaqişə səbəbi olacaq. Gələcəkdə baş verən müharibələrin ölkələr arasında deyil də, mədəniyyətlər və dini inanclar zəminində baş verməsi qaçınılmaz olacaqdır. Müəllif öz əsərində qeyd edirdi ki, islami ekstremizm beynəlxalq sülhə ən böyük təhdid olacaq, lakin son dövrlərə nəzər yetirsək görərik ki, ortodoks-katolik münaqişələri də sülhün təminatına ən böyük hədə halına gəlib. Bu konsepsiyanın kökündə yatan fikirlərdən biri də budur ki, insan hüquqları, liberal demokratiya və azad kapitalist bazarlar Soyuq Müharibə dövründən sonra yüksələn ən güclü ideologiyalardan biri oldu. Bu konsepsiyanı əsaslandıran görkəmli şəxsiyyətlərdən biri də Françis Fukuyama idi.

Hantinqton düşünürdü ki, artıq Soyuq Müharibə dövründə mövcud olan və siyasi təsiri böyük olan ideologiyalar öz mövcudluğunu qorumur, onların yerini mədəni ideologiyalar və bu ideologiyalar ətrafında yaranan münaqişələr tutur. S.Hantinqtonun "fərqli sivilizasiyalar" konseptində ən böyük təsir gücünə malik olan "mədəni kimlik" məfhumu potensial siyasi toqquşmaları analiz etmək üçün ən böyük ünsürdür.

Sivilizasiyaların toqquşması əsərində qeyd olunur ki, keçmişdə baş verən toqquşma və münaqişələrin təməlində monarxların, millətlərin və ideologiyaların Qərb sivilizasiyası çərçivəsində mübarizəsi dururdu. Amma Soyuq Müharibədən sonra dünya siyasəti yeni mərhələyə qədəm qoydu və artıq qeyri-Qərb aktorları da müasir sivilizasiya və tarixin formalaşmasında əhəmiyyətli rol oynamağa başladı.

Müasir dövrdə mədəniyyətlərarası ziddiyyətlər böyük toqquşmalara səbəb olsa da, bu münaqişələrin qarşısının alınması üçün mədəniyyətlərarası dialoq məvhumu daha da aktual xarakter daşıyır. Demokratik dəyərlərin ən qədim və təməl proseslərindən biri olan mədəniyyətlərarası dialoq diskriminasiya, təcrid olunma və şiddətə qarşı ən effektiv çarədir. Onun ali məqsədi çoxmədəniyyətli dünyada sülhü təmin etmək və insanların təhlükəsiz yaşaya biləcəyi cəmiyyətlər inşa etməkdir. Bəs mədəniyyətlərarası dialoq termin anlamında nədir?

Mədəniyyətlərarası dialoq tərəflərin qlobal dünyagörüşünü dərindən başa düşməyə imkan verən fərqli mədəniyyət və sivilizasiyalara mənsub fərdlər və qruplar arasındakı fikir mübadilələrinin açıq və qarşılıqlı hörmət çərçivəsində baş tutmasıdır.

Burada qeyd olunan fərd və qruplar cəmiyyətdəki ailələri, təşkilatları, assosiativ qruplaşmaları və s. nəzərdə tutur. Göstərilənlərin açıq və hörmət çərçivəsindəki fikir mübadilələri onların bərabərhüquqlu dəyərlərinə söykənir. Ümumilikdə mədəniyyət məfhumu isə yaşam, adət-ənənələr, dəyərlər, inanclar və bu kimi nəsildən-nəsilə ötürülən amillərlə yanaşı xalqların dünyagörüşünə görə dəyişən müxtəlif yaradıcılıq formaları ilə bağlı olan hər şeyi özündə ehtiva edir.

Ümumi mənada, mədəniyyətlərarası dialoqun məqsədi




çoxmədəniyyətli bir dünyada dinc və konstruktiv şəkildə yaşamağı öyrənmək, cəmiyyət və mənsubiyyət hisslərini inkişaf etdirməkdir. Mədəniyyətlərarası dialoq həmçinin insan hüquqları, demokratiya və qanunun aliliyinə hörmətin artırılması yolu ilə münaqişələrin qarşısının alınması və həlli üçün vasitə ola bilər. Bu baxımdan mədəniyyətlərarası dialoq çərçivəsində bəzi məqsədlər müəyyən edilmişdir:

• Dünyagörüşlərini paylaşmaq və eyni fikirlərə sahib olmayan insanların fikrinə hörmətlə yanaşaraq onları dərk etmək;

• Müxtəlif mədəni ənənələr və anlayışlar arasında oxşarlıqları və fərqləri müəyyən etmək;

• Mübahisələrin şiddətlə həll edilməməsi barədə razılığa gəlmək;

• Mədəni müxtəlifliyin demokratik şəkildə idarə edilməsində yaxından iştirak və mövcud sosial - siyasi tənzimləmələrin bütün növlərinə lazımi düzəlişlər etmək;

• Müxtəlifliyi təhdid olaraq görən və müxtəlifliyin zənginlik olduğunu düşünən fərdlər və ya qruplar arasında körpü qurmaq və s.

Münaqişələrin qarşısının alınmasında və sonlandırılmasında mədəniyyətlərarası dialoqun çox önəmli rolu var. Dialoqlar münaqişələr zamanı və ya münaqişələrin yaranmasına zəmin olduqda münasibətləri yumşaltmağa və gərginliyin azaldılaraq tərəflərarası uzlaşmalara gətirib çıxarır. Həmçinin hazırda yüksələn önyarğı, nifrət, ekstremizm, milli kimliklərarası münaqişələr sivil toplumun ən böyük hədələrindən biridir. Mədəniyyətlərarası dialoq bu kimi təhdidlərin ortadan qaldırılması üçün siyasi liderlər tərəfindən xüsusilə vurğulanan ən önəmli çağırışlardandır. Qlobal səviyyədə mədəniyyətlərarası dialoq ziddiyyət və ikili standartlar məntiqindən uzaq olmalı, hegemoniya, zülm və ədalətsizliyin önünə keçməlidir. Mədəniyyətlərarası dialoq fikir azadlıqlarını və tənqidlərə qarşı tolerant olmağı da özündə ehtiva edir.

Mədəniyyətlərarası dialoq məsələsində üzərində işlənilən və həll yolları axtarılan ortaq problemlərə baxdıqda görünür ki, bu dialoqu təmin etməyə çalışan aktorlar qəlibləşmiş düşüncələr, önyarğılar, etnik diskriminasiya və mədəni fanatizmə qarşı fərqli baxış bucağı yaratmağa çalışırlar. Mədəniyyətlərarası dialoqun əsas məqsədi digər mədəniyyətləri tanımaq, anlamaq və müxtəlif mədəniyyətlərin üzvləri ilə həqiqi dialoqa daxil olmaqdır. Mədəniyyətlərarası dialoq ümumi anlaşma, bir yerdə sülh şəraitində yaşamaq, demokratik cəmiyyət qurmaq və insan hüquqlarının təminatına əsaslanan bərabər və liberal dünya dizaynını inkişaf etdirmək üçün mühüm nəzəri əsasdır. Həmçinin o, müxtəlif mədəniyyətləri təmsil edən fərdlər arasındakı münasibətlər də eyni mədəniyyətə mənsub olan insanlar arasında olduğu kimi insanların bir birinə qarşı fikirlərini, hisslərini, biliklərini və s. mübadilə etdiyi bir prosesdir. Bununla yanaşı dialoq prosesində iştirak edən insanların fərqli mədəniyyətlərə mənsub olmaları, eyni dəyər və davranış qaydalarını sərgiləməmələri dialoq prosesini daha çətin və qarışıq hala sala bilər. Ancaq bu prosesdə iştirak edən insanların fərqli mədəniyyətləri təmsil etdiklərinə görə üzləşdikləri problemlərin hamısını dialoq problemi olaraq qiymətləndirmək də mümkün deyil. Ortaya çıxan anlaşmazlıqlar sadəcə mədəni fərqliliklərdən törədiyi təqdirdə mədəniyyətlərarası dialoq problemi aktuallaşa bilər.

Bütün bunları ümumiləşdirərək aşağıdakı nəticələr alına bilər:

• Mədəniyyətlərarası dialoq digər mədəniyyətlərin dəyərlərini dərindən anlamaq, bu çərçivədən başlayaraq fərdlər və qruplar arasında uzlaşmağa nail olmaqdır;

• Mədəniyyətlərarası dialoq özündə dominant və qəlibləşmiş önyarğılara, nifrətə, rasizmə və diskriminasiyaya qarşı ən effektiv, çevik və dinamik etiraz fəlsəfəsini daşıyır;

• Mədəniyyətlərarası dialoq doktrinası ayrı-seçkiliyə qarşı çıxaraq bərabərlik baxış bucağı altında müdafiə edilir və bu nöqteyi-nəzərdən fərqli dini baxışları, inancları, etnik köklü problemləri və onların səbəb olduğu münaqişələrin qarşısının alınmasında müstəsna rol oynayır;

• Mədəniyyətlərarası dialoq lokal düşüncə tərzindən uzaqlaşaraq universal düşünməyə sövq edən və ünsiyyətin əhəmiyyətini önə çıxaran mədəni şüurun əldə edilməsində iştirak edən məfhum kimi də təsnif edilə bilər.

**Mədəniyyətlərarası dialoq çərçivəsində Azərbaycan və Azərbaycançılıq ideologiyası**

Azərbaycan tarix boyu Şərqlə Qərbin kəsişməsində, Böyük İpək Yolunun üzərində yerləşmiş və çoxsaylı xalqların birgə və mehriban yaşadığı məkan olmuşdur. Azərbaycanda milli zəmində hər hansı ciddi problem yaşanmaması onu daim digər dövlətlərdən fərqləndirmişdir. Azərbaycanda hansısa xalqın nümayəndəsinə qarşı ayrı-seçkiliyə yol verilmir və onların dini inancları, siyasi və mədəni hüquqları yüksək səviyyədə qorunur. Azərbaycanın göstərdiyi bu diqqətə görə nüfuzlu beynəlxalq qurumlar Azərbaycanı tolerantlığa nümunə adlandırırlar. Ölkəmizdə 90-a yaxın milli və etnik azlıq nümayəndəsi yaşayır. Onların mədəni siyasətdə iştirakı üçün 380-dan çox müxtəlif dini icma fəaliyyət göstərir ki, onlarında 31-i qeyri-islami dini icmalardır. Azərbaycanda bütün millətlərdən olan nümayəndələr üçün müxtəlif dinlərin ibadətlərinin icrasına üçün

məkanlar vardır və onlar sərbəst fəaliyyət göstərirlər. Ayrı-ayrı dinlərə və xalqlara məxsus tarixi abidələr, mədəniyyətlər qorunub saxlanılır. Hətta bu gün Azərbaycanda torpaqlarımızın 20 faizini işğal altında saxlayan, bir milyondan artıq insanımızın öz doğma yurd-yuvasından didərgin düşməsinə bais olan, düşmənçilik aparan bir xalqın – ermənilərin 30 minə yaxın nümayəndəsi yaşayır və onlara qarşı heç bir ayrı-seçkilik edilmir. Bakıdakı erməni kilsəsi və onun kitabxanası olduğu kimi saxlanılır. Halbuki ermənilər Ermənistanda və işğal etdikləri digər ərazilərdə Azərbaycana, xalqımıza məxsus bütün tarixi və mədəni sərvətləri talan edib, ibadət yerlərini, məscidləri dağıdıblar. Milli azlıqların, etnik qrupların hüquqlarının qorunması üçün ölkəmizdə hüquqi baza yaradılıb, respublikamız insan haqları və milli azlıqların müdafiəsi ilə bağlı 50-dən çox beynəlxalq konvensiyaya qoşulub. Milli azlıqların məsələləri ilə məşğul olan qeyri-hökumət təşkilatları, mədəniyyət mərkəzləri, xeyriyyə cəmiyyətləri, ictimai birliklər fəaliyyət göstərir. Bundan başqa etnik icmaların dilində bir sıra qəzet və jurnallar nəşr olunur, teleradio kanalları fəaliyyət göstərir.

Son illərdə mədəniyyətlərarası dialoqun təşviqi və inkişafında Azərbaycan əhəmiyyətli rol oynayır. Bu çərçivədə müxtəlif konfranslar təşkil olunmuş, onlarla məqalə və elmi iş yazılaraq mədəniyyətlərarası dialoqa töhfələr verilmişdir. Bu ənənənin əsası 2011-ci il mayın 27-də Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili barədə” fərmanla qoyuldu. Həmin ildə bu fərmanla Azərbaycanda 102 dövlətin və 10-dan artıq beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. 1-ci forumun əsas məqsədi mədəniyyətlərarası dialoqun müxtəliflik və plüralizmlə səciyyələnən müasir cəmiyyətlərdə ayrı-ayrı aspektlərinin nəzərdən keçirilməsi və yerli, regional və qlobal səviyyələrdə gücləndirilməsinə təşviq edilməsi idi. Həmçinin, bu sənəd forumun 2011-ci ildən başlayaraq hər iki ildən bir keçirilməsini və müxtəlif mədəniyyətləri təmsil edən xalqlar arasında dialoq və etimadın möhkəmləndirilməsini əsas məqsəd kimi özündə ehtiva edirdi.

Bu gün millətlərin birgəyaşayış fəlsəfəsi müasir proseslərdə önəmli rol oynayır. Bu proseslər isə müxtəlif yerlərdə həm qloballaşma, həm də inteqrasiya olaraq təsnif edilir, lakin adlandırılmadan asılı olmayaraq bu qaçınılmaz prosesdir və dünyanın gələcəyi artıq mədəniyyətlərarası münasibətlərdən asılıdır. Xalqlar bir-birinin varlığını qəbul etməli, bir-birinə hörmətlə yanaşmalı və müasir dünyanın birgəyaşayış prinsiplərinin məsuliyyətini anlamalıdırlar. Bu baxımdan Azərbaycan bu proseslərin təşkilində və təşviqində əhəmiyyətli rol oynayır. Hətta Azərbaycan həm Avropa Şurasına, həm də İSESCO-ya üzv olan yeganə dövlətdir ki, bu da onu Qərb və Şərq dövlətləri arasındakı mədəni münasibətlərin inkişafında körpü rolu oynamasına gətirib çıxarır.

Azərbaycanın fərqli mədəniyyətlərin bir araya gəldiyi unikal ölkə olmasının bir sıra səbəbləri vardır. Azərbaycanda bir çox etnik azlıq yaşasa da, onlar arasında mədəniyyət və təfəkkür savaşı olmamışdır. Çünki, bu millətlər tarixən bir neçə dəfə eyni siyasi iradə nümayiş etdirərək birgə dövlət yaratmışdırlar. Ərazimizdə yaşayan millətlərin birgə yaratdığı bu dövlətlər müxtəlif dillərdə danışan, fərqli dini və milli adətlərə sahib olan insanları bir dövlətin təəbəsi, cümhuriyyət dövründən isə vətəndaşı olaraq birləşdirmişdir. Millətlərarası münaqişələrin olmamasının bir digər səbəbi isə İslam dinidir. Ərazilərimizdə mövcud olan bir çox dövlətin dini inanc fəlsəfəsində İslam dini dayanırdı və İslam dini ümumbəşəri xarakteri, humanizmi və sülhə çağırışı ilə milli həmrəyliyin yaranmasında əvəzsiz rol oynamışdır. Bununla yanaşı fərqli dini inanclara sahib olan insanlara qarşı hörmətli olmağı aşılayan İslam dini belə münaqişələrin də qarşısını almışdır.

Azərbaycanda mədəniyyətlərarası dialoqun təməlində dayanan təməl amillərdən biri də insanların mədəni səviyyəsinin və ümumi dünyagörüşünün yüksək olmasıdır. Çünki ölkədə yaşayan türk, talış, kürd, ləzgi, avar, udin, saxur, tat, ingiloy, malokan, rus, ukraynalı və digər etnosların nümayəndələri məişət səviyyəsində bir-birilə qaynayıb qarışaraq ictimai-siyasi dünyagörüşcə ümumiləşmiş təfəkkürə yiyələnmişdir.

Azərbaycanda mədəniyyətlərarası dialoqun tam təşəkkül tapmasına səbəb olan ən əsas ideologiya Azərbaycançılıq ideologiyasıdır. Bu ideologiyanın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və günümüzdə uğurlu şəkildə təbliğ olunur. Azərbaycanda çoxmədəniyyətlilik mövcud olsa da, vahid mədəniyyətin formalaşması Azərbaycançılıq ideologiyası nəticəsində baş tutub.Bu ideologiyanın təməlini illərlə formalaşıb və təkmilləşən milli mənəvi dəyərlər təşkil edir.İdeologiya insanları eyni hədəf ətrafında toplayan, milli düşüncə yaradan amildir. İdeologiya dövlətin möhkəmlənməsi və inkişaf etməsi üçün çox önəmlidir. 90-cı illərdə Azərbaycanda yaşanan daxili siyasi böhran və ideologiyasızlıq mühiti Azərbaycanı vətəndaş müharibəsinə sürükləyirdi. Lakin Ulu Öndər Azərbaycançılıq ideologiyasını dövlətin ən ali ideologiyalarından birinə çevirərək insanların dinc yaşamasını təmin etdi.

Son illərdə Azərbaycan müxtəlif mədəniyyətlər və sivilizasiyaların qovuşduğu, millətlərarası dialoqa dair genişmiqyaslı tədbirlər keçirilməsi üçün ənənəvi məkana çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən prezident cənab İlham Əliyevin mədəniyyət sahəsində beynəlxalq təşəbbüslərə göstərdiyi dəstək nəticəsində ölkəmiz dünyanın mədəniyyət mərkəzinə çevrilib. Azərbaycanda mədəniyyətlərarası dialoqun möhkəmlənməsində müstəsna rol oynayan “Bakı Prosesi” cənab İlham Əliyevin 4 noyabr 2008-ci il tarixli Sərəncamına uyğun olaraq fəaliyyətə başladı və sivilizasiyalar arasında dialoqun inkişafına töhfə verən ən önəmli amil halına gəldi. Müxtəlif mədəniyyətlərin qovşağında yerləşən Azərbaycanın həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi mədəniyyətlərarası dialoq təşəbbüslərini regional səviyyədən qlobal səviyyəyə qədər yüksəltməyə imkan verdi. “Bakı Prosesi»nin ən önəmli konfranslarından biri də 2011-ci ildə təşkil olunan «Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu» idi. Bu forum Azərbaycançılıq ideologiyasının beynəlxalq səviyyədə təbliğ olunması və Azərbaycanın nüfuzunun qlobal səviyyədə yüksəldilməsi baxımından Azərbaycanın xarici siyasətinin uğurlu addımı idi və Azərbaycanda mövcud olan mədəniyyətlərin dünya mədəniyyətinə inteqrasiyasını daha da sürətləndirdi. “Bakı Prosesi” təşəbbüsü 2015-ci ildə keçirilən “Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu” ilə davam etdirildi və bir daha sübut olundu ki, Azərbaycan dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət və anlayışlı əməkdaşlığı təbliğ edən, mədəniyyətlərarası dialoqun daha da möhkəmlənməsinə çalışan, milli, irqi, dini və mədəni ziddiyyətlərin aradan qaldırılmasında mühüm rol oynayan, ekstremist düşüncə tərzinin geniş yayıldığı dövrdə mehriban birgəyaşama ənənələrinin beynəlxalq səviyyədə təşviq olunmasında mühüm rol oynayan ən önəmli aktorlardan biridir.

“Bakı Prosesi” həm də Azərbaycanda multikulturalizm siyasətinin formalaşmasında əvəzsiz rol oynadı. Azərbaycanda multikulturalizm anlayışının yüksək səviyyədə təbliği böyük effekt verərək multikulturalizmi dövlət siyasəti səviyyəsinə gətirdi. Cənab prezident İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin “Multikulturalizm ili” elan edilməsi ilə ölkəmizdə bütün mədəniyyətlərin inkişafı, həmin mədəniyyətlərə mənsub şəxslərin

BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

hüquqlarının qorunması, xalqlararası mədəni fikir alış-verişlərinin dinc və sülh çərçivəsində təmin olunması, etnik azlıqların dövlət çərçivəsində təmsil olunmasına heç bir əngəlin olmadığı sübut olundu. Bu sahədə keçirilən praktiki işlər və tədbirlərin Azərbaycanın multikulturalizm siyasətində böyük rolu vardır. Bundan başqa bu sahədə bir çox qurumlar da xüsusi fəalliyyətlə məşğul olmağa başladı. Bunlara multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin, eləcə də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, Bakı Slavyan Universitetinin multikulturalizm sahəsindəki fəaliyyətləri daxildir. Bu qurumların əsas məqsədi Azərbaycan ərazisində yaşan müxtəlif millətlərin qorunması onların hüquq və azadlıqlarının təmin olunması və milli azlıqlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə nəzarət etməkdir. Bundan başqa bu qurumlar öz daxili proqramları ilə Azərbaycançılıq ideologiyasının daha da möhkəmlənməsinə, onun digər millətlər tərəfindən də mənimsənilməsinə xidmət edir. Bu sahədə atılan addımlar isə Azərbaycanın multikulturalizm siyasətinin ən təməl prinsiplərinə əsaslanır.



**Nəticə**

İnsana hörmət hissinin formalaşması ədalət anlayışının inkişaf etdirilməsi ilə mümkündür. Hörmət hissinin formalaşması qarşılıqlı münasibətləri gücləndirir. Bu münasibətlərin güclənməsi üçün isə hər kəs universal mədəni hüquqları və mədəniyyətlərarası fərqlilikləri şüurlu şəkildə dərk etməsinə xidmət edən təhsil ilə dəstəklənməlidir. Xalqın mədəni şüurunun və ədalət duyğusunun inkişafı sülh şəraitində dinc yaşamağa kömək edən ən mühüm sosial qüvvədir. Millətlərarası qarşılıqlı münasibətlər bu millətlərin tarixini və mədəniyyətini daha da zənginləşdirir. Qloballaşan dünyada mədəniyyətlərarası münasibətlər xalqların özünüidarəsində, dövlətlərin xarici siyasətində və yaşana biləcək münaqişələrin qarşısının alınmasında müstəsna rol oynayır. Mədəniyyətlər bir birindən xəbərsiz mövcud olduqda, yaxud digər mədəniyyətlərə hörmət etmədikdə onların ortaq dəyərlərə sahib olması və birlikdə inkişaf etməsi mümkün olmur. Hətta tarixə də baxsaq görərik ki, inkişaf etmiş mədəniyyətlər sadəcə öz sərhədləri daxilində qalmamış, digər dünyəvi mədəniyyətlərə təmas etmişdir. Mədəniyyətlər mövcudluğunu qorumaq üçün inteqrasiyaya uyğunlaşmalıdırlar. Beləcə, inkişaf və dəyişim gücünü digər mədəniyyətlərlə birgə əldə edərək öz mövcudluqlarını da uzun müddət saxlaya bilərlər. Mədəniyyətlərarası dialoq da məhz bu məqsədə xidmət edən ən ali prosesdir. Mədəniyyətlərarası dialoq nümayəndələrin bir birinə qarşı önyarğılarının qırılmasından daha çox bir birinə qarşı fikirlərin müsbət dəyişməsinə çalışır. Çünki başqa mədəniyyəti dərindən dərk etmək üçün onun müsbət və mənfi cəhətlərini obyektiv şəkildə təhlil etmək gərəkdir. Buna görə də günümüzdə bu sahənin təbliğatı dövlət səviyyəsində aparılır və Azərbaycan da mədəniyyətlərarası dialoqa öz tövhəsini verən ən önəmli aktorlardan biridir. Azərbaycanın mədəniyyətlərarası münasibətlərdə qazandığı təcrübələr multikulturalizm, Azərbaycançılıq ideologiyasının təbliğində, xalqlar arasında dialoqun təşkilində dəyərlidir. Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olmuş və Qərblə Şərq arasında körpü rolunu oynamışdır. Ona görə də bu gün əminliklə demək olar ki, Azərbaycan müstəqil və iradəli şəkildə dünyadakı qlobal proseslərə qoşulur və sülhün, dinc yaşayışın təminatına ciddi dəstək verir və mədəniyyətlərarası sintezin formalaşmasında ciddi rol oynayır.

**ƏDƏBİYYAT:**


1. *Huntington, S. P. (1993). The Clash of Civilizations? Foreign Affairs, Vol. 72(No. 3), 22-49.*

2. *Goff, M., & Alumni, G. (2016, Avqust 9). The Importance of Cross-Cultural Dialogue. Retrieved from East-West: The Art of Dialogue: https://eastwestdialogue.org/importance-cross-cultural-dialogue/*

3. *The concept of intercultural dialogue. (n.d.). Retrieved from Council of Europe: https://www.coe.int/t/dg4/intercultural/concept_EN.asp*

4. *Sarı, E. (2009). 21.Yüzyılın Başında İnsan, Toplum Kültürlerarası Diyalog ve Eğitim. Türkiye'de Kültürlerarasılık Üzerine Çalışmak, Yayımlanmamış Kongre Bildirisi, Uluslararası Kültürel Diyalog ve Eğitim Kongresi. Uludağ Üniversitesi.*

5. *Intercultural Dialogue Crucial in Preventing, Resolving Conflicts, Secretary-General Tells Security Council Thematic Debate. (2010, May 26). Retrieved from United Nations: https://www.un.org/press/en/2010/sc9936.doc.htm*

6. *Heydər Əliyev: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər. (2018, İyul 19).*

7. *Nəcəfov, E. (2016). Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri. Strateji Təhlil.*

8. *Hall, E. T. (1973). The Silend Language. Anchor.*

9. *Jandt, F. E. (2001). Intercultural communication. Sage Publications.*

10. *KHAN, M. U. (2017, May 16). Strategic Importance of Intercultural Dialogue. Retrieved from ANKASAM: https://ankasam.org/en/strategic-importance-intercultural-dialogue/.*

11. *Soydaş, A. U. (2010). Kültürlerarası İletişim: Farklı Kültürel Ortamlarda Çalışma ve İletişim. İstanbul: Parşömen Yayınları.*


**İSTİNADLAR:**


1. *Huntington, S. P. - The Clash of Civilizations? Foreign Affairs, Vol. 72(No. 3), s. 22-49, 1993*

2. *Goff, M., & Alumni, G. The Importance of Cross-Cultural Dialogue. 2016-cı il.*

3. *Buradan bax: The concept of intercultural dialogue. Avropa Şurasının rəsmi saytı: https://www.coe.int/t/dg4/intercultural/concept_EN.asp*

4. *Sarı, E.21.Yüzyılın Başında İnsan, Toplum Kültürlerarası Diyalog ve Eğitim, 2009-cu il*

5. *Soydaş, A. U. Kültürlerarası İletişim: Farklı Kültürel Ortamlarda Çalışma ve İletişim, 2010-cu il.*

6. *Heydər Əliyev: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər.Dialoq.info, 2018-cu il*

7. *Nəcəfov, E.Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri. Strateji Təhlil, 2016-cı il.*

Beynəlxalq münasibətlər

# TÜRKİYƏ-FRANSA SİYASİ ƏLAQƏLƏRİNƏ ERMƏNİ AMİLİNİN TƏSİRİ

AYNUR DADAŞOVA
Bakı Slavyan Universiteti



TBMM

Siyasi təhlil göstərir ki, müasir dövrdə Qərb dövlətlərinin Cənubi Qafqaz və Türkiyə siyasətlərinə erməni amili mühüm təsir edir. Bunun bariz nümunəsi olaraq Türkiyə-Fransa siyasi əlaqələrini göstərə bilərik. Belə ki, erməni amili daim Türkiyə və Fransa arasındakı qarşılıqlı siyasi əlaqələrin inkişafına mane olmağa çalışmışdır. Qondarma "erməni soyqırımı" məsələsi iki ölkə arasında soyuq münasibətlərə və mübahisələrə rəvac verən problem olmuşdur.

Qeyd etmək lazımdır ki, Birinci Dünya müharibəsinin sonunda Cənubi Qafqazda klassik Qərbi Azərbaycan torpaqlarında Ermənistan Respublikasının yaranmasına baxmayaraq, "Böyük Ermənistan" yaratmaq xülyası boşa çıxdıqdan və Lozanna konfransında Türkiyəyə qarşı əsassız ərazi iddiaları rədd edildikdən [ətraflı məlumat üçün bax:17, s.360-369] sonra ermənilər siyasi xarakter daşıyan sui-qəsd yoluna, terror yoluna keçdilər. Buna paralel olaraq qondarma "erməni soyqırımı" ortaya atıldı.

Bu uydurmanın XX əsrin ən böyük yalanı olduğunu tarixi faktlar və beynəlxalq hüquqi sənədlər sübut edir. Belə ki, BMT-nin "soyqırım" cinayəti haqqında Konvensiyası erməni "soyqırımı" iddiasının hüquqi baxımından düzgün olmamasını göstərmişdir[18].

Buradan göründüyü kimi, kütləvi qırğınları o halda soyqırım saymaq olar ki, o həmin dövlətin qərarı ilə qəsdən törədilmiş olsun. Lakin Osmanlı dövləti tərəfindən ermənilərin kütləvi öldürülməsi barəsində heç bir qərara və tarixi hadisəyə rast gəlinməmişdir. Habelə Ermənistanın ilk baş naziri Kaçaznuninin Daşnakstüyun partiyasına təqdim etdiyi sənəddə də Türkiyə tərəfindən "soyqırım"ın törədilməsilə bağlı dəlillərə rast gəlinməmişdir. Hətta Türkiyənin ermənilərə qarşı köçürülmə tədbirinin görülməsində Daşnakstüyn partiyasını səbəbkar saymışdı. Bir də maraqlısı odur ki, BMT "soyqırım"cinayəti haqqında sənədi hazırlamadan öncə nəzərdən keçirdiyi bir çox kütləvi qırğınlar sırasında ermənilərin iddia etdikləri qondarma "soyqırım" hadisəsinə yer ayırmamışdır [13,s.3-7].

Ermənilər "soyqırım" hadisəsinin qondarma olmasını gizlətmək üçün məsələyə tarixi və hüquqi tərəfdən yanaşılmasının, arxivlərin açılaraq müştərək komissiyada araşdırılmasının həmişə əleyhinə olmuş, yalnız siyasi müstəvidə daimi gündəmdə tutmağa çalışmışlar. Bununla belə, "erməni soyqırımı"nın uydurma olması, dünyada türklərə və onların dövlətçiliyinə qarşı məkrli məqsədlərə qulluq etməsi barədə xeyli tədqiqat əsərləri yazılmışdır.Türk tədqiqatçısı K.Gürün, M. Perincək, amerikan alimləri A.Uimz Səmyuel, Azərbaycan tədqiqatçıları C.Həsənli, R.Sevdimalıyev, S.Hacıyev və digərləri geniş arxiv materialları əsasında yazdıqları əsərlərində




"erməni soyqırımı"nın uydurma olduğunu sübut etmişlər.

Lakin sual yaranır: Uydurma olduğu, tarixi həqiqətdən daha çox siyasi şantaj mahiyyəti daşıdığı artıq hamıya açıq-aşkar məlum olan və eyni zamanda Türkiyə üçün həssas mövzu olan bu qondarma "erməni soyqırımı"nı nəyə görə Fransa tanıyır və bu uydurmanı qəbul etməsi üçün Türkiyəyə təzyiqlər edir? Bu, "xristian təəssübkeşliyi"ndən, yoxsa Fransanın geosiyasi maraqlarından irəli gəlir? Nəyə görə Fransa erməni terrorçularına daha geniş qucaq açmış və daim onların Türkiyə əleyhinə terrorçuluq fəaliyyətinə açıq-aşkar göz yummuşdur? Türkiyə ilə ikitərəfli münasibətlərə ciddi zərbə vuran qondarma "erməni soyqırımı" məsələsinə nəyə görə Fransada bu qədər önəm verilir? Bizcə, bu sualların cavabı erməni amilinin Fransanın Türkiyə siyasətində nə qədər yeri, rolu və təsiri olduğunu göstərir.

Məsələni araşdırmaq üçün ilk növbədə Fransada ermənilərin kompakt şəkildə məskunlaşmasına və erməni diasporu və lobbisinin fransız hökümətinin daxili və xarici siyasətinə güclü təsir etməsi faktına nəzər salaq.

Belə ki, Fransada ermənilərin məskunlaşması 1811-ci ildə bəzi ermənilərin katolik məzhəbinə keçməsi ilə başlamışdır və Fransada hazırda 450000-500000 nəfər erməni yaşayır [11, s.9].

Fransaya köçən ermənilərin çox hissəsi əsası 1890-cı ildə Tiflisdə qurulmuş Daşnakstüyun partiyasının ətrafında sıx birləşmişlər. Hazırda partiyanın mərkəzi Parisdə yerləşir. "Daşnaksütyun" yarandığı andan əsas fəaliyyət üsulu kimi terror metodlarını seçib. "Daşnaksütyun"un tarixçilərindən biri Mikayıl Varandyanın K.S.Papazyana istinad edərək yazdığı kimi, Rusiya xalqçıları və italyan karbonariləri daxil olmaqla bəlkə heç vaxt "Daşnaksütyun" kimi terror aktlarının həyata keçirilməsi sahəsində belə zəngin təcrübəyə malik inqilabçı partiya olmayıb, hansı ki, çətin şəraitdə ən amansız terrorçular, həmçinin qisas almaq üçün tapança, bomba və xəncərdən istifadə edən yüzlərlə peşəkar hazırlayıb". Başqa erməni müəllifi Sarkis Atamyan iddia edirdi ki, "Daşnaksütyun" üçün "terrorizm populist və daşnakların gizli təşkilatının, Qərb anlayışında müharibəylə müqayisə edilə bilən cəsarət aktı oldu"[15].

Yalnız Daşnakstüyun partiyası deyil, bir çox digər erməni partiyaları da Fransada geniş fəaliyyət göstərir. Erməni liberal burjuaziyasını təmsil edən "Ramqavar", 1887-ci ildə əsası Cenevrədə qoyulmuş "Hnçaq" partiyası belələrindəndir.

Bu partiyalar və erməni lobbisi Fransanın nüfuzlu şəxslərini satın almaqla, yaxud da öz yalanlarına inandırmaqla Fransanın daxili və xarici siyasətinə təsir edə bilmişlər və bundan öz məqsədləri üçün istifadə etməyi bacarmışlar. Ermənistan 1965-ci ildə qondarma "erməni soyqırımı" qurbanlarının xatirəsini yad etmək məqsədi ilə aprelin 24-də kütləvi tədbilər təşkil etməyə başlamış və Çiçernakabertdə "soyqırım" abidəsi inşa etmişdir. Bu tarixdən sonra Ermənistan SSR diaspor təşkilatlarının qondarma "soyqırımı" təbliğatını koordinasiya etmişdir. Emənistan SSRİ-nin tərkibində olduğu üçün təbliğat fəaliyyətinə davam etməkdə bəzi problemlərlə qarşılaşmış, ancaq müstəqilliyini elan etdikdən sonra "soyqırım" təbliğatında fəaliyyət sahəsini genişləndirdi [5,s. s.202]. Beynəlxalq siyasi aləmdə "soyqırım" iddiasını dövlət səviyyəsində irəli sürməyə başlayan Ermənistan hökuməti Fransa kimi dövlətlərin dəstəyi ilə qondarma "erməni soyqırımı"nı qəbul etdirməklə Türkiyədən böyük miqdarda təzminatın alınmasına və türk torpaqlarında "Böyük Ermənistan" dövlətinin yaradılmasına nail olmaq istəyir.

Bunu xüsusilə qeyd etmək lazımdır ki, Fransada erməni terrorçularının özünə möhkəm yer etməsi, burada erməni terrorizminin bu və digər formada dəstəklənməsi də türk-fransız münasibətlərinə mənfi təsir göstərmişdir. Belə ki, 1970-ci illərdən etibarən Fransada ASALA terrorları ilə birlikdə siyasi münasibətlərdəki soyuqluq və geriləmə daha da artdı. 1983-ci ildə ASALA-nın Orli aerodromunda Türk Hava Yolları heyətinə təşkil etdiyi hücum nəticəsində 8 nəfər öldü. Bütün bunlar isə Türk hökuməti tərəfindən narazılıqla qarşılandı. Təsadüfi deyildir ki, TBMM-də müzakirələr zamanı Türkiyə Respublikasının Xarici İşlər naziri İsmayıl Cem erməni terrorizmini dəstəklədiyinə görə Fransanı belə suçlayırdı: "Fransa erməni terrorizminin çox canlı olduğu bir məmləkətdir. Fransada keçmişdə 6 türk diplomatı erməni terroristləri tərəfindən şəhid edilmişdir. Məlum Orli qətliamında 8 türk və fransız vətəndaşı öldürülmüşdür... Bütün Avropada yabancı düşmənçiliyinin, türk düşmənçiliyinin, müsəlman düşmənçiliyinin ən təsirli olduğu ölkə, təəssüf ki, Fransadır. Bütün Avropada, bu düşmənçilik üzərində qurulmuş partiyalar içində ən güclüsü Fransadakı Le Penin Partiyasıdır. Fransada belə zarafatlar etməyə, belə oyunlar oynamağa dəyməz; sabah, ya o biri gün, bütün Fransada bir terror dalğasının yüksəlməsinə fransızlar şahid olar"[9].

Əksəriyyətinin Sosialist partiyasının üzvlərindən ibarət olan Fransa Məclisinin 29 səslə 1998-ci ilin mayın 29-da erməni "soyqırımını" tanınmasına gətirib çıxartmışdır[12]. Amma Senat tərəfindən Məclisin qəbul etdiyi qanuna veto qoyuldu. Senat rəhbəri Rene Monori bunu qərarın leqallaşması üçün yetərli sayın olmamasıyla izah etmişdi. Belə olan halda erməni lobbisi 1999-cu ilin martında qanunun yenidən Senatın gündəminə gətirməyə çalışsa da, məqsədinə nail ola bilmədı.

Sonrakı aylarda da Fransa Parlamentində müzakirə və mübahisələr davam etdi. 9 məsələyə həssas yanaşan TBMM Baş Məclisi 9 Yanvar 2001 tarixində Fransa parlamentində qəbul ediləcək "Erməni soyqırımı" layihəsinin "tarixin təhrif edilməsinə və qərəzə söykəndiyini" ifadə edən bir bəyannamə verdi. Baş nazir Bülent Ecevid 17 Yanvarda Fransanın Ankaradakı səfiri Bernard Qarsiyanı qəbul edərək, layihənin qanuniləşməsi halında Türkiyə-Fransa əlaqələrinin zərər görəcəyi xəbərdarlığını etdi. B.Ecevid ayrıca etdiyi yazılı şərhdə Türkiyənin bu mövzudakı həssaslıqlarını bir daha vurğuladı, qorunmasına əhəmiyyət və dəyər verilən köklü Türkiyə-Fransa əlaqələrinin bu layihənin qəbulundan böyük və ciddi zərər görəcəyini ifadə etdi[9].

Buna baxmayaraq, Fransa Parlamenti 2001-ci il yanvarın 29-da erməni soyqırımı"nı qəbul etdi [4]. Bu hadisə erməni lobbisinin Fransanın daxili və xarici siyasətinə güclü təsirini aydın

göstərməkdədir.

Prezident Şirakın kompramis məzmunlu məktuba baxmayaraq, layihənin Fransa Məclisində qəbulundan sonra edilən hökumət şərhində qərar şiddətlə qınandı,Fransa hökümətinə kəskin etiraz bildirildi. Baş nazir B.Ecevid "erməni soyqırımı" layihəsinin Fransa Milli Məclisində qəbul edilməsini son dərəcə kədərli bir hadisə olduğunu ifadə edərək, "lazım olan reaksiya göstəriləcək" dedi, TBMM sədri Ömər İzgi layihənin qəbul edilməsini şiddətlə qınadığını bildirdi. Xarici işlər naziri İsmayıl Cem Fransanın Ankaradakı səfiri Bernard Qarsiyanı Xarici İşlər Nazirliyinə dəvət edərək, Fransa Milli Məclisinin qəbul etdiyi son qərarı Türkiyənin təəssüf hissi ilə qarşıladığını bildirdi,"qərar, erməni terrorizmini yenidən hərəkətə keçirə biləcək məsuliyyətsiz bir davranışdır" dedi. Ankara Ticarət Evi (ATO) sədri Sinan Aygün fransız mallarına boykot çağırışı etdi [10].

TBMM-nin bu məsələnin müzakirəsinə həsr edilmiş iclasında çıxış edən Xarici İşlər naziri İsmayıl Cem Fransanı çəkindirmək və iki ölkə arasındakı yaxın münasibətləri qoruyub saxlamaq istiqamətində Türkiyə dövlətinin fəaliyyətini bu cür ümumiləşdirdi: "Fransız Parlamentində həmişə mövcud olan bu yanlış hesablı yanaşmalar son iki ildə sürətlənərək inkişaf etmişdir və biz, bu iki il içində, Türkiyə olaraq və bu son səsvermə öncəsi də daxil olmaqla, Türkiyəmizin bütün əlaqədar qurumları, təşkilatları ilə ciddi bir iş reallaşdırdıq; danışılacaq hər şey danışıldı, həm də hər səviyyədə danışıldı. Prezidentimiz, sentyabr ayında (2000-ci ilin sentyabrını nəzərdə tutur-müəllif), Fransa prezidenti Şirakla bu məsələni müzakirə etdi və Fransadan bu səhvə yol verməməsini bildirdi. Prezident Şirakdan əlindən gələn hər şeyi etməsini istədi və orada qarşı tərəfdən gördüyümüz "biz, Prezident olaraq, əlbəttə, belə bir təklifin qanuniləşməsinə qarşıyıq; amma, bu, Məclisin işidir, bizim bundan çox deyəcəyimiz, təsirimiz ola bilməz" kimi bir yanaşma oldu. Baş nazir səviyyəsində, sonra prezident səviyyəsində təkrar məktub yazıldı. Mən, uzun müddət həmsöhbət olduğum xarici işlər nazirinə hər şeyi izah etdim; bənzər bir cavab aldım. Daha sonra əlaqədar bir çox nazirimiz, iş adamlarımız məktub yazdı, iş adamlarımız şəxsən getdi, Türkiyədə iş görənlər (fransızlar nəzərdə tutulur-müəllif) hərəkətə keçdi; əsgərimiz öz həmkarları ilə təmas qurdu; Millət Məclisimiz, Millət Məclisi Başçımız, millət vəkili yoldaşlarımız, millət vəkili heyəti ... Yəni, deyiləcək hər şey deyildi və işin gerçəyi budur: Fransada regional seçkilər, bələdiyyə seçkiləri yaxınlaşır. Bu erməni əslli fransız toplumu çox güclü, çox yaxşı təşkilatlanmış vəziyyətdədir, bir çox böyük bələdiyyədə başçılıq onların seçimi ilə təyin olunacaq... Çox detala varmaq istəmirəm; amma-aldıqları bu qərar, birbaşa, Fransız Konstitusiyasının da pozuntusudur..."[10].

Türkiyə-Fransa münasibətlərini gərginləşdirən amillərdən biri də erməni lobbisinin təsiri ilə Parisdə 2003-cü ildə erməni bəstəkarı və din xadimi Komitasın 6 metrlik heykəlinin ucaldılması oldu. Abidə üzərində "XX əsrin ilk soyqırımının qurbanı, 1,5 milyon ermənənin xatirəsinə" sözləri yazılmışdı [14].

Ermənilər qondarma erməni "soyqırımı" məsələsinin Fransa səviyyəsində real bir tarixi hadisəyə çevirmək və Türkiyəyə tanıtdırmağa sövq etdirmək üçün müxtəlif yollara əl atırdılar. Bunlardan ən mühümü isə Fransada hər dəfə keçirilən prezident və bələdiyyə seçkilərindən ermənilərin yararlanmalarıdır. Güclü erməni lobbisinin seçkilərin nəticələrinə mənfi təsir etməsindən qorxan Fransa nüfuz dairələri ermənilərə hər dəfə güzəştə getməyə məcbur olurdular. Məsələn, Nikola Sarkozinin mənsub olduğu Xalq Hərəkatı partiyası ilk vaxtlar partiya daxilində Jan Fransua və Fransua Fillon arasında gedən siyasi mübarizə səbəbindən erməni "soyqırımı" haqqında ümumi bir qərarın verilməsi çətinliyi ilə üzləşsə də, seçkilərdə ermənilərin səslərini qazanması müqabilində qondarma erməni "soyqırımı"nı inkar edənlərə ölkədə cəza qanununun tətbiq edəcəyinə söz vermişdi. Hətta erməni lobbisinin təsiri ilə Fransanın Sosialist və Xalq Hərəkatı partiyası Məclisə "soyqırımı" rədd edənləri cəzalandırılması təklifini də irəli sürmüşdülər [1, s.233].

Qondarma erməni "soyqırımı"nın inkarına görə cəza verilməsi təklifi Fransa ictimaiyyəti tərəfindən heç də birmənalı qarşılanmamışdır. Bəzi siyasi xadimlər, bunu insan haqlarına, söz və fikir azadlıqlarına zidd bir hadisə kimi qiymətləndirmişlər. "College de Frans" Osmanlı tarixinin Araşdırmalar Mərkəzinin rəhbəri Jille Veynsteyn, Fransa -Türkiyə Parlamentlərarası Dostluq qrupunun rəhbəri Mişel Defianbaşvə sağ mərkəzçi, prezdentliyə namizədliyini irəli sürmüş Fransua Bayru, Beynəlxalq Strateji Araşdırmalar İnstitunun lideri Dider Billon "soyqırımın" inkarına görə cəza verilməsinə qarşı çıxmışdır[7].

Məclisə "soyqrımın" inkarına görə cəza verilməsi təklifindən dərhal sonra Türkiyə öz ölkəsində yerləşən bir sıra Fransa şirkətlərini bağladı və Fransa ilə iqtisadi əlaqələri məhdudlaşdırdı[13, s.3]. Fransa mətbuatı bu hadisəni narahatlıqla qarşıladı. Bəzi mətbuat orqnları xüsusilə də "Le Croix" qəzeti Türkiyə ilə münasibətlərinin pozulamsının iqtisadi cəhətdən mənfi nəticələrə gətirib çıxarmasından bəhs edərək, Türkiyə-Fransa əlaqələrində gərginliyin artmasını anbaan izləyirdilər. "Le Figaro" qəzetinə istinadən Türkiyənin öz səfirliyini geri çağırmasını, "La Stampa" qəzetinə istinadən isə Fransa Xarici İşlər naziri Alen Jupp tərəfindən Türkiyəni sərt təpki göstərməməyə çağirmasını görə bilərik. "Le Parisien" və "La Tribune" qəzetləri isə erməni "soyqırımı"nın qəbul edilməsi hadisəsindən sonra Türkiyənin Fransa ilə əlaqələrini dondurulmasından, "L`Humanite" qəzeti R.Ərdoğanın Fransa ilə bərpası çətin olan əlaqələrdən bəhs etməsinə toxunaraq öz narahatçılıqlarını ifadə etmişdilər.

Bütün bu etirazlara baxmayaraq, 2006-cı il oktyabrın 12-də Fransa parlamentinin aşağı palatası qanun layihəsini bəyəndi. Azərbaycan və türk diasporunun nümayəndələri Fransa Milli Məclisdə "erməni soyqırımı"nın inkar edilməsinə görə cəza müəyyən edən qanunun qəbul edilməsinə etiraz olaraq Fransanın Praqadakı səfirliyi qarşısında etiraz aksiyası keçirmişlər. "Azər-Çex" Cəmiyyətinin sədri Elşən S.Nəzərov fransız, erməni və türk dilində yazılmış "Erməni terroru" kitabının nüsxəsini və kompakt diski (CD) səfirliyin əməkdaşına təqdim edərək, demokratik Fransanın ermənipərəst mövqedən çəkinməsini dilə gətirmişdir[6].

Qondarma erməni soyqırımını inkar edilməsinə görə cəza tədbirlərinin görülməsi haqqında qanunun müəllifi Xalq Hərəkatı partiyasının üzvü Valeri Boyer idi. Onun fikrinə görə məqsəd Tükiyə ilə münasibətləri pozmaq deyil, Fransa vətəndaşlarını qorumaqdır [3].

Beləliklə, Fransa parlamentinin aşağı palatası tərəfindən qəbul edilmiş erməni "soyqırımını" inkar edənlərin cəzalandırılması haqqında qanun layihəsi Senata təqdim edildi. Amma 18 yanvar 2012-ci ildə Senatın konstitutsiya komissiyasında qanun layihəsinin Fransa Konistitutsiyasının 33-cü maddəsindəki fikir və söz azadlığına zidd olması əsas götürülərək onun qəbul edilməzliyi qərarına gəlinmişdi. O cümlədən, qanun layihəsi Avropa İnsan Haqları müqaviləsinin 10-cu maddəsinə də zidd idi [22]. Hadisələrin gedişatı ilk vaxtlar 2006-cı ildə olduğu kimi cərəyan etsə də birdən vəziyyət ermənilərin xeyrinə dəyişdi. Belə ki, 23 yanvar 2012-ci ildə Senatda konstitutsiya komissiyasının "soyqırımın" inkarına görə cəza verilməsi qanun layihəsinin qəbul edilməzliyi qərarı rədd edildi, əksinə layihə bəyənildi və həmin gün qanunilişdirildi [19].




Siyasi təhlil göstərir ki, Fransa Türkiyənin Avropa İttifaqına daxil olmasının həmişə əleyhinə olmuşdur. Və bu məsələdə məqsədləri üst-üstə düşən fransız hökuməti və Fransadakı erməni lobbisi "soyqırım" məsələsindən istifadə etməklə Türkiyənin Avropa İttifaqına daxil olmasına da mane olmağa çalışırlar. Fransanın Türkiyənin Avropa İttifaqına daxil olmasını istəməməsi ölkə mətbuatın nüfuzlu qəzetlərdən biri olan "La Republica" qəzetində də etiraf edilmişdir. Türkiyənin Avropa İttifaqına daxil olmasının yalnız erməni "soyqırımı"nı tanınmasından sonra mümkünlüyü fikrinə bəzi nüfuzlu mətbuat orqanlarının, o cümlədən "L`Expresse" qəzetinin baş redaktoru M. Kristianın mövqeyi heç də erməni icmasının ürəyincə olmamışdı. Erməni "soyqırımı" məsələsinin insan haqlarından ayrılmamasını qeyd edən Kristian, keçmiş hadisələrin Avropa İttifaqı ilə əlaqələndirilməməsinin lazım olduğunu söyləmişdir. Nəzərə almaq lazımdır ki, Kristian Makarianın fikri sadəcə insan haqları ilə bağlı idi. Düzdür onun, sadəcə insan haqlarını nəzərə almaqla qondarma erməni "soyqrımı"nın Avropa İttifaqının gündəminə qaldırılmasının əleyhinə olması erməniləri az da olsa narazı salsa da, əslində o da erməni "soyqrımı" iddiasını dəstəkləyənlərdən biri idi. Kristian Makarian hətta Türkiyə tərəfindən erməni "soyqrımı" tanınmasa, onun Avropa İttifaqına daxil olmasının mümkünsüzlüyünü də qeyd etmişdir [1, s.232-233].

Fransanın rəsmi dairələrindən təklif edilmişdi ki, Türkiyə erməni "soyqrımı"nı tanıdıqdan sonra onun Avropa İttifaqına daxil olması məsələsinə görə bu ölkə ilə dialoq aparıla bilər. Türkiyə dövləti Fransadakı səfiri Uluc Özülkər vasitəsi ilə buna rəsmi etirazını bildirmişdir. Dialoq tərəfdarı olan bəzi siyasi xadimlər Fransanın dialoq üçün uyğun bir ölkə olmadığını bildirmişdilər. Amma erməni lobbisi hər vəchlə Türkiyə tərəfindən erməni "soyqrımı"nın tanınmasına və ondan təzminatın qoparılmasına nail olmaq istəyirdi. Ona görə də erməni lobbisi Fransa vasitəsilə Türkiyənin önünə Avropa İttifaqına daxil olması qarşılığında belə bir ağır şərti qoyaraq dialoq tərəfdarı olduqlarını israrla bildirirdilər. Erməni lobbisinin liderlərindən biri olan Klavde Mutafyan "soyqrım" məsələsinin müzakirə edilməsinə israrla nail olmaq istəyirdi.

Beləliklə, Senatın təsdiqindən sonra növbəti addım onun Konistitutsiya Məhkəməsinə təqdim edilməsi idi. Bunu Məclis və ya Senat rəhbəri, 60 millət vəkili və ya senator etməli idi. Senatorlar prezident və mənsub olduqları partiyaların təzyiqi altında idilər. Lakin qondarma erməni soyqrımına qarşı deyil, qanunun insanların fikir və söz azadlıqlarına zidd olmasını əsas gətirən 65 millət vəkili və 77 senator onun ləğvi üçün 31 yanvar 2012-ci ildə Konistitutsiya Məhkəməsinə müraciət etdi.2012-ci il fevralın 28-də Konistitutsiya Məhkəməsi qərarı ləğv etdi.

Beləliklə, N.Sarkozinin prezidentliyi zamanı erməni amili Fransa - Türkiyə siyasi əlaqələrinin pozulması istiqamətində təəssüf ki, böyük rol oynaya bilmişdir.

İndi isə Fransanın digər nüfuzlu siyasi təşkilatı olan Sosialist partiyasının mövqeyinə nəzər salaq. Yeni prezident seçkiləri ərəfəsində Sosialist partiyasından olan Fransua Olland 12 mart 2012-ci ildə Erməni Qurluşları Komitəsinin üzvləri ilə görüşərkən Türkiyənin yalnız qondarma erməni soyqırımını tanımasından sonra Avropa İttifaqına daxil olmasının mümkünlüyünü söyləmişdi [2].

Siyasi təhlil göstərir ki, 2012-ci ilin mayında Fransada Prezident seçkisində Fransua Ollandın qələbə qazanması nəticəsində ikitərəfli əlaqələr təkrar canlanma dövrünə girdi. Fransua Olland prezident seçildikdən sonra bildirdi ki, "Türkiyə ilə münasibətlərdə ağ səhifə açırıq". Tezliklə iki ölkə arasında yüksək səviyyədə siyasi münasibətlərdə buzlar əriməyə başladı.

2014-cü il yanvarın 27-28-də Fransa prezidenti Fransua Ollandın Türkiyəyə reallaşdırdığı rəsmi səfəri ilə iki ölkə arasındakı yaxınlaşma yüksək nöqtəyə çatdı.22 il idi ki, Fransa tərəfindən Türkiyəyə prezident səviyyəsində dövlət səfəri həyata keçirilmirdi. Buna görə də F.Ollandın Türkiyəyə reallaşdırdığı rəsmi səfər bir Fransa Prezidentinin bu səviyyədə 22 il keçəndən sonra reallaşdırdığı ilk dövlət səfəri olması etibarilə də mühüm əhəmiyyət daşıyırdı. Prezident F. Ollandla birlikdə geniş bir heyətin gəlməsi və təxminən 50 nəfər fransız iş adamının heyətdə yer alması diqqəti cəlb edirdi. Dövlət səfəri zamanı tərəflər arasında enerji, nəqliyyat, gömrük, kənd təsərrüfatı və kredit verilməsinin asanlaşdırılması kimi müxtəlif sahələrdə ümumilikdə 13 müqavilə imzalandı. Xüsusilə, iki ölkənin xarici işlər nazirləri tərəfindən imzalanmış "Əməkdaşlıq üçün Strateji Çərçivə yaradılmasına dair Birgə Siyasi Bəyannamə" ilə iki ölkə arasında siyasi əlaqələr yeni təşkilati bir çərçivə qazandı[16].

10 oktyabr 2014-cü il tarixində isə Xarici İşlər Nazirləri tərəfindən 2014-2016-cı illərdə Fəaliyyət Planı imzalandı [8].

Beləliklə, prezident F. Ollandın Türkiyəyə qarşı müsbət yanaşması ikitərəfli siyasi əlaqələrdə yaranmış problemlərin çözüləbiləcəyinə ümidi artırdı və xüsusilə iqtisadi əməkdaşlıq imkanlarını önə çıxartdı. F. Olland bu səfərində əlaqələrin daha çox iqtisadi tərəfini vurğulayaraq iki ölkənin arasındakı ticarət və investisiya əlaqələrinin inkişaf potensialını gündəmə gətirdi.

31 oktyabr 2014-cü il tarixində prezident Rəcəb Tayyib Ərdoğanın Fransaya reallaşdırdığı işgüzarlıq səfəri ikitərəfli əlaqələrə yeni təkan verdi. F.Olland bu görüşdə 23-cü və 24-cü fəsillərlə bağlı müzakirələrə açıq olduğunu, bu fəsillərin şərtsiz olaraq həll edilə biləcəyini vurğuladı. Eyni zamanda Fransa - Türkiyə münasibətlərinin qlobal miqyasda və çox istiqamətli olduğunu ifadə edən F.Olland kosmos və aviasiya, müdafiə, kənd təsərrüfatı və ərzaq, nüvə enerjisi kimi bir çox sahələrdə ikitərəfli əlaqələrin və investisiyaların inkişaf etdirilməsinin vacib olduğunu ifadə etdi[8].

Beləliklə, Türkiyə-Fransa siyasi əlaqələrinə erməni amilinin güclü təsir edə bilməsini aşağıdakı səbəblərlə izah etmək olar:

-Fransada XIX-XX əsrlərdə formalaşan erməni diasporu və lobbisinin, bu ölkədəki erməni partiya və terror təşkilatlarının güclü təsiri;

- Fransada XX əsrin ortalarından formalaşan türk diasporunun sayca ermənilərdən az olmasa da, zəif təşkilatlanması və Fransa hökümətinin daxili və xarici siyasətinə güclü təsir edə bilməməsi, ali idarəetmə orqanlarında ermənilər kimi təmsil olunmaması;

- Erməni lobbisi isə öz növbəsində hər seçki öncəsi qondarma erməni "soyqırımı" məsələsini daima gündəmdə saxlamağa çalışmış və ən sonda "soyqırım"ın Fransa tərəfindən tanınmasına nail olmuşdur;

- 1991-ci ildə Ermənistan Respublikası müstəqilliyini bərpa

etdikdən sonra qondarma "erməni soyqırımı"nı dövlətlərarası münasibətlər səviyyəsinə qaldırması;

-Ermənilərin Fransadan Birinci dünya müharibəsi illərində Osmanlı Türkiyəsindən torpaq vədini yerinə yetirməsini tələb etməsi;

- Türkiyə Respublikasının Avropa İttifaqına daxil olmasına Fransanın qarşı çıxması;

- Yaxın Şərq bölgəsində Türkiyə-Fransa maraqlarının xüsusilə, SSRİ-nin süqutundan sonra toqquşması (Türkiyə Respublikasının regionda rolunun artması, AKP iqtidarının "Yeni osmançılıq" siyasəti, "Ərəb baharı"ndan sonra ərəb dünyasında nüfuz üstünlüyü uğrunda mübarizə) və s.

Statistik göstəricilərin analizindən belə bir məntiqi nəticə çıxır ki, Fransada yaşayan türk diasporu daha ciddi təşkilatlanaraq güclü lobbiyə malik olmalı, Fransanın yerli idarəetmə orqanları ilə yanaşı, ali dövlət orqanlarında təmsil olunmalı və bu ölkədəki erməni lobbisini fəaliyyətini heçə endirməlidir. Ermənilərin birtərəfli qaydada dünyanı aldatmaq imkanları daralıb. Bütün bunlar isə ümidverici siyasi proqnozlar irəli sürməyə imkan verir.

Beləliklə, erməni amili həmişə Türkiyə-Fransa siyasi əlaqələrinə ciddi zərbə vurmuş, bütövlükdə dünyada sülh və əmin-amanlığın rəhni olan sivilizasiyalararası və mədəniyyətlərarası əməkdaşlığa mənfi təsir göstərmişdir.

**ƏDƏBİYYAT:**

1. *Abasov E. Fransa və qondarma erməni soyqırımı. Tarix və onun problemləri, № 1 2014, s. 232-233*

2. *Ahmet Fuat Mütevelli. Ermeni soykırımı iddiaları karşısında gerçekler, http://dergiler.ankara.edu.tr/dergiler/19/1268/14611.pdf*

3. *Армянский вопрос - одна из главных преград в турецко-французских отношениях, Сенатор/http://www.1news.az/politics /20130212040801485. htm*

4. *Assemblée nationale des affaires étrangères, compte rendu n ° 19 (Application de l'article 46 du règlement) Mercredi 10 janvier 2001 (Séance de 9 heures 30) Présidence de M. François Loncle, Président. Официальный сайт Национальной Ассамблеи Франции // www. assemblee-nationale.fr*

5. *Cabbarlı H. Ermənistanın xarici siyasəti (1991-2012). Bakı: ATSAM, 2014, 420 s.*

6. *Çexiyadaki Azərbaycan və türk diasporu Fransa parlamentinin qərarina etiraz olaraq aksiya keçirmişlər / azertag.az/.../Chexiyadaki_ Azarbaycan..*

7. *Elif Arslan. Ermeni diasporasının Ermenistan iç politikasına etkisi / Ermeni sorununun ortaya çıkışında Fransanın rolu. Kocaeli, 2006, s.143-145.*

8. *2015: Fransa'ya türk göçünün 50'nci yilinda türkiye – fransa ilişkileri sema çapanoğlu, İKV Kıdemli Uzmanı Deniz Servantie / http:// www.ikv.org.tr/images/files/ Fransa%20 türkiye%20ilişkileri.pdf*

9. *Fransa 'soykırım'ı tanıdı - Türkiye'den Fransa'ya sert tepki. Dışişleri Bakanı Cem'in TBMM'de yaptığı konuşma. T. B. M. M. Tutanak dergisi 47 nci Birleşim 23.1.2001 Salı https://www.tbmm. gov.tr/ tutanak/donem 21/yil 3 /bas/b047m.htm*

10. *Fransa 'soykirim'i tanidi Türkiye'den Fransa'ya sert tepki http://blog.milliyet. com.tr /2001-den-gunumuze-ne-degisti-/ Blog/?BlogNo=158305 18 Ocak 2001*

11. *Mazıçı Nurşen. Erməni soyqırımı qanunu və Fransa xarici siyasəti, Radikal dərgisi, 23.02.2012, sayı 11, s.9*

12. *"Milliyyet" qəzeti, 30 may 1998*

13. *Av. Nazan Moroğlu yazdı: Hukuki açıdan sözde Ermeni soykırımı iddiaları http://tbbdergisi.barobirlik.org.tr/m2015-119-1505*

14. *Sedat Laçıner. Ermeni sorunun Fransa Türkiye ilişkilerine etkisi, 6 Ocak 2010.*

15. *Sevdimalıyev R. Beynəlxalq erməni terrorizminin formalaşması və inkişafı: tarixi baxış (I hissə) http://1905.az/beyn%C9%99lxalq-erm%C9%99ni-terrorizminin-formalasmasi-v%C9%99-inkisafi-tarixi-baxis/*

16. *Türkiye Cumhuriyyeti Dış İşleri Bakanlığı. Türkiye-Fransa İlişkileri / http://www.mfa.gov.tr/turkiye-fransa-siyasi-iliskileri.tr.mfa*

17. *Гюрюн К. Армянское досье. Перевод с турецкого. Б.:Язычы,1993, 372 с.*

18. *Конвенция о предупреждении преступления геноцида и наказании за него / http://www.un.org/ru/documents/ decl_conv/conventions /genocide. shtml*

19. *Франция ввела уголовную ответственность за отрицание геноцида армян / https://gr1.global.ssl.fastly. net /Politics/ World/ Europe/m. 195073. html*

20. *Французский Сенат одобрил законопроект, предусматривающий уголовное наказание за отрицание "геноцида армян" http://mk-turkey.ru/politics /2012 /01/24/ francuzskij-senat-odobril-zakonoproekt-o-nakazanii-za-otricanie-genocida-armyan.html*

21. *www.ikv.org.tr*

22. *www.newstimes.az.*

**Açar sözlər:** *Türkiyə, Fransa, siyasi əlaqələr, erməni amili, Avropa İttifaqı*

**Ключевые слова:** *Турция, Франция, политические отношения, армянский фактор, Европейский союз*

**Key Words:** *Turkey, France, political relations, armenian factor,European Union*

**Дадашева Айнур**

**РЕЗЮМЕ**

**Влияние армянског фактора на политические связи Турции и Франции**

В статье были проанализированы влияние армянского фактора на политическим отношениям между Турцией и Францией.

В статье на основе фактических материалов выявлены, что армянский фактор всегда мешал развитию взаимных политических отношений между Турцией и Францией. Проблема так называемого «геноцида армян» была проблемой, вызвавшей холодные отношения и споры между двумя странами. Несправедливая проармянская позиция Франции временами обостряла турецко-французские взаимоотношения.

**SUMMARY**

**Dadashova Aynur**

**The influence of the Armenian factor on the political relations of Turkey and France**

The article analyzed the influence of the Armenian factor on political relations between Turkey and France.

The article on the basis of factual materials revealed that the Armenian factor has always hampered the development of mutual political relations between Turkey and France. The problem of the so-called "Armenian genocide" was a problem that caused cold relations and disputes between the two countries. The unfair pro-Armenian position of France at times aggravated Turkish-French relations.

# İqtisadiyyat

# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF PRİORİTETLƏRİ

SAMİRƏ ALLAHVERDİYEVA
Qərbi Kaspi Universiteti



O dövlətlər sabit və dinamik inkişaf edir ki, onlar düşünülmüş strategiya sərgiləyir. Hər bir müstəqil dövlətin öz idarə konsepsiyası, inkişaf prioritetləri vardır. İstər kommersiya və finans, neft və istərsə də qeyri-neft sektorunda dünya dövlətləri öz strategiyalarını sərgiləməyə, möhkəmləndirməyə çalışırlar.

Danılmaz faktdır ki, hər bir ölkənin tarixində enişlər və yoxuşlar mütləqdir ki, olub. Təbii ki, bu halın baş verməsinə təkan verən bir sıra səbəbləri vardır. Düzgün maliyyə sisteminin olmaması, real qanunların icra olunmaması, neft və qeyri-neft strategiyasının düzgün sistemləşdirilməməsi və s.. Düşünürəm ki, enişlərin çox halda baş verməsi dövlətin bir sektorla maliyyələşməsindən irəli gəlir. Məsələn dünya təcrübəsi göstərir ki, əgər bir dövlət yalnız neft sektoru ilə inkişafayönəlik siyasət yürüdürsə, o halda neftin ucuzlaşması, dəyərsizləşməsi həmin ölkənin sürətli şəkildə itgilərinin artmasına səbəb olmuşdur. Bu səbəbdən də yalnız bir sahənin inkişaf etdirilməsi, bir istiqamətdə iqtisadiyyatın idarəedilməsi düzgün siyasət sayıla bilməz.

Dünya dövlətlərinin inkişaf prioritetlərinə nəzər salsaq daha çox qeyri- neft sektorları ilə özünü formalaşdıran ölkələrin güclü olması və daha az riskə sahib olmalarını açıq şəkildə müşahidə edə bilərik.

Dünyada baş verən proseslər heç bir ölkəyə təsirsiz ötüşə bilməz, çünki hər bir dövlət ayrılıqda dünyanın bir hissəsi, tərkibidir. Ona görə də qloballaşan dünyada baş verən hər bir hadisə bütün dövlətlərə bu və ya digər formada təsirini göstərir. Bu da əlbətdəki təbiidir.

Dünya dövlətlərində baş verən devalivasiyalar dünyanın bir parçası olan Azərbaycana da təsirsiz ötüşə bilməz. Bu gün yalnız neft sektoru ilə deyil, qeyri-neft sektorunun da inkişaf etdirilməsi ilə dünya gündəmində ön yerlərdə olan Azərbaycan öz inkişafı istiqamətində yeni addımlar sərgilədiyi hər birimizə agahdır. Qeyri-neft sektoru kimi, Kənd təsərrüfatı, elm-təhsil, yeni innovasiyalar, incəsənətin inkişaf etdirilməsi və s. bu kimi bir sıra istiqamətlərdə aparılan işlər Azərbaycanın neft sektoruna olan asılılığını əlbətdəki dəfələrlə azaldır.

2018-ci ilin yanvar-sentyabr aylarında qeyri-neft sektoru üzrə 1 milyard 207 milyon ABŞ dolları dəyərində mal ixrac olunmuşdur, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixracın 138 milyon ABŞ dolları və ya 13% artımın göstəricisidir. 2018-ci ilin sentyabr ayının göstəricilərinə nəzər salsaq görərik ki, Türkiyəyə 2017-ci ildə 27.5 milyon dollar həcmində ixrac edilmişdirsə 2018-ci ilin sentyabr ayında bu rəqəm 27.1 milyon dollar, Rusiyaya 2017-ci ildə 15.9 milyon dollar həcmində ixrac etdiyimiz halda 2018- ci ildə 25.7 milyon dollar, İsveçrəyə 2017-ci ildə 14.1 milyon dollar olduğu təqdirdə 2018-ci ildə 13 milyon dollar həcmində ixrac, Gürcüstana 2017-ci ildə 7.9 milyon dollar olduğu təqdirdə 2018-ci ildə 8.9 milyon dollar, Qazağıstana 2017-ci ildə 2.4 milyon dollar olduğu halda 2018-ci ildə bu rəqəm 3.8 milyon dollar olaraq eniş və qalxışlarla müşahidə olunmuşdur.

2018-ci illə 2017-ci ilin yanvar-sentyabr aylarında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi arasında etdiyimiz ixrac prosesinə də ümumi olaraq nəzər salsaq görərik ki, son iki il ərzində ixrac prosesi ən çox həyata keçirilən ölkələr Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan, Qazağıstan olaraq sıralanır. Lakin müqayisəli şəkildə nəzər salsaq müşahidə edəcik ki, ümumi məbləğdə xeyli artım və azalma vardır. Bunu müqayisəli şəkildə qeyd etdiyim Cədvəl №1-də də aydın şəkildə görmək mümkündür.

**Cədvəl №1**

**2018-ci ilin yanvar-sentyabr aylarında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi (2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| | 2017 | 2018 |
|---|---|---|
| Rusiya | 365.8 | 402.2 |
| Türkiyə | 223.4 | 275.6 |
| İsveçrə | 97.7 | 105.2 |
| Gürcüstan | 98.8 | 97.4 |
| Qazağıstan | 21.3 | 34.3 |

Respublikamızda həyata keçirilən düşünülmüş siyasət nəticəsində qeyri-neft sektorundan gələn gəlir və ixracın artması istiqamətində dəyişilməsi sürətli şəkildə dəyişilir. 2017-ci il ərzində qeyri- neft sektoru üzrə yanvar - sentyabr ayında ixracdan əldə edilmiş gəlir 1 milyard 69 milyon ABŞ dolları olmuşdur. 2017-ci illə 2016-cı il arasındakı ixrac məbləğinin fərqinə baxsaq görərik ki,

25 faiz artım olmuşdur. 2017-ci illə 2018-ci ilin müvafiq müddəti arasında isə 13 faiz artım müşahidə olunmuşdur. Əlbətdəki bu da böyük göstəricidir. 2017-ci ildə ən çox ixracat Rusiya Federasiyasına edilmişdir. Bu göstərici 2016-cı ildə də belə idi. 2018-ci ildə də qeyri neft sektoru üzrə ixracat edilən ölkələr arasında Rusiya öz birinciliyini qoruyub saxlamaqdadır. Qeyri-neft sektoru üzrə ixracat göstəricilərinin 2017 və 2018-ci illərin yanvar-oktyabr ayları ərzində olan göstəricilərin aydın şəkildə Cədvəl-2də qeyd etmişəm. Cədvəl 2-dən aydın şəkildə bu zaman kəsimində hansı əmtəələrin və nə qədər miqdarda, həmçinin, hansı aylar ərzində ümumi göstəricilərini aydın şəkildə müşahidə etmək olar.

**Cədvəl 2**

**2017 və 2018-ci ilin 9 ayında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı**

***Mənbə: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi***

| İllər | Aylar | İxrac Məhsulları | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Tomat | Qızıl | Fındıq ləpəsi | İlkin formalı polietilen | Metanol (metil spirti) | Pambıq lifi | CƏM: |
| 2 0 1 7(dollar) | Aprel | 18381.11 min | 2550.15 min | 8384.72 min | 8571.08 min | 2725.63 min | 3034.46 min | 1 milyard 69 milyon ABŞ dolları(yanvar-sentyabr ayları ərzində) |
| | May | 46 mln | 4 mln | 2.4 mln | 7 mln | 4mln | 2mln | |
| | İyun | 40724.96 min | 25574.09 min | 1797.89 min | 7209.70 min | 5229.41 min | * | |
| | İyul | 6920.93 min | 9787.59 min | 1597.03 min | 5987.47 min | 7309.42 min | 2345.54 min | |
| | Avqust | 128.1 mln | 14 mln | 38.6 mln | 57 mln | 25.8 mln | 25.7 mln | |
| | Sentyabr | * | 13.9 mln | 23.5 mln | * | 4.7 mln | * | |
| | Oktyabr | 2.7 mln | 17.2 mln | 26.6 mln | 2.4 mln | 5.1 mln | * | |
| 2 0 1 8(mln dollar) | Yanvar | 7.9 | 17.2 | 9 | 9.7 | * | 6.5 | 1 milyard 207 milyon ABŞ dolları(yanvar-sentyabr ayları ərzində) |
| | Fevral | 6.8 | 7.2 | 6.3 | 8.8 | * | 3.4 | |
| | Mart | 9.3 | 6.6 | 8.3 | 7.8 | * | 3.3 | |
| | Aprel | 18.5 | 3.4 | 6.7 | 8.7 | * | 7 | |
| | May | 54.3 | 14.1 | * | 7.7 | * | 5.3 | |
| | İyun | 43.2 | 12.4 | * | 7.7 | 3.9 | * | |
| | İyul | 4.1 | 7.8 | * | 7 | 6.6 | 16.4 | |
| | Avqust | * | 12.6 | * | 5.7 | 2.7 | 12.4 | |
| | Sentyabr | * | 11.9 | 12 | 4.6 | 7.1 | 5 | |

İxracatın önəmli olması ilə yanaşı digər sahələrin də inkişaf etdirilməsi dövlətin daha da möhkəmlənməsinə, risklərinin azaldılmasına yardımcı olan əsas amillərdən biridir. Daha əvvəldə qeyd etdiyim kimi, dövlətin biristiqamətli inkişafı həmin dövlətin devalivasiya riskini çoxaldır. Bu səbəbdən də gəlir sahələrini gücləndirmək məqsədi ilə bir çox sahələrin inkişaf etdirilməsi önəmli faktorlardandır.

Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilmişdir. Danılmazdır ki, bir çox dövlətlərin əsas gəlir mənbəyi elə turizmin adı ilə bağlıdır. Son illərdə Azərbaycanda da turizmin inkişaf etdirilməsi, bu sahədə yüksək işlərin görülməsi təqdirəlaiqdir. Müxtəlif dünya dövlətləri səviyyəsində təşkil edilən yarışların, formların və s. keçirilməsinə ev sahibliyi etməsi artıq Azərbaycanın Dünyada tanınması, güvən qazanmasının baris nümunəsidir. Elə bu səbəbdəndir ki, artıq son illərdə xarici qonaqlarımızın sayı kifayət qədər çoxalmışdır.

Turizmin inkişaf etdirilməsi istər dövlətlərarası əlaqələrin gücləndirilməsində, münasibətlərin sıxlaşmasında, istərsə də yeni iş yerlərinin yaradılması, işsizliyin azaldılması və s. baxımından da çox önəmli amillərdəndir. Bu səbəbdən də bu sahədə güclü işlərin icrasına, müxtəlif tədbirlərin təşkilinə böyük əmək sərf olunur. Dövlətin tanınması, güvən qazanması üçün keçirilən yarışların, görüşlərin çox böyük əhəmiyyəti vardır. Belə ki, yarışlara gələn və gəlməyən hər kəs bu barədə məlumatlanır və bu da təbii ki, çox yaxşı reklam növüdür. Son dövrlərdə elə bu səbəbdəndir ki, Azərbaycana turist axını durmadan artır.

2018-ci ilin yanvar-oktyabr ayları üçün Dövlət Sərhəd Xidmətinin verdiyi məlumata əsasən qeyd etmək istərdim ki, dünyanın 194-ölkəsindən turistlər qonağımız olmuşdur. Gələn turistlərin sayı 2 milyon 420,4 min və ya ötən illə müqayisə etsək 6.1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələn turistlər fərqli ölkələr üzrə faiz göstəricilərə bölünür. Bunu əyani şəkildə göstərmək üçün Qrafik-1-ə nəzər yetirək.

**Qrafik-№1**




Respublikamıza gələn turistlərin bu ilə olan göstəricilərinin 65,5 faizi kişilər, 34,5 faizi isə qadınlara aiddir. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 7,7 faizi yanvar, 6,9 faizi fevral, 11,4 faizi mart, 9 faizi aprel, 8,6 faizi may, 11,1 faizi iyun, 13,6 faizi iyul, 13,3 faizi avqust, 9,6 faizi sentyabr, 8,8 faizi isə oktyabr ayında ölkəyə gəlib. Turistlər fərqli nəqliyyat vasitələrindən istifadə edərək Azərbaycana qonaq gəlmişdir. Statistik göstəricilərə baxsaq görərik ki, əcnəbilər və vətəndaşlığı olmayan turistlərin 56.5 faizi dəmir yolu və avtomobil, 42.5 faizi hava, 1faizi isə su nəqliyyatından istifadə etmişdir.

Azərbaycana səfər edən turistlərin olduğu kimi Azərbaycandan da digər dövlətlərə gedən kifayət qədər vətəndaşımız vardır. Cari ilin yanvar-oktyabr ayları ərzində xarici dövlətlərə gedən vətəndaşlarımızın sayı 4 milyon nəfər olmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 16.2 faiz artaraq 4 milyon 14.6 min nəfər təşkil etmişdir. Xarici dövlətlərə səfər edən vətəndaşlarımız 80.8 faizi dəmir yolu və avtomobil vasitəsi ilə, 18.4 faizi hava, 0.8 faizi isə su nəqliyyatı vasitəsi ilə səfər etmişdirlər.

Qeyri-neft sektorunun bu və ya digər sahələrdə inkişafı əlbətdəki dövlətin inkişafına, büdcəsinə çox əhəmiyyətli dərəcədə öz təsirini göstərir. Neft sektorundan asılılıqdan azad olmuş ölkələr hər zaman bir addım öndədir deyə düşünürəm. Qeyri-neft sektorunun kifayət qədər geniş qolları vardır ki, hər bir dövlət də öz inkişafına uyğun olan sahəni prioritet götürə bilər. İstər təhsil, istər ixracat, istər turizm və istərsə də digər qeyri-neft sektoru sahələri hər biri dövlətin inkişafında əhəmiyyətli faktorlardan biridir. Bu səbəbdən də düşünürəm ki, düzgün istiqamətdə işlərin aparılması üçün həm də savadlı kadrların yetişdirilməsi çox əhəmiyyətlidir. Çünki, düzgün



araşdırmaların və araşdırmalara uyğun işlərin tətbiq edilməsi üçün bu çox vacib faktordur.

